"GENDER VƏ İNSAN HÜQUQU"
ARAŞDIRMA BİRLİYİ (GİHAB)

ƏLİ ABASOV

RƏNA MİRZƏZADƏ

# GENDERƏ GİRİŞ

(Cəmiyyətdə cinslərin sosial rolları və qarşılıqlı münasibəti problemləri)

BAKI - 2004

**Əli Seyidabbas oğlu Abasov, Rəna Seyidrza qızı Mirzəzadə. "Genderə giriş"." Gender və İnsan Hüququ" Araşdırma Birliyi (GİHAB ).** Bakı 2004, 120 səh.

Nəşr Açıq Cəmiyyət İnstitutu - Yardım Fondunun maliyyə dəstəyi ilə həyata keçirilmişdir.

Kitab cəmiyyətdə cinslərin sosial rolları və qarşılıqlı münasibətinin bəzi fəlsəfi, tarixi və sosial-siyasi problemlərinə həsr olunmuşdur. Kitabda müasir dövr Azərbaycan reallıqları konkret rəqəmlər, faktlarla gender statistikası aspektində təhlil olunmuş, müəyyən təklif və tövsiyyələr verilmişdir. Kitab geniş oxucu kütləsi, QHT-lər, tədqiqatçılar, müəllim və tələbələr üçün nəzərdə tutulmuşdur.

G $\frac{1201000000}{121\text{-}2004}$

© ƏLİ ABASOV, RƏNA MİRZƏZADƏ

## MÜNDƏRİCAT


Giriş .......................................4
1. Gender anlayışı haqqında ümumi məlumat. ......7
2. Gender: tarix, ideya və nəzəriyyələr............22
3. Bərabərhüquqluq, qadın hərəkatı, gender .......27
4. Gender və mədəniyyət.......................39
5. Cəmiyyətin feminist tənqidi. ...................43
6. Genderin Azərbaycanda təşəkkülü və
gender statistikası ..........................49
7. Nəticə ......................................81
8. Tədris proqramları ..........................84
9. Kiçik ensiklopediya ..........................96
10. Əlavələr ...................................97

## GİRİŞ

XX əsrin son qərinəsində idrakda yeni istiqamətlərin yaranması müşahidə edilir. Bu istiqamətlər ayrı-ayrı fənlərin çərçivəsinə yerləşmir, istər təbiət, istərsə də humanitar xarakterli elmlərin geniş sahələrinin ümumiləşməsini iddia edir. Təbii ki, bu da paralel olaraq metodoloji dünyagörüşü və ümumi fəlsəfi problemlərə də toxunur. Eyni zamanda, onlar bizim yaşadığımız dünya, bəşəriyyətin yaratdığı sivilizasiya və müəyyən sistemə salınmış idrak üsulları haqqında qərarlanmış təsəvvürlərimizə də öz dəyişmələrini gətirir. Bu baxımdan qlobal və sosial ekologiyanı, sistemli tədqiqatları, müasir informasiya nəzəriyyəsini, sinergetikanı və bir sıra digər sahələri də buraya daxil etmək olar. Bu gün bu istiqamətlərə XX əsrin sonundan etibarən daha çox aktuallıq kəsb edən, özünün nəzəri və praktiki tətbiqini genişləndirən gender tədqiqaitlarını tam hüquqla daxil etmək olar.

Təqdim olunan dərslikdəki mühazirələr respublikamızda gender tədqiqatilarına - "cinslərin qarşılıqlı münasibətinin fəlsəfəsi"nə, mədəni ən'ənələrin təsiri altında cəmiyyətdə qadın və kişinin sosial vəziyyətlərinə, onların rollarını tədqiq edən istiqamətə həsr olunan ilkin tədqiqat yönümlü kitabın (Bax: Əli Seyidabbas oğlu və Rəna Seyidrza qızı "Gender tədqiqatları", B., 1999) yenidən işlənmiş və təkmilləşmiş nəşridir.

Azərbaycan üçün gender tədqiqatları yeni, geniş ictimaiyyətə tanış olmayan mövzudur. Qeyd edək ki, MDB ölkələrində II minilliyin sonundan problem tədqiq olunur, dünya praktikasında isə bu tədqiqatların yaranmasının yaşı XX əsrin 60-cı illərindən başlayır. Gender tədqiqatlarının qaynaqlarında əsasən qadınlar dururdu və buna görə də bəziləri səhvən, bəziləri isə bilərəkdən gender mövzusu-

nu qadın problemi ilə paralel müstəviyə gətirirlər.

Bəs bu anlayışın tarixi haqqında nə bilirik? Nə üçün Qərbdə bu problem belə aktualdır? "Gender nədir?" kimi sualların cavabını axtararkən də çox vaxt qadın məsələsinin "genderi" əvəz etməsinə gəlib çıxırıq.

Kitabda mövzunun bir sıra əsas probleminin qoyuluşuna, tarixi,fəlsəfi yönümdə izahına, klassifikasiyasının müəyyən araşdırmalarla verilməsinə cəhd olunmuşdur.

Kitabda əks olunan ümumi və xüsusən də respublikamıza aid problemlər kompleksi qeyd olunan sahənin daha yeni və tədqiqata ehtiyacı olan məqamları ilə bağlıdır. Artıq bu gün "gender" anlayışı ilə bərabər "gender elmi", "gender tədqiqatları" adlanan xüsusi bir tədqiqat istiqamətləri də formalaşmaqdadır. Bir önəmli cəhəti nəzərinizə çatdıraq ki, artıq Qərbdə gender problemləri üzrə sırf elmi mütəxəssislər hazırlanır, dərsliklər, kitablar nəşr edilir. Dünya şöhrətli Oksford universitetində gender problemi üzrə dissertasiya işləri yazılır, geniş həcmdə tədqiqat işləri aparılır. Bu baxımdan Azərbaycanda da müəyyən irəliləyişləri qeyd edə bilərik. Belə ki, BMT-nin "Gender İnkişafda" layihəsinin (1997-2000-ci illər) bilavasitə dəstəyi ilə (koordinatoru dosent R.İbrahimbəyova) Azərbaycanda gender probleminin tədrisi və tədqiqinə, təbliğinə imkan yarandı. Bu gün AMEA, BDU, Qərb Universiteti, Qadın Problemləri üzrə Dövlət Komitəsi və bəzi nazirliklərin də nəzdində gender problemləri üzrə şöbələr var, gender artıq tədris olunur, müəyyən tədqiqat işləri aparılır.

Sizə təqdim etdiyimiz kitab populyar xarakter daşıyır və oxucuları gender problemlərinin əsası ilə tanış etmək məqsədi güdür. Bu kitabda ümumi "Genderə giriş" tədris kursunu əhatə edən altı mühazirə mətni, iki tədris proqramı verilmişdir. Qeyd edək ki, mühazirələr ya 18 saat və ya 24 saatlıq mühazirə kursları üçün nəzərdə tutulmuş-

dur.

Kitabın "Əlavələr" hissəsində oxucuların istifadəsi üçün əlavə materiallar, kiçik ensiklopediyadada isə bəzi anlayışların izahı verilmişdir.

## 1. GENDER ANLAYIŞI HAQQINDA ÜMUMİ MƏLUMAT

- **Problemin mahiyyəti.**
- **"Gender" anlayışı haqqında.**
- **Qadın məsələsinə yeni baxış.**
- **Kişi və qadın stereotipləri.**

XX əsrin 60-cı illərindən etibarən Qərb ölkələrinin sosial elmlərində (antropologiya, tarix, psixologiya, fəlsəfə və s.) işlədilən "gender" anlayışı qadın probleminin ələlxüsus, cəmiyyətdə qadın və kişi münasibətlərinin təhlili ilə əlaqələndirilir. Qadın və kişi münasibətlərinin adekvat təhlili üçün bioloji amillərin kifayət olması fikri də bu dövrə təsadüf edir.[1]

XX əsrin 70-ci illərindən qərb ədəbiyyatında, əsasən ingilisdilli ədəbiyyatda, sonralar isə müxtəlif ölkələrdə, hazırda Azçərbaycanda da gender anlayışı haqqında müəyyən tədqiqat cəhdləri və mülahizələri ilə rastlaşırıq.

Müasir dövrdə "Gender münasibətləri" dedikdə şərti olaraq cinslərin ancaq sosial-mədəni sahədəki olan qarşılıqlı münasibətləri nəzərdə tutulur. Hərçənd bu baxış yekdilliklə qəbul edilməyib.[2]

Uzun illər ərzində keçmiş SSRİ-də qadın hüquqlarına dair hər hansı elmi görüşlərin meydana çıxmasına, məsələyə aid tədbirlərinkeçirilməsinə imkan verilmirdi. Qərb isə belə hesab edirdi ki, bu mövzu ilə bağlı keçmiş SSRİ məkanında heç bir ciddi tədqiqat işi aparılmadığından və bu işə istiqamət verə biləcək xüsusiləşdirilmiş tədqiqat mərkəzləri də olmamışdır. Qeyd etmək yerinə düşər

---

[1] R.İbrahimbəyova. "Gender günün tələbidir". "Gender: qadın probleminin yeni mərhələsi" kitabında, B., 1998, s. 4.

[2] Z.Quluzadə "Keçid dövründə respublikada gender və qadın problemləri" məqaləsi. "Gender: qadın probleminin yeni mərhələsi" kitabında, B., 1998, s. 8.

ki, yalnız "qadın məsələsi" mövzusunda araşdırmalar olmuşdur. Bu təsadüfi deyildir. Keçmiş Sovetlər İttifaqının təbliğat aparatı bütün dünyaya sübut etməyə çalışmışdır ki, "bizim ölkədə" qadın məsələsi birdəfəlik həll edilmiş, qadınlarla kişilərin bərabər hüquqluluğuna tam nail olunmuşdur. Sovet dövrünün "qadın məsələ"sində cinslərin rəsmi bərabərliyi de-yure möcud idi: bərabər iş üçün bərabər əmək haqqı var idi; hökumətin bütün səviyyələrində qadınların təmsil olunmalarını təmin edən kvota sistemi və xüsusi sosial yönümlü - qadınların bir çox hüquqlarını tənzimləyən qanunvericilik qüvvədə idi. Lakin de-fakto isə cinslər arası bərabərlik məsələsi asimetrik idi. Hakim idealogiyaya tabe olan "Qadın şura"ları "qadın məsələ"sini tənzimləyir, qadınların mənafe və maraqlarını ideologiyaya uyğun təmsil edirdi. XX əsrin 80-ci illərində "qadın məsələ"si artıq ideologiyasızlaşdırıldı, Qadın şuraları yeni qadın qeyri-hökumət təşkilatları - QHT-lərlə əvəzləndi. Məlum Sovet Hökuməti 1981-ci ildə "Qadınlara münasibətdə ayrı-seçkiliyin ləğv olunması haqda Konvensiyaya" imza atmışdır. Sovet məkanında ilk dəfə isə 1991-ci ildə Moskva şəhərində "Gender tədqiqatları: vəziyyəti və perspektivləri" problemlərinə dair dünyanın qabaqcıl alimlərimnin iştirakı ilə Beynəlxalq görüş keçirilmişdir.

Əksər qərb ölkələrində "feminist tədqiqataları", "gender tədqiqataları" və "qadın problemləri tədqiqatı" məfhumları çox vaxt sinonim kimi işlədilmişdir. Lakin, elmi praktikada ənənəvi anlayış kimi bu deyim "qadın problemlərinin tədqiqatı" məzmununda qəbul edilir. Bu istiqamət "qadın probleminin elmi qolunun" həm nəzəri tədqiqetmə, həm də təcrübi-öyrədən hissəsi kimi təhlil edilir. Tədqiqat bu baxımdan qadınların ictimailəşməsinin tarixi prosesini əks etdirir, onun tərkib hissəsini, cinslərin mühüm xüsusiyyətlərini araşdırır.

Gender - qadınların fəaliyyət proqramı olan Pekin Platformasında "cinsi xüsusiyyətləri nəzərə alan elm" kimi xarakterizə olunur. Belə ki, Pekin Bəyannaməsinin 3-cü Platformasında deyilir: "bütün dünyyada gender bərabərliyinə nail olmaqla bağlı qadınların qarşısında qoyulan məsələlər ancaq kişilərlə tərəf-müqabillik əsasında həll oluna bilər".

Gender tədqiqatları - bu, ilk növbədə cinsin sosial psixoloji və sosial mədəni xüsusiyyətləri aspektindən öyrənilməsidir. Əlbəttə, burada iqtisadiyyat, siyasət və sosial mühit də nəzərə alınır. "Gender tədlqiqatları" anlayışı bizdə nə elmdə, nə də içtimai həyatda özünə yer tapmamışdırsa da, o öz predmetinə görə fəlsəfi və sosioloji tədqiqatlara daha yaxındır. Bu baxımdan qadın hərəkatları inkişafının və qadınların vəziyyətinin sosial-fəlsəfi aspektinin öyrənilməsini qeyd etmək olar. Lakin, bu tədqiqatların nəzərə çarpacaq fərqləri də vardır. Belə ki, qadınların sosial həyatında, davranışında və digər hallarda psixoloji faktorların rolu vaxtilə qiymətləndirilməmiş, ən nəhayət qadınların vəziyyətinin tərbiyəvi-tədrisi funksiyalarının öyrənilməsi ilə tamam məşğul olunmamışdır. Bununla əlaqədar bir neçə məqamları qeyd edək.

Birincisi: postsovet məkanında yalnız yenidənqurma dövründən başlayaraq sosioloqlar bu məsələlərin öyrənilməsinə diqqəti artırdılar. Onlar qadın hakimiyyət və siyasətdə, qadın və bazar, qadın davranışının psixologiyası və s. kimi tədqiqatlar aparmağa başqladılar. Əgər əvvəllər qadınlar tək əməkçi, ən yaxşı halda bir ana ya uşaqların tərbiyəçisi kimi tədqiq olunurdusa, sonradan tədricən qadınların vəziyyətinin, cəmiyyətdə sosioloji rolunun və psixoloji xüsusiyyətlərinin bütün müxtəlifliyi ilə sosial analizinə keçilir.

İkincisi: həm ölkəmizdə, həm də xaricdə "qadın məsələsinin" məzmunu nəzərə çarpacaq dərəcədə dəyişmişdir.

Bir çox inkişaf etmiş ölkələrdə qadınlar böyük nailiyyətlər qazanmış, onlar ictimaiyyət tərəfindən sosial-iqtisadi və siyasi hüquqlarının tanınmasına, analığın və uşaqların müdafiəsinə nail olmuşlar. Eyni zamanda qadınların dövlət idarəetmə sistemində, istehsalatda maraqlarını mühafizə edən, onların şərəfini və mənliyini qoruyan qanunların və inzibati qaydaların da qəbul edilməsinə nail olmuşdur. İndi "qadın məsələsinin" qoyuluşunun və həlli yollarının ağırlıq mərkəzi cəmiyyətin sosial-iqtisadi və siyasi inkişafının vəzifələri və imkanları ilə təyin olunan qadın statusunun artması tərəfə daha çox meyl edir. Belə ki, gender tədqiqatları cinsin birinci-bioloji aspektindən fərqlənərək, onun digər aspektlərinin də araşdırılmasını məqsəd sayır. Son nəticə belədir ki, gender tədqiqatları psixoloji keyfiyyətləri, davranış modelini, fəaliyyət növlərini, qadın və kişinin peşəsini sosial mədəni, psixoloji aspektdə öyrənir.

İdeoloji baxımdan "qadın məsələsi" həm də özünün birölçülülüyünü itirib, müxtəlif yönlü olmuşdur. Əsas problem - ölkənin inkişaf yolları - cəmiyyəti bütünlükdə təbəqələndirdiyi kimi, qadınlar arasında da ayrı seçkiliyə səbəb olmuşdur. Qadınları yalnız ümumi maraqlar: təhsilə, səhiyyəyə və qadın əməyinə dövlət himayəsi deyil, işləyən qadınlara sosial zəmanətlər və nəhayət, uşaqların saxlanması, tərbiyə olunması üçün lazımi şəraitin yaradılması kimi problemlərdə birləşdirir. Digər tərəfdən, bazar iqtisadiyyatına keçid dövründə qadınlar işsizlikdən, cəmiyyətdə sosial və maddi cəhətdən təbəqələşmədən, istehsal sahələrindən kənarlaşdırılmaqdan ilk növbədə əziyyət çəkirlər. Bu səbəbdən qadınlar iş yerini itirmək qorxusu altında, yüksək və zəmanətli əmək haqqı verilən, lakin fiziki cəhətdən ağır işlərdə çalışmaq məcburiyyətində qalırlar. Öz növbəsində, bu dəyişikliklər qadınların siyasiləşməsinin, sosial etirazın həyata keçirilməsində iştirakının, partiyaların və ictimai hərəkatların, müxtəlif kütləvi

birliklərin tərkibində fəaliyyət göstərməsinin labüdlüyünə şərait yaradırdı ki, bu da cəmiyyətin inkişafının keçid və dönüş dövrləri üçün xarakterik xüsusiyyətlərdir.

Üçüncüsü: qadının cəmiyyətin inkişafındakı sosial rolunun fəlsəfi-sosioloji analizində iki müxtəlif baxış mövcuddur. Onlardan biri qadınlara sosial-demoqrafik qrup kimi, o birisi isə müəyyən olunmuş sosial statusa malik, öz spesifik demoqrafik xüsusiyyətləri ilə fərqlənən iri birlik, nadir sosial qrup kimi baxır. İkinci variant daha qəbul oluna biləndir, çünki, qadın-real mövcud olan və empirik qeydə alınan nisbətən tam və sabit sosial qrupdur. Onlar sosial və siyasi proseslərdə, istehsal sahələrində, mədəniyyətdə və insan həyatına xas olan digər sahələrdə fəaliyyət göstərirlər. XX əsrin tarixi, əlaləxüsus ölkəmizin tarixi (əsasən son dövrlərə aid) "qadın-siyasətin obyektidir" tezisinin dardüşüncəliliyini, hətta sosial və mənəvi cəhətdən tam dəyərsiz olduğunu sübut edir. Əksinə, qadınlar praktiki olaraq tam azadlığa çıxmamış sosial qüvvə, onun subyekti kimi son dövrlərdə fəaliyyətlərini artırmışlar. Bu qüvvə tarixin gedişinə təsir edə bilən, müxtəlif vasitələrlə müdaxilə edir, cəmiyyətin tərəqqisini sürətləndirir və ya ləngidir, münaqişələrin yaranmasına və ya onların həllinə şərait yaradır və qarşısını alır.

Dördüncüsü: dünya tarixindən məlumdur ki, bir sıra iri siyasi və sosial-iqtisadi böhranlar dövründə qadınlar ictimai hərəkatların yaranmasının təşəbbüskarları, bəzən də liderləri rolunda iştirak etmişlər. Bu zaman onlar nəinki "güclü cinsi" təkrar etməmiş, hətta kişilərə, onların əxlaqına , dünyagörüşünə və s. təsir göstərmişlər.

Qeyd etdik ki, qadınlar özlərinin sərt olmayan strukturlu özünütəşkil formalarını (formal və qeyriformal) yəni, qadın QHT-lərini yaradırlar. Ümumi maraq dairəsi olan qadınlar bu təşkilatlarda ya kiçik müddətə, ya da uzun müddətə birləşirlər. Bununla əlaqədar hətta elmi ədə-

biyyatda eyniləşdirilən "qadın məsələsi" və "qadın hərəkatı" kateqoriyalarının bir-birindən fərqləndirilməsi zərurəti meydana çıxır.

"Qadın məsələsi" qadınların cəmiyyətdəki vəziyyəti, onların asılılıqdan azad olmaları proqramının əsaslandırılmasını və ictimai həyatın bütün sahələrində kişilərlə eyni hüquqa nail olmaları yollarının dərk edilməsini nəzərdə tutur.

"Qadın hərəkatı" sözün geniş mənasında qadınların öz hüquqları və maraqları uğrunda mübarizə formalarının müxtəlifliyini bildirir. Sosioloqlar qadın hərəkatını sosial hərəkatın bir forması kimi öyrənirlər. Qadın hərəkatı özlüyündə bir məqsəd ətrafında birləşmiş, ümumi mənəvi dəyərlərə, normalar sisteminə və qadın dəyərlərinin rəmzinə malik olan müxtəlif sosial, demoqrafik, etnik, milli qadın qruplarının birgə fəaliyyəti deməkdir.

Qadın hərəkatı əvəzinə, vahid formal lideri olmayan, məqsədlərinin geniş ifadə vasitələrinə malik, özünün mənəvi dəyərləri və davranış prinsipləri olan müxtəlif yönümlü onlarla qadın ittifaqları, assosiasiyaları, birlikləri və klubları meydana gəldi. Hələlik bu qadın hərəkatları öz məqsədləri uğrunda mübarizədə səylərini birləşdirmək əvəzinə, ayrı-ayrılıqda fəaliyyət göstərirlər. Onların hər biri sosioloqlar tərəfindən tədqiq edilməli, bu, siyasi münasibətlərin sosiologiyasının istiqamətlərindən biri olmalıdır.

Beşincisi: gəlin feminizmi nəzəri və praktiki cəhətdən analiz edək. Bizdə feminizmi ya nəzəriyyə kimi, ya da qadınların ictimai həyatda kişilərlə bərabərhüquqluluq uğrunda mübarizəsi və hüquq pozuntularına qarşı qadın hərəkatı kimi şərh etməyə cəhd etmişlər. Lakin, həmişə olduğu kimi həqiqət müxtəlif fikirlərin birləşdiyi nöqtədə meydana çıxır. Beləliklə, feminizm həm qadın hərəkatının nəzəriyyəsi, həm də istər beynəlxalq miqyasda, istərsə də onların milli və tarixi xüsusiyyətlərindən asılı olaraq ayrı-

ayrı ölkələrdə olan və ya inkişaf edən qadın hərəkatının özüdür. Açığını demək lazımdır ki, lap son dövrlərə qədər feminizm bizim ölkədə nə sosioloji nə də sosial-psixoloji mövqedən ciddi araşdırılmamışdır.

Bir çox illər bu problemin öyrənilməsinə qadağa qoyulmuşdu. Bu qadağa fərq qoyulmadan onun bütün istiqamətlərinə şamil edilmişdi: mülayim liberal-islahatçılara və ən nəhayət, cinslərin patriarxal münasibətləri ilə çətinləşdirilmiş seksual sahəni (nigah, ailə, doğum, ər-arvad münasibətləri və s.) "siyasət" adlandıran radikal qanada qədər. Hərçənd bir çox alimlər hesab edirlər ki, feminizm hərəkatı son dərəcə elitardır, zəhmətkeş qadınlardan aralanmışdır və bu təbəqənin sinfi mübarizədə iştirakının qarşısını alır. Bu baxımdan, yaxın dövrlərə kimi bizim ölkədə də feminizmin əleyhdarları bütün vasitələrlə sübut etməyə çalışırdılar ki, onun bizdə tətbiq olunmasına ehtiyac yoxdur, çunki, dövlətin yürütdüyü siyasətin nəticəsində, bu hərəkatın ali məqsədi olan qadınların siyasi və sosial-iqtisadi bərabərliyinə tam nail olunmuşdur, həmin məqsədlər üçün heç bir əsas yoxdur. Lakin, beynəlxalq təcrübə göstərir ki, feminizmin konsepsiyalarının sosioloqlar və politoloqlar tərəfindən tədqiq olunmasına, alınmış nəticələrə real həyatda ehtiyac duyulur. Tədqiq olunması vacib olan məsələlər aşağıdakılardır: siyasi baxışların inkişafı yolu; qadınların cəmiyyətin sosial-siyasi plüralizm şəraitində davranışı; qadınların iqtisadiyyat haqda düşüncələri və bazar münasibətləri; qadın menecmenti; qadınların siyasi liderliyi; qadınların ictimai rəyi və hakimiyyət institutları; qadınların elektoral davranışı və seçki kompaniyaları; qadın elitası; bazar münasibətlərinə keçid zamanı qadınların sosial müdafiəsi və sosial zəmanətlər; və bu kimi qəbildən olan sosioloqlar tərəfindən öyrənilməmiş çoxsaylı tədqiqat mövzularını göstərmək olar.

Ümumiyyətlə, belə bir sual meydana çıxır: qadınların ictimai fikri öyrənilməlidirmi? Bizə belə gəlir ki, qadın

bir fərd kimi müstəqil subyektdir və ictimai fikrin əsas daşıyıcılarından biridir. Bu fikri qərb alimləri də öz tədqiqatları ilə dəfələrlə sübuta yetirmişlər. Misal üçün göstərmək olar ki, İngiltərə, Norveç, ABŞ, Kanada və s. kimi inkişaf etmiş bir çox qərb ölkələrində - cəmiyyətin müxtəlif problemlərinə qadınların ictimai fikrini öyrənən onlarla xüsusi elmi mərkəzlər mövcuddur.

Qadınlar öz ictimai fikirlərində siyasətin subyekti kimi çıxış edirlər. Bir ictimai qrup kimi onlar cəmiyyətin həyatına təsir göstərir, həm də spesifik qadın maraqlarını qoruyur, nəticə etibarilə, öz sosial statuslarının artmasına nail olurlar. Eyni zamanda, siyasətin ənənəvi obyekti olmaqla, qadınlar onun bütün dəyişikliklərinin nəticələrini öz üzərlərində hiss edirlər. Aparılmış tədqiqatlar göstərir ki, qadınlar öz mövqelərini ailə, məişət, istehsalat, mədəni və sosial məsələlərdə, yaxud ictimai fikirdə daha dəqiq və birmənalı şəkildə təyin edirlər. Siyasi proseslərin və onların gündəlik həyatımıza təsirinin qiymətləndirilməsində qadınlar kişilərdən fərqli olaraq daha mülayim mövqe tuturlar. Nahaq deyilməmişdir ki, "qadınlar sivilizasiyanın - tənzimləyicisi, kişilərsə - qüvvət verənidir". Qadınların ictimai rəyi dəyərləndirilməsi istiqaməti kişilərinkindən fərqli olaraq daha konstruktiv və pozitivdir. Görünür qadına xas olan dözümlülük və rəhimdillilik kimi xarakterik xüsusiyyətlər özünü göstərir. Qadın ictimai rəyin, siyasi və iqtisadi proseslərin inqilabi yolla deyil, təkamül evolyusiyalı inkişafına üstünlük verir. Onun tənzimləyicisi sosial tələblər və uzunmüddətli xarakterli maraqlardır: ailənin qorunması, uşaqlar və yaxınlar haqqında qayğı, yaşamaq hüququna real təminat, sabahkı həyata ümid, sosial sabitlik və ictimai sakitlik marağı.

Sosial-mədəni sahədə cinslərarası münasibətlər və onların tənzimi haqqında müxtəlif mülahizələr tarixin erkən çağlarından başlayaraq mifoloji, dini, qanuna dair, ədəbi, fəlsəfi-bədii və s. abidələrdə öz əksini tapıb. Müasir

ədəbiyyatda biz yeni şəraitdə dövrün ictimai sifarişinə müvafiq həmin problemlərin geniş miqyasda qayıdış və dirçəlişinə rast gəlirik. Bu dirçəlişin səbəblərini araşdırmaqdan əvvəl "gender" anlayışı, "gender problemləri" məfhumunun tarixi-fəlsəfi səciyyəsinə diqqət yetirək.

Gender və cins arasındakı nəzəri fərq haqqında ingilis Enn Qakleyin və həmkarlarının təlimi çox faydalı oldu. Bu bir universial baxış idi. Məhz bu dövrdə amerikalı tarixçi Coan Skott "Gender: Tarixi təhlildə faydalı kateqoriyadır" əsərində gender tarixinin nəzəri-metodoloji aspektlərini açıqlamağa cəht etdi. Bu ərəfədə Qərbdə "Qadın, mədəniyyət, cəmiyyət" adlı bir toplunun nəşri kəskin mübahisə və müzakirələr yaratdı. M.Rozaldo və L.Lamfere tərəfindən (1972) yığılmış və redaktə olunmuş bu topluda nəşr olunan S.Ortnerin "Təbii və mədəni kimi qadınlıq və kişiklik də uyğunlaşırmı?" məqaləsi böyük bir hay küyə səbəb olmuşdur.

Həmçinin bu illərdə R.Unger, Andrienna Riç və Geyl Rabin "gender" anlayışı ilə geniş müzakirələrə yol açdılar.[1]

**Cender tədqiqatlarını** cinsin fəlsəfi və ya daha doğrusu, cinslərin cəmiyyətdə (sosiumda) qarşılıqlı münasibətlərinin fəlsəfəsinin təhlili adlandırmaq olar. Bu halda cinslərin iki fərqi nəzərə çarpar: Birinci, qadın və kişilərin təbii, əsil, təbiətən olan-fizioloji fərqləri: və İkincisi: kişi və qadınların rolunun süni, sosio-mədəni fərqləridir ki, bu da praktiki olaraq öz əksini cəmiyyətin bütün həyat fəaliyyəti sahələrində tapır.

İngilisdilli ədəbiyyatda bu fərqlər iki termin - "sex" (cins) və gender("soy") anlamı ilə müəyyən olunmuşdur.

Cinslərin fərqlərinin cinsi əlamətləri (özünün aldadıcı "təbii" adına baxmayaraq) cəmiyyətin dünyagörüşü və

---

[1] Rəna Mirzəzadə "Gender və feminizm" B, 2000. s . 31

mədəniyyəti ilə bağlıdır. Onlar demək olar ki, həmişə cinslərin əsl differensiyasını (fərqlənməsini) yox, konkret cəmiyyətin maddi-mənəvi dəyərlərini və ideallarının mürəkkəb sistemini əks etdirirlər. Buna görə də cəmiyyətin bütün sosio-mədəni quramasında (mozaikasında), hətta dildə kişi və qadın cinslərinin süni fərqləndirilməsini müşahidə edirik. Belə ki, dildə qramatik cinslər həmçinin təbii deyil, süni xarakter daşıyır. Məsələn, ingilis dilindəki he - she - it (o-o-o) fərqləri türk dillərində də, o cümlədən, azərbaycan dilində yoxdur: burada onların hər üçünü əvəz edən yeganə əvəzlik - "o" işlənir. Məsələn, ingilis dilindəki "Hi - shi - it" (Rus dilində "On-ona-ono") əvəzlik fərqləri türk dillərində, o cümlədən azərbaycan dilində də yoxdur: burada onların hər üçünü ifadə edən yeganə əvəzlik - "o" işlənir.

Cinslərin qarşılıqlı təsirinin tarixi - bəşəriyyət tarixinin yeni "redaktə"də oxunuşu, o bizim keçmiş haqqındakı təsəvvürlərimizi əhəmiyyətli, belə demək mümkünsə, radikal surətdə dəyişir, cəmiyyyətin inkişafının müasir problemlərini və gələcək perspektivlərin təhsis edir ki, bu da bizim dünyagörüşümüzün və onu sistem şəklində ifadə edən fəlsəfənin əsaslarına toxunmaya bilməz.

Tarix özü şahiddir ki, bu problemə bu və ya digəq şəkildə artıq çox qədim zamanlarda toxunulmuşdur. Tarixdə madərşahlıq (matriarxat) və padərşahlıq (patriarxat) dövrlərinin mövcud olması göstərir ki, bu məsələ kifayət qədər mürəkkəbdir, lakin indiki zamanda gender tədqiqatları problematikasının nə yerdə olduğunu aydınlaşdırmaq üçün bizim imkanımız çərçivəsində mövzunun inkişafının əsas konsepsiyalarını tarixi-fəlsəfi istiqamətdə təhlil etmək kifayətdir. Adətən Russo tərbiyə sisteminə qarşı çıxan ilk qadın - feminislərdən biri olan Meri Uolstounkraftın (1759 - 1797) adını çəkirlər. Lakin, forma-

laşmış qadın hərəkatı XIX əsrin sonu XX əsrin əvvəllərində, qəti sosial-iqtisadi, siyasi və mənəvi dəyişikliklərin təsiri altında təşəkkül tapmağa başladı. Simona de Bovuarın (1908 - 1986) "İkinci cins" kitabı qadının maskulin ("kişi") cəmiyyətin güclü himayəsindən azad olunmasının fəlsəfə və ideologiyası kimi yaradılmış müasir feminist hərəkatı tarixinin əsasını qoyur.

Maskulin, sonralar patriarxal adlandırılmış cəmiyyət iki cinsin mövcudluğunu de-yure qəbul edirsə də, de - fakto bəşəriyyətin təkcinsli olması siyasətini yürüdür və qadınları açıb-ağartmadan, gizlində ancaq "inkişaf etməmiş kişi" hesab edir. Maskulin, sonralar "patriarxal" adlandırılmış cəmiyyət iki cinsin mövcudluğunu de-yure qəbul edirsə də, de-fakto bəşəriyyətin tək cinsli olması siyasətini yürüdür və qadınları açıb-ağartmadan, gizlincə onları "tam inkişaf" etməmiş kimi hesab edir.

Feministlər bu rəylə razılaşaraq burada ancaq "kişilərin rasizmini" görür və buna görə də cəmiyyətdə cinslər arasında fərqləri yox etməyə çalışırdı. Bu androginlik (tək cinslik) fəlsəfəsi, kişilərin və qadınların tam bərabərləşdirilməsi, hətta təbiət fərqlərinin sərf-nəzər edilməsi cəfəngiyyata gətirib çıxartdı - qadının əsas təbii funksiyası - analıq - sınaq şüşəsinə - süni uşaq doğuluşuna ötürülürdü. Amma düzünü demək lazımdır ki, belə radikal feminist qadınların sayı çox deyildi, çünki qadın hərəkatının ikinci istiqaməti isə əsas diqqəti patriarxal cəmiyyətin tənqidi və gender tədqiqatlarının təsiri altınada cəmiyyətin transformasiya yollarının konstruktiv təhlilində cəmləndirmişdi. Qeyd etdik ki, bu istiqamət gender probleminin əsasını qoydu. Termin özü isə Qeyl Rabinin "Qadın mübadiləsi" (1972) araşdırmasında verilib və məqaləsində peyda olub, "maskulinlik və feministlik konstruksiyasında bioloji cinsin mədəniyyət tərəfindən transformasiyasını bildirir". Psixoloq Roda Unger "Cinsin və genderin yeni tərifi"

(1979) əsərində gender terminindən ancaq cəmiyyətin qadın və kişi kimi təyin etdiyi kəslər üçün tipik olan xüsusiyyət, əlamət, norma, stereotip və rollara aid olan sosial, mədəni və psixoloji aspektləri müzakirə etdikdə istifadə etməyi təklif edirdi.

Beləliklə, nəzər diqqətimizi ona yönəldək ki, əgər əvvəllər patriarxal cəmiyyətin tənqidçiləri BMT-nin məlumatlarına istinad edərək deyirdilər ki, qadınlar dünya əmtəəsinin 2/3-ni yerinə yetirib, buna rəğmən dünya gəlirinin 10%-ni alırlar və dünya mülkiyyətinin ancaq 1%-nə sahibdirlər, indi gender tədqiqatları məcrasında həm zəruri (yəni hifz olunan), həm də yalançı o fərqlər vurğulanırdı ki, onlar həm qadınlar, həm də kişilərin xeyrinə aradan qaldırılmalıdır. İki tarixi fərqi müqayisə etmək belə qənaətə gəlmək üçün kifayətdir ki, ondakı həm təbii, həm süni qarşıqoymalar aşağıdakı müəyyən qədər yanlışlığa əsaslanır:

Kişi - rasional - mənəvi - ilahi - mədəni...
Qadın - hissi - cismani - günahlı - təbii... [1]

Bu baxımdan görkəmli Azərbaycan mütəfəkkiri Nəsrəddin Tusi övladın tərbiyəsində valideynlərin özünəməxsus vəzifələri olduğunu qeyd edərək yazırdı ki, "Ata hüququ daha çox ruhanidir (mənəvidir), bu səbəbə görə də övlad ata tənbehindən sonra ağıllanır: ana hüququ isə nisbətən cismanidir, bu səbəbə görə də övladlar bunu daha tez hiss edir və analarına daha artıq meyl göstərirlər".

Qadınlar doğrudan da daha intuitiv və emosional təfəkkür stilinə malikdirlər, lakin, ola bilsin ki, bəlkə kişilərin rasional, məntiqi təfəkkür stilində çatışmayan şey elə məhz bundan ibarətdir. Bu nöqteyi-nəzərdən ola bilsin ki, ekologiyanın, militarizmin, azlıqlara qarşı zorakılığın müasir problemləri elmi, siyasi, iqtisadi, mənəvi və ideolji

---

[1] Философия. М..1996. səh 395.

konsepsiyaların böhranı, müasir reallığın bütün tərəflərini əhatə edə bilməyən, məhz son dərəcə rasional təfəkkür tərzinin çıxmazlığı ilə müəyyən olunur?! Gender tədqiqatları isbat etdi ki, əslində iş məhz bu cürdür. Cermeyn Qrir ("Qadın - xacə", 1974) elmə patriarxal cəmiyyət termini daxil edərək, isbatla aydınlaşdırmışdır ki, ümumilikdə qadınların azad olunması - həm də kişilərin azad olunmasıdır. Bu azadlıq isə "Qadın doğulmuş" kitabının müəllifi Andrienna Riçin fikrinə görə qadın təfəkkür tərzinin kişi təfəkkür tərzinə inteqrasiyası (yəni birləşməsi) və reallığın dərkinin universal rasional-intuitiv dilinin yaradılması ilə mümkündür. Daha əvvəl Kerolin Merçant "Təbiətin ölümü (feminizm və ekologiya)" kitabında XVII əsrdən mexaniki determinist şəklini almış birtərəfli rasionalizmin nəyə gətirib çıxardığını parlaq şəkildə təsvir etmişdir. K.Merçant bu elmin yaranma dövrünün dilini təhlil edərək belə nəticəyə gəldi ki, bu dil alim - "patriarxın" təbiət - "qadın" üzərində "zorakılıq" dilidir. Müəllifin fikrincə mexanistik elmin yaranma vaxtından başlayaraq təbiətin və qadının istismarı ayrılmaz olub vahid patriarxal dünyagörüşü çərçivəsində gedir.

Lakin bu fəlsəfənin özünün də real hüdudları var ki, onlar patriarxal cəmiyyətin ağılsız idarə siyasəti nəticəsində yaranan qlobal ekoloji problemlər obrazında meydana çıxır. Feministlər tərəfindən "atalar cəmiyyətinin" tənqidinin bu ən güclü tərəfi Şarlen Spretnakın "Qadın mənəviyyatının siyasəti" adlı əsərində təqdim olunan feminizm, mənəviyyatı və ekologiyanın qırılmaz əlaqəsi ilə sintez olan xüsusi nəzəriyyənin - ekofeminizmin yaranmasına gətirdi. Özünün daha əvvəlki tədqiqatlarında Ş.Spretnak "patriarxal dinlər" siyasəti yürüdərək göstərdi ki, onlardan qabaq 20-ci mininillikdən artıq "matriarxal dinlər" dövrü mövcud olmuşdur orada qadının yüksək mənəviyyat və

təbiiliklə səciyyələnən tam təfəkkürü təqdim olunmuşdur.

Beləliklə, feminizm patriarxal sivilizasiyasının demək olar ki, bütün dünyagörüşü və praqmatik prinsiplərini tənqid edərək göstərdi ki, gender tədqiqatlarından ortaya çıxan yeni prinsiplərdən imtina halında bu sivilizasiya məhvə məhkumdur.

Məhz bu mübahisənin son səddi ona qarşı növbəti feminist tənqid atəşi açmış iqtisadiyyat oldu. Xeyzel Henderson "Gələcəyin alternativ modelləri" kitabında qeyd edirdi ki, qərarlaşmış iqtisadi inkişaf modelləri bütün şüurlu sərhədləri pozan qeyri-məhdud artıma yönəlmidir. Maskulin mədəniyyətin bu tipik nümunəsi ekoloji fəlakətə gətirir və bu fəlakətdən qurtarmağa ancaq "neft əsri" mədəniyyətindən "Günəş əsri" mədəniyyətinə keçmək kömək edə bilər. Bu axırıncının əsasını gözümüz önündə qarşısında yaranan və "böyüyün kiçik üzərində" zorakılıq və diktəsini aşılayan korporativ iqtisadiyyatın prinsiplərindən imtina etməyə təkidlə çağıran ekoloji, qadın, vətəndaş hərəkatları, eləcə də sülh hərəkatları təşkil edir. Qadın və kişi dəyərlərinin sağlam balansı cəmiyyətdə qarşıya çıxan problemlərin həllinə kömək etməlidir. Təəssüf ki, kişi və qadın dəyərlərinin birləşdirilməsi deyərkən feministlər, öz növbəsində, daha bir "məzlum sinfi" - uşaqları unudurlar. Psixoloji tədqiqatlarda isbat olunur ki, 10 yaşına qədər uşaqların qavrama və dərketmə xüsusiyyəti böyüklərin təsəvvürlərindən ciddi fərqlənir və ilk növbədə, qeyri-verbal informasiyanın verbal (dil, söz) informasiya üzərində üstünlüyündə özünü göstərir. Lakin gender tədqiqatlarında göstərilmişdir ki, məhz verbal, rasional-məntiqi təşəkkülü informasiyanın çoxluğu patriarxal sivilizasiyanın səciyyəvi cəhətidir. Buna görə də əsil sintez "üçüncü sinif" - uşaqların ən "təmiz", "mədəni cəhətdən transformasiya olunmamış" və deməli, dünyanı dərk etməkdən ötrü ən

doğru olan dünya seyriçiliyini də nəzərə almalıdır.

Beləliklə, əsil gender tədqiqatları mahiyyət etibarilə ancaq qadının kişi hakimiyyətindən azad olunmasına yönəlmiş konsepsiyalar olmayıb, daha çox dünyagörüşünün bütün bəşər cəmiyyətinin, xüsusilə də öz hüquqlarını qorumaqda imkanları məhdud olan azlıqların hüquq, xüsusiyyət və rəngarəngliyini nəzərə almağa çağıran bir "demokratik" növüdür.

Beləliklə, "Müasir fəlsəfi lüğətdə" (Moskva, 1998) oxuyuruq: **Gender tədqiqatları** - sosialtransformasiyalar və üstünlüklər sistemlərinin təhlili üçün gender yanaşması evrestik imkanlarını reallaşdıran fənlərarası tədqiqat praktikasıdır. Sosiumun ən aktual problemləri siyasət, hakimiyyət, zorakılıq,özünüdərk və şəxsiyyət azadlığı və hüququ, post-sənayeləşmiş cəmiyyətdə fərqin eyniləşmə və müvafiq sosial rolları problemi kimi qarşıya qoyuldu. İnsan mahiyyəti problemi, insan mövcudluğunun məna və gərəkliyi, məkan və zaman kimi əsas fəlsəfi məsələlər gender ölçüsünə çevrildi. Gender tədqiqatları ilə əhatə olunmuş elmlərin çevrəsi çox genişdir. Buraya fəlsəfə, tarix, politologiya, antropologiya, linqvistika, etnoqrafiya, mədəniyyətşünaslıq və s. aiddir"[1]

[1] Современный Философский Словарь. "Панпринт" 1998, стр. 180-183

## 2. GENDER: TARİX, İDEYA VƏ NƏZƏRİYYƏLƏR

- **Cinslərin bərabərliyi uğrunda mübarizə tarixindən.**
- **Feminizm haqqında.**
- **Feminizmin əsas istiqamətləri.**

Cəmiyyətin bir-birindən fərqli iki cinsdən ibarət olması bir sıra suallar ortaya qoyur ki, bunlardan da bəzilərinin cavabı indiyə qədər mübahisə doğurmaqdadır.. Əgər cinslərin bioloji fərqləri və funksiyaları şübhə doğurmursa, psixi (ruhi), emosional, intuitiv fərqlər məsələsi, qadın və kişinin təfəkkür, idrak, məntiqi fərqləri kimi hallar öz müzakirəsini tələb edir. Həmçinin burada bir sual da maraqlıdır: insanların cinsi fərqləri onların sosial fərqlərinin səbəbidirmi, yoxsa bu axırıncı tarixin təsadüfi seçimidir, və ya digər şəraitdən asılıdır.

Cinslərin qeyri-bərabərliyi ayrı-ayrı cəmiyyətlərdə özünü müxtəlif cür göstrir. Ona görə də kişi və qadının vəziyyətini tədqiq etməklə bu cəmiyyət, onun mədəniyyət və ənənələrinin səciyyəsi, xalqın dini və ruhi-əxlaqi dəyərlərinin xüsusiyyətləri, dünyagörüşü və özünüdərki haqqında çoxlu miqdarda maraqlı material verir.

Cəmiyyətdə cinslərin qeyri-bərabərliyi orada yaşayan insanlar üçün heç də həmişə problem olmamışdır. Bir qisim insanlar, istər kişi olsun, istərsə də qadın, ümumiyyətlə belə məsələ üzərində düşünməmişdir. Digər qisim heç bir haqların pozulmasını görmür, zira cəmiyyətdə cinslərin davranış və rollarının qərarlaşmış qaydası onlara ədalətli görünür, onlar hesab edirlər ki, bu qaydalar tarix, ənənə, din və ya əcdadlarımızdan gələn əxlaqi normalarla müqəddəsləşdirilib. Ənənəvi cəmiyyətdə (yəni möhkəm və dəyişməz norma və dəyərlər əsasında hərəkət edən cəmiyyətdə) ümumiyyətlə kişi və qadının rolları ciddi bölünüb, ən kiçik hallara qədər elə yazılıb ki, kişinin cəmiyyətdə

qadının taleyindən fərqli "xüsusi taleyə" malik olmasının həyati zəruriliyinə şübhə qalmasın. Məhz bu baxımdan da feminizm qadınların bərabər hüquqlu olması ideologiyası, ictimai-siyasi hərəkat kimi çox gec, təbii ki, feodalizmin buxovlarından azad olmaq yoluna qədəm qoymuş ölkələrdə yaranır. Qeyd edək ki, bəzi tədqiqatçılar feminizmə marağı artıq qədim yunan fəlsəfəsində (məsələn, Platonu tez-tez ilk feminist adlandırırlar)[1] görürlər.

Cins kateqoriyası mədəniyyətinin analiz edilməsində bir alət kimi istifadə olunan feminizm fəlsəfəsini araşdıraq. **Feminizm (femin-qadın)** sosioloji inkişafa alternativ olan fəlsəfi konsepsiya kimi heç də birdən-birə formalaşmamışdır. Uzun müddət ərzində o həm qadınların bərabərhüquqluluğu ideologiyası, həm də sosiao-siyasi hərəkat kimi mövcud olmuşdur. Feminizmin bu kimi aspekti onun nəzəriyyəsinin yaranması üçün çox vacibdir: məhz qadının cəmiyyətdə statusu ilə bağlı suallara real cavablar axtarışında feminizm nəzəriyyəçiləri ənənəvi sosial elmlərlə qane olmayaraq, həm də özlərinin ənənəvi qərb biliklərinə qarşı nəzəri cəhətdən iddialarının, həm də mədəniyyətinin analizinə elmi cəhətdən yaxınlaşmağın yeni nəzəri-metoloji yollarını formalaşdırmağa başlamış və ya feminizmi insanın şəxsiyyətinə marağın artdığı, humanizm deyilən istiqamətin müəyyənləşdiyi İntibah dövrü ilə bağlamışlar. Aydındır ki, cinslərin bərabərliyi problemi düşünülmüş şəkildə tam halda ancaq o zaman meydana çıxdı ki, ümumiyyətlə bütün insanların, onların hüquqlarının bərabərliyi məsələsi müzakirə olunmağa başladı. Məhz İntibah dövründə, qadın şəxsiyyətinin alçaldılması və ona ictimaiyyət tərəfindən ədalətsiz münasibətdən bəhs edən

---

[1] "Философия". М., 1996.стр.385

Kristina de Pizan və Kornelius Aqrippanın ilk traktatları peyda oldu. Feminizmin inkişafının sonrakı mərhələsi Böyük Fransız inqilabından əvvəlki və sonrakı dövrə təsadüf edir. Lakin, hətta o zaman insanların bərabərliyini elan edən "İnsan və vətəndaşın hüquqlarının Bəyənnaməsi" əslində bu hüquqları ancaq kişilərə verirdi. Qadınlara vətəndaş və seçki hüquqlarının, dövlət vəzifələrini tutmaq imkanının verilməsi tələbləri irəli sürülən "Qadın və qadın vətandaşın hüquq deklarasiyası"nı (1972-ci il) yazmış Olimpiya de Quj edam olunmuş, fransız qadınlarının inqilabda oynadıqları görkəmli rola baxmayaraq qadın cəmiyyətləri Konvent tərəfindən qapanmışdı.

1792-ci il ümumiyyətlə feminizm üçün görkəmli ildir: İngiltərədə Meri Uollstounkraft "Qadının təbeçiliyi haqqında", Teodor Fon Gippel (Almaniya) "Qadının vətəndaş vəziyyətinin yaxşılaşdırılması haqqında" adlı kitablarını nəşr etmişlər. Belə səpgili ayrı-ayrı əsərlər, əlbəttə ki, o zamankı dünyagörüşünün əsas inkişaf təmayüllərini dəyişə bilməzdi. Lakin onlar göstərir ki, artıq hələ o zaman cinslərin qarşılıqlı münasibəti məsələsi özünün ilkin kəskinliyini almağa başlamışdı.

Cinslərin qarşılıqlı münasibəti məsələsinə liberalizmin nümayəndələri (Con Lokk, Jan Jak Russo, Con Styuart Mill) müəyyən yer ayırırlar. Onlar bu məsələyə insan azadlığının ümumi kontekstində baxırlar. Utopik sosializmin klassikləri "feminizm" termininin ixtiraçısı, "Qadının sosial vəziyyəti ictimai tərəqqinin meyarıdır" kəlamının müəllifi, R.Ouen və Ş.Furye, A.Sen-Simon, bu problemə sosial-siyasi, iqtisadi və ümumfəlsəfi səciyyə vermişlər ki, bu da marksizm tərəfindən istənilən bərabərsizliyin məhv edilməsinin yeganə üsulu olan sinfi mübarizənin ümumi prinsipinə çevrildi. XX-ci əsrdə meydana çıxmış seksuallığın nəzəriyyəsi və onun kişi və qadınların sosial və

siyasi davranışında rolu kimi məsələlər (Z.Freyd: V.Rayx, M.Mid, H.Markuze, Frankfurt məktəbi, fransız strukturalistləri və s.) psixologiya antropoloqiya, sosiologiya və digər humanitar istiqamətlərin materiallarından istifadə etməklə cinslərin qarşılıqlı münasibəti problematikasını genişləndirirlər.

60-cı illərdə solçu radikal etiraz hərəkatlarının yaranması və əks-mədəniyyət nəzəriyyələrinin təşəkkül tapması ilə yanaşı feminizmin yeni yüksəlişi müşahidə olunur, o, Qərbi Avropa və Şimali Amerikada bir neçə istiqamətdə formalaşır:

- liberal - reformist: "cinslərin qeyri-bərabərliyi qadınlarda müəyyən vətəndaş və hüquqi haqların olmamasının nəticəsidir. Hüquq reformaları keçirilməsinə üstünlük verən bu istiqamətin nümayəndələri Betti Fredan və onun "Qadınların Milli Təşkilatın"dan olan həmkarlarıdır.

- Sosial cərəyanist marksist və feminist baxışların sintezi "xüsusi mülkiyyət və cəmiyyətin sinfi quruluşu qadınların diskriminasiyasının səbəbidir" fikrində birləşdirirlər. Bununla belə, bu istiqamətin nümayəndələrinin bir qismi belə hesab edirdi ki, bu məsələ ümumproletar problemindən fərqli məxsusi problemdir. Nümayəndələri Linda Qordon, Meri Obrayen, Zilla Ayzenstayn idi. Onlar qadın probleminin ayrılmasının labüdlüyünü təkid edirdilər.

- Radikal istiqamətin - "əsas maneə qərarlaşmış patriarxat-kişilərin qadınlar üzərində total hakimiyyətidir ki, ondan qəti surətdə yaxa qurtarmaq lazımdır" tezisi ilə çıxış edirdilər. Onların nümaindələri (K.Millet, S.Fayerstoun, K.Delfi, M.Doili)

Hal-hazırda qeyd olunan cərəyanlardan əlavə bir sıra yeni təmayüllər meydana gəlmişdir:

- Mədəni feminizm - kişi (maskulin) mədəniyyətindən fərqli qadın (femin) mədəniyyətinin inkişaf etdirilməsi.

- Humanist feminizm - həm "qadın", həm də "kişi" maraqlarının nəzərə alınması, cinslər arasında tarazlaşdırılmış (balanslı) münasibətlər.

- İrqi - "qara", zənci amerikan feminizmi və dərinin rəngində qeyri-bərabərlik görən başqa istiqamətləri.

- Milli təmaüllü - Latın Amerika, Afrika və i.a. feminizmi başqa hallarla yanaşı etnik və mədəni fərqlərdə də qeyri-bərabərlik axtarır.

- Dini - müsəlman, xristian, buddist və i.a. olan cərəyanlar isə - onlar konfessional fərqləri ön plana çəkirlər.

Beləliklə, cəmiyyətdə qeyri-bərabər münasibətlər yaranması üçün kifayət qədər səbəb yığılıbdır. Bütün bunlarsa ona şəhadət edir ki, kişi və qadınların qeyri-bərabərliyi heç də bioloji deyil, cəmiyyəti "güclü" ilə "zəif"lərə bölən sosial məsələdir, məhz belə halda "hakim" və "tabelik" münasibətləri meydana çıxır.

## 3. BƏRABƏRHÜQUQLUQ, QADIN HƏRƏKATI, GENDER

- **Qadın hərəkatının yaranması tarixindən.**
- **Qadın hərəkatının inkişaf istiqamətləri.**

Dünya Qadın hərəkatının inkişaf mərhələlərini nəzərdən keçirərkən son onilliklərin nəticələri kimi qeyd olunmalıdır ki, bu illər beynəlxalq qadın hərəkatının da çox ciddi bir siyasi qüvvəyə çevrilməsi ilə əlamətdardır. Yer kürəsində canlı həyatın qorunması və mühafizəsi, qadının cəmiyyətdə rolu və vəzifəsi kimi məsələlərin həlli yollarına yanaşmaqda fikir ayrılığına malik olan müxtəlif beynəlxalq və milli qadın cəmiyyətlərinin, qurum, birlik və hərəkatların mövqelərinin aydınlaşdırılması, fikirlərin yaxınlaşması illəri kimi səciyyəvidir.

Son illər ideoloji fərqli baxış tərzlərinə baxmayaraq, bütün səylərin birləşdirilməsi üçün qarşılıqlı addımlar atılması istəyi aydın nəzərə çarpır, Beynəlxalq forumlar, konfranslar miqyasında görüşlər təşkil olunur, ümumi qərarlar qəbul edilməsi üçün platformalar müəyyən edilir. Qadınlar "soyuq müharibə" nəticəsində uzunmüddətli fasilələrə səbəb olmuş və arası kəsilmiş qarşılıqlı əlaqələri ya bərpa etmiş, yaxud daha da möhkəmləndirmişlər. Onlar xalq diplomatiyasının təşəbbüskar və fədakar nümayəndələrinə çevrilmiş, mübarizləşmişlər.

Bu illərdə ənənəvi beynəlxalq və milli qadın cəmiyyətləri ilə yanaşı, Qadınların Azadlığı Uğrunda Hərəkatın (QAUH) iştirakçıları - neofeminist qadınlar daha aktiv fəallıq göstərirlər. Hərəkat əsarətə, iqtisadi və siyasi həyatda, ailədə hüquqların tapdanmasına, qadın mənliyinin alçaldılmasına, mənəvi zorakılığa qarşı əsrimizin 60-cı illərində ABŞ-da meydana gəlmişdir. Feminist qadınların ideyaları kütlə arasında canlı əks-sədaya səbəb olmuşdur. Bir çox tədqiqatçıların fikrincə bu

illər ABŞ-ın qadın hərəkatını məhz feminist qadınlar idarə edirdilər.[1] Bu hərəkat tezliklə Böyük Britaniyada, Kanadada, Avstraliyada, Yeni Zelandiyada və Skandinaviya ölkələrində geniş vüsət tapdı.

Qadınların Azadlığı Uğrunda Hərəkat (QAUH) öz-özünə yaranmamışdır, əksinə, qadınların cəmiyyətdə alçaldılmasına qarşı etirazının təşkilatlanma ilə təsdiqi idi. Belə ki, bu nöqteyi-nəzərdən İngiltərədə buna bənzər prosesin kökləri hələ XVIII əsrə aparıb çıxarır. O dövrdə feminizm onu qadınların bərabərliyinin əsas məqsədləri kimi bəyan etmiş inqilabi ruhlu burjuaziya sinfinin mütərəqqi fikirlərindən bəhrələnən əks cins üçün ideologiyaya çevrilmişdi. XVIII əsrin feminist qadınları öz siniflərinin - yaşadıqları dövrün zəmanələrinin nümayəndələri idilər. Lakin, onlar feodalizmin kapitalizmə keçməsi nəticəsində cəmiyyəti əhatə etmiş dəyişikliklərin qadınların vəziyyətinə toxunması ilə heç cürə barışa bilmirdilər.

XVIII əsrin axırlarında feminist qadın hərəkatı öz ideoloqu kimi Böyük Fransız inqilabının tərəfdarı, ingilis mənşəli xanım M.Uolstonkraftı irəli çəkmişdi. Onun kəskin məzmunda ifşaedici çıxışları və məqalələri, qadını alçaldan ictimai quruluşun dəyişdirilməsinə yönələn çağırışları sanki barıt partlayışına bənzəyirdi. Bu ideyalar uzun müddət yaşadı və sonradan qadınların bərabərhüquqluğu uğrunda mübarizəsinin tərəfdarları olan sufrajist qadınlar tərəfindən daha da inkişaf etdirildi. İlk etiraz aktı kimi, amerikalı sufrajist qadınların Seneke-Folze şəhərində keçirdikləri I qurultayında o dövrün real vəziyyətinə qarşı qəti çıxışları göstərmək olar. Qurultay iştirakçıları tərəfindən hazırlanmış Deklarasiya, burjuaziya mühitindəki bərkiməkdə olan orta təbəqə qadınlarının siyasi və sosial cəhətdən, ailədə və din tərəfindən əzilməsinə qarşı sufrajist

---

[1] Девис А. Женщина, раса, класс. М., 1987, с.7

qadınların uzun illər ərzindəki kövrək, bəzənsə səssiz çağrışlarının kulminasiya nöqtəsi sayıla bilərdi.[1]

Sonrakı illərdə sufrajist qadınların əsas tələbi işlənib hazırlandı ki, bu da qadınlara seçmək hüququnun verilməsi idi. Sufrajist qadınlar səmimiyyətlə inandılar ki, seçmək hüququ qadınların kişilərlə bərabərhüquqluluğunu təmin edəcək, əmək sahəsində bərabər ödənişin aparılmasına imkan yaradacaq, məktəblərə, kolleclərə və müxtəlif ixtisaslı peşələrə yiyələnməyə yol açacaqdır. Eyni zamanda, bu vasitə ilə cəmiyyətddə qadınlara qarşı cinayətlər dalğasının qarşısı alınacaqdır.

XX əsrin başlanğıc mərhələsində "qadınların azad olmasının humanist yolları" ideyası da ortaya çıxdı. Bu fikrin müəllifi, feminist utopiyanın banisi, Ş.P.Gilman belə hesab edirdi ki, mübarizənin əsasında qadınların ictimai prosesləri dərk etməsinin inkişafı durmalı idi. Qadınların azad olmasının bütün əvvəlki ideyalarına qarşı müəllif tamamilə yeni, "sosializm uğrunda qadınların dinc kollektiv çıxışları" humanist nəzəriyyəsini qoyurdu. Onun utopik "Xyerland" ölkəsində sosializmə, müstəsna olaraq, qadınların başçılıq etdiyi siyasi rəhbərlik nəticəsində nail olmaq mümkün idi. Cəmiyyətin mərkəzləyici qüvvəsi roluna nə alim, nə hərbçi, nə din xadimi, nə də sənətkar deyil, keçmişlə gələcək arasında birləşdirici ola biləcək Ana irəli çəkilirdi.[2]

XX əsrin əvvəllərində bir çox ölkələrdə qadınlar arzu etdikləri siyasi hüquqlara nail ola bildilər, lakin, bu onların həyatında heç bir əhəmiyyətli, nəzərə çarpacaq dəyişikliklərə gətirib çıxarmadı. Bunu da qadınlar çox gec dərk edə bildilər. İkinci Dünya müharibəsindən sonra,

---

[1] Девис А. Женщина, раса, класс. М ., 1987, с.67.

[2] Gilman Ch.P. "Herland"N.Y., 1979. P.X.

sufrajist qadın hərəkatının başında dayanmış, əhalinin orta təbəqəsindən olan amerikalı və ingilis qadınları, uzun müddət demokratik hüquqlar uğrunda gedən mübarizədən kənarda qalmışdılar. Onların mübarizəyə qoşulmasına və fəallaşmasına 1963-cü ildə işıq üzü görmüş "Qadınlığın mistikası" kitabı (müəllifi B.Fridandır) qüvvətli təkan verdi. Bu kitabın əsasını - sosioloji tədqiqatlar (ölkənin qadınları arasında aparılmış sorğular, qadın mətbuatının analizi, və s.) təşkil edirdi. Kitab təbliğat maşını tərəfindən yaradılmış ideal burjua ailəsini, amerikasayağı qadın xoşbəxtliyini və istehlakçı - qadın stereotipini tamamilə ifşa edirdi. Müəllifin fikrincə, kollec qadınların özlərinə ər tapa biləcəyi yer kimi səciyyələndirilirdi. Qadın cinsindən olan tələbələri həddindən artıq "düşünən" görünməmək üçün öz biliklərini nümayiş etdirməməyə çağırırdılar, çünki, bu ərə getmək şansını alt-üst edə bilərdi. Ev işlərindən yorulmasını, yaşadıqları həyatın boş, mənasız olmasını hiss edən qadınları xanım B.Fridan belə müəyyənləşdirmişdi - "Adsız problem". O, etiraz etməyə çağırır və belə nəticəyə gəlmişdi ki, "Yalnız xəstə cəmiyyət öz problemlərini görmək istəmir, öz üzvlərinə bərabər imkanlar yaratmır və öz qadınlarının bacarıqlarına biganə qalır."[1] Tənqidçilərin və mətbuatın etiraf etdiyinə görə, xanım B.Fridanın kitabı əhalinin orta təbəqəsinə mənsub qadınlar üçün ensiklopediyaya çevrilmişdi. Elə bu dövrlərdə xanım B.Fridanın həmfikirləri Qadınların Milli Təşkilatını (QMT) təsis etdilər. Təşkilatın əsas tələblərindən, əməyin ödənilməsində qadınların hüquq pozuntularının ləğv edilməsini və qadınların imkanlarına biganə qalan qanunvericiliyə yenidən baxılmasını göstərmək olar. Bu təşkilat liberal feminizmin əhval-ruhiyyəsini bildirərək, bir çox öl-

[1] Friedan B. The Feminine Mistigue N.Y.,1963,P.223.

kələri bürümüş, qadınların azadlığı uğrunda hərəkatın tərkib hissəsi olmuşdu. QAUH-un (Qadınların Azadlığı Uğrunda Hərəkat) digər qanadını neofeminizmin radikal istiqamətinin nümayəndələri təşkil edirdi. Tez bir zamanda bu istiqamət qadınlar arasında kütləvi xarakter aldı. Radikal istiqamətin nümayəndələri QMT-nin fəaliyyətini dəstəkləsələr də, onu yarımçıq xarakterinə görə tənqid edirdilər. Radikal istiqamətin ideoloqu sayılan, jurnalist, xanım R.Morqan yazırdı: "Mən qorxuram ki, müasir qadın hərəkatı da, bir zamanlar bizim sələflərimiz olmuş qadınların sufrajist burjua feminist hərəkatını yaradarkən düşdükləri kimi, tora düşsün. Burjua feministləri həlledici addımlar atmağa cürət etməmiş, həlledici məsələlərə əhəmiyyət verməmiş və nəhayət öz siniflərindən və irqlərindən kənara çıxa bilməmişlər. Yalnız bir ümid var ki, yeni feminist hərəkatı inqilabi feminizm siyasətinin məhsulu olacaqdır. "[1]

1970-ci ildə Nyu-York şəhərində radikal istiqamət iştirakçılarının "Bacılıq hər şeyə qadirdir" adlı antologiyası işıq üzü gördü. Toplunun 50 nəfər müəllifinin hamısı (yazıçılar, jurnalistlər, müəllimlər, həkimlər, hüquqşünaslar, rəssamlar və s.) müxtəlif millətlərin və siniflərin nümayəndələri-radikal feminizm ideyalarının tərəfdarları idilər.[2] Onların əksəriyyəti tələbələrin kütləvi etiraz çıxışlarının iştirakçısı idi və solçu hərəkatın sıralarındaydı. Bir hissəsi isə ənənəvi qadın təşkilatlarının işində fəallıq göstərirdilər. "Radikal qadınlar" cəmiyyəti tərəfindən qadın ləyaqətinin və mənliyinin alçaldılmasına qarşı kəskin çıxış edilirdi. Ənənəvi qadın təşkilatlarının irəli sürdükləri mə

---

[1] Sisterh d is Powerful, An Antologu of Writings from the Women's Liberation Mowement. Vintage Books Dirision of Random House, N.Y.., 1970. H. XXIII.

[2] Sisterhood is Powerful. P. VI

sələlərdən fərqli olaraq, neofeminist qadınlar qadın şəxsiyyətinə hörmət edilməsini qəti şəkildə tələb edirdilər. Hətta QMT-nin bəzi iştirakçıları belə hesab edirdilər ki, qadınların bu vəziyyətinin kökünü dövlətin siyasi sistemində axtarmaq lazımdır və onların fikrincə belə sistemi yaradan kişilərdir. Nəticədə, kişilərə qarşı mübarizə aparmaq lazımdır. Seksizm feminizmin əsas istiqamətlərindən biri elan edilrdi.

Əlbəttə, feminizmin ideoloqları bu nəticəyə birdənbirə gəlməmişdilər. Əvvəllər QMT sol qüvvələrin gənclər hərəkatının bir qanadı kimi fəaliyyət göstərirdi. Onun üzərinə düşən vəzifə qadınların siyasi cəhətdən hazırlanması və təşkilatların işinə cəlb edilməsi idi. Lakin, hərəkatın başında duran kişilərin qadınların tələblərinə biganə qalmaları QMT-nin bu hərəkatdan ayrılaraq, yalnız qadınlardan ibarət olan, müstəqil hərəkat yaratmalarına səbəb oldu.

Əvvəllər qeyd etdiyimiz kimi, əsrimizin 60-cı illərinin ortalarında ABŞ-da yaranmış və ilk vaxtlar ölkənin bir neçə iri şəhərlərində fəaliyyət göstərən hərəkət dalğası 70-ci illərdə artıq ABŞ-ın bütün şəhərlərini bürümüşdü.

Hərəkatın nümayəndələri ölkənin Siyasi Elmlər Assosasiyası, Müasir Dillər Assosasiyası, Antropoloqlar Assosasiyası və Tarix Elmləri Assosasiyası kimi mötəbər təşkilatlarda təmsil olunurdular. Bundan əlavə, tibb bacıları, silahlı qüvvələrdə xidmət göstərən qadınlar qruplar şəklində hərəkata qoşulurdular. Eyni zamanda, yaşlı qadınların da hərəkat qrupu yarandı. Feminist qadınlar tərəfindən ciddi tənqidə məruz qalmış roma-katolik kilsəsi də QAUH-un təsir qüvvəsini öz üzərində hiss etməyə başladı. Katolik kilsələrdə xidmət göstərən rahibə qadınlar bütünlükdə kişilərdən ibarət olan klerikal ierarxiyadan özləri üçün daha çox müstəqillik tələb etməyə başladılar. Qadın əməyinin qiymətləndirilməsindəki haqsızlığa və

abortun qadağanı ilə bağlı qanuna etiraz əlaməti olaraq çox sayda nümayişlər və marşlar keçirilirdi. Feminist qadınlar (hərəkatın əvvəlində iştirakçılar tamamilə ağ irqə mənsub qadınlardan ibarət idi) ABŞ-ın qara dərili qadınlarına də müəyyən təsir göstərirdilər. Əvvəllər bu qadınlar vətəndaşlıq hüquqları uğrunda öz irqlərinə mənsub kişilərlə bərabər mübarizə apardıqları halda, sonralar ayrılaraq qaradərili qadınların azad olunması uğrunda müstəqil hərəkat yaratdılar. Amerikalı neofeminist qadınların hərəkatı tezliklə digər ölkələrdə də geniş vüsət aldı. Tezliklə QMT-nin (Qadınlar Milli Təşkilatı) ardıcılları Kanadada, Fransada, Avstraliyada, İsveçdə, Yaponiyada, Almaniyada, Hollandiyada, Finlandiyada və Böyük Britaniyada meydana çıxdı. Belə ki, Böyük Britaniyada bu hərəkatın güc yığmasına səbəb yorulmaq bilməyən mübariz xanım M.Uolstonkraftın əsərlərinin çap olunması idi. İngilis QMT-də iki xətt özünü aydın büruzə verirdi: liberal və sosialist feminizm.

Liberal feminizm 1975-ci ildə Beynəlxalq Qadın İli münasibəti ilə yaradılmış Bərabər İmkanlar Uğrunda Komissiyanın fəaliyyətində həyata keçirilirdi. Komissiya XIX-cu əsrin feminist qadınlarının təhsil almaq, məşğulluq, vərəsəlik hüququ və öz uşaqlarına sahib olmaq hüququ uğrunda mübarizəsini davam etdirirdi.

Sosialist feminizm utopik sosializmin ənənələrinə söykənərək qadınların sosial azadlığının yolunu yalnız sinfi mübarizənin marksist nəzəriyyəsində görürdülər.

Əgər liberal görüşlü feminist qadınlar qadınların hüquqlarının genişləndirilməsi uğrunda çıxış edir və parlament lobbilərində təzyiq qüvvələri yaradırdılarsa, sosialist feminist qadınlar sosial siyasi partiyalarda iş aparırdılar. Qadın kooperativ gildeyasının, müharibə əleyhinə yaradılmış təşkilat və birləşmələrin işində yaxından iştirak

edirdilər.

Qadınların azadlığı uğrunda hərəkatın Böyük Britaniyadakı əsas vəzifələri Londonda (70-ci illərdə) keçirilmiş Milli Konfrans iştirakçıları tərəfindən qəbul olunmuş 7 tələbdə açıq-aydın görünürdü:

- əməyə görə bərabər ödənişlər;
- bərabər təhsil və imkanlar haqqı;
- gün ərzində ödənişsiz körpələr evi;
- abort etmək haqqı və hamiləliyin qarşısını almaq üçün ödənişsiz vasitələr;
- ailə vəziyyətindən asılı olmayaraq bütün qadınların təcavüzə məruz qalma qorxusundan azad olmaları;
- kişilərə üstünlük verən və qadınlara qarşı güc tətbiq olunmasını müdafiə edən bütün institutların ləğv edilməsi və s.

Feminist qadınlar "Qadınların qarşılıqlı kömək federasiyalarını" yaratmağa başladılar. 80-ci illərin əvvəllərində İngiltərədə, Şotlandiyada, Uelsdə və İrlandiyanın müxtəlif guşələrində kişilərin təcavüzündən qorunan qadınlar üçün 100-dən artıq sığınacaqlar yaradılmışdı. Burada onların özləri və övladları üçün kişilərdən iqtisadi cəhətdən asılı olmamaq uğrunda mübarizə yolları öyrədilirdi. Bundan əlavə bütün ölkə üzrə "Böhranlı vəziyyətlər mərkəzləri" fəaliyyət göstərirdi ki, orda zorlanmaya məruz qalmış qadınlar hüquqi məsləhətlər alır və onların bu işlə əlaqədar məhkəmə orqanlarına müraciət etmələrinə köməklik göstərilirdi.

Feminst qadınlar etiraz yürüşləri təşkil edir, qadınların özlərini küçələrdə təhlükəsiz hiss etmələri uğrundakı mübarizəsinə ictimaiyyətin diqqətini cəlb etməyə çalışırdılar. Zor işlədilməyə qarşı keçirilən etiraz həftələri zamanı feminist qadınlar müvafiq ədəbiyyat və təşviqat vərəqələri yayır, teatrlaşdırılmış tamaşalar göstərirdilər. Bu qadınlar

seksual filmlərin və parnoqrafik nəşrlərin yayılmasına qarşı çox həssaslıqla reaksiya verir və onların ləğvini tələb edirdilər.

Skandinaviya ölkələrində məsələn Norveçin paytaxtı Oslo şəhərində də "Böhranlı vəziyyətlər mərkəzləri" yaradılmışdı. Belə mərkəzlərin yaradılması ideyasına bələdiyyə orqanlarının qərəzli yanaşdıqlarına baxmayaraq, QAUH-un nümayəndələri öz tələblərinin Norveç parlamentinin qadın deputatları tərəfindən dəstəklənməsinə nail oldular. Bu ölkədə fəaliyyət göstərən mərkəzlər sosial məsələlər üzrə Dövlət departamenti tərəfindən maliyyələşdirilir. Bundan əlavə, QAUH -un iştirakçıları öz qrupları nəzdində uşaq bağçaları və körpələr evləri təşkil etmiş, boşanan qadınlar üçün qadın evləri və məsləhətxanaları açmışlar. Eyni zamanda onlar həbsdə olan qadınların azad edilmələri məqsədi ilə xüsusi fondlar yaratmışlar.

Qarşıya qoyulmuş tələblərin hamılıqla qəbul olunması, konkret fəaliyyət istiqamətləri, aktiv iş metodları, qarşılıqlı anlaşma və kömək etmə mühitinin yaradılması üçün edilən səylər, neofeminist qadın hərəkatını güclü və sayılan qüvvəyə çevirmişdi. "Təmiz qadın problemləri"nin dar çərçivəsindən tədricən çıxaraq, daha geniş spektrə malik qlobal problemlərə müdaxilə edildikcə, QAUH-un nümayəndələri demokratik və mütərəqqi qüvvəlirin ümumi mübarizəsinə qoşulmağa başladılar. Lakin bu proses tədricən baş verirdi. Belə ki, hərəkatın lap başlanğıcında QAUH-un nümayəndələri ənənəvi qadın təşkilatlarına qoşulmayaraq öz fəaliyyətilərini dar çərçivədə həyata keçirirdilər. Düzdür, ayrı-ayrı hallarda beynəlxalq əlaqələr yaratmaq təşəbbüsləri olmuşdu. Ancaq bu təşəbbüslər xaotik şəkil alaraq tənzimlənmədiyindən inkişaf tapa bilməmişdi.

Qeyd etmək lazımdır ki, sol qüvvələrin qadın

hərəkatında baş verən prosesləri dərk etmələri üçün də uzun müddət lazım gəlmişdi. Hətta onlar bir müddət neofeminist qadın hərəkatına şübhə ilə yanaşmışdılar, lakin, tədricən vəziyyət dəyişmiş və feminist - solçu qadınlar, prokommunist qadınlar orqanlarda çıxışlar edərək, kişilərin qadınlara qarşı davranışlarında dəyişikliklər baş verməsinə nail olmağa başlamışdılar.

Nüvə qarşıdurmasının gətirə biləcəyi ölümcül təhlükə və yer kürəsinin müxtəlif hissələrində olan irtica ocaqları qadınların müharibələr əleyhinə kütləvi surətdə çıxışlarının aktivləşməsinə gətirib çıxardı.

Müharibə əleyhinə aparılan hərəkatda feminist qadınların da yerləri olmuşdur. Bu qadınların daha mübarizləri 1981-ci ildə ABŞ-dan, Danimarkadan, Qərbi Berlindən, Norvençdən Praqaya gələrək BDQF-nin (Beynəlxalq Demokratik Qadın Federasiyası) təşəbbüsü ilə keçirilən Qadınların Ümumdünya Konqresinin işində iştirak etmişlər. Onların məruzələrinin mövzusu və məzmunu 1975-ci il Berlin Konqresindəki çıxışlarından köklü dərəcədə fərqlənirdi. Əgər 1975-ci ildə onların arasında üstünlüyü radikal feminist qadınların çıxışları təşkil edirdisə və bu Beynəlxalq Qadın ilinə həsr olunmuş Berlin Konqresinin ümumi müddəalarından kənarda qalırdısa, artıq Praqada neofeminist qadınlar diqqəti kapitalist və sosialist ölkələrindəki qadınlar arasında qarşılıqlı inam yaranmasının əldə edilməsinin vacibliyinə yönəldirdilər. Onlar Şərqlə Qərb nümayəndələri arasında bu məsələnin həll olunması məqsədilə müzakirələr başlanması fikrini irəli sürürdülər.[1]

Birinci addım kimi təklif olunurdu ki, beynəlxalq

---

[1] Əli Seydabbas oğlu və Rəna Seydrza qızı "Gender tədqiqatları" səh. 20

münasibətlərin müzakirəsi birgə keçiriləcək tədbirlərlə əvəz olunsun. Konkret olaraq sükut növbələrinin təşkili, sülh yürüşlərinin keçirilməsi və sülh düşərgələri yaradılması ideyaları meydana çıxdı. Feminist qadınlar həmçinin antikişi əqidəsindən də imtina etmirdilər. Eyni zamanda müharibə əleyhinə çağırışlarla bərabər həmçinin patriarxatı tənqid edən çıxışlar səslənir, hətta uşaq doğuşundan imtina etmək aktı kimi qəti tədbirlərə əl atmağa çağırılırdı. Bundan əlavə Müdafiə Nazirliklərinin qarşısında piketlər və hərbi bazaların ətrafında sülh düşərgələrinin yaradılması tələbləri səslənirdi.

Feminist qadınların və sosialist ölkələri qadınlarının Praqa konqresi çərçivəsində keçirdikləri görüşlərin və danışıqların məntiqi olaraq onların "Tərkisilahla əlaqədar" BMT-nin Baş Assambleyasının II xüsusi Sessiyasına ünvanlanmış və birgə hazırladıqları petisiyanı misal gətirmək olar. Bu sənəd kütləvi nüvə qırğın silahlarının tamamilə ləğv olunmasına çağırış tələbi idi.

Nəhayət, 1982-ci ildə Qərb və Şərq ölkələrindən keçməklə birgə sülh yürüşü keçirilməsi ideyası həyata keçirildi. Danimarkanın Kopenhagen şəhərindən başlanğıcını götürmüş bu yürüş Finlandiya, sovet şəhərləri olan Leninqrad (indiki Sankt-Peterburq) və Minskdən keçərək Xatında (Belorusiyada memorial-xatirə kompleksi) sona yetdi. Bu yürüşün İsveçdən, Danimarkadan, Norveçdən, Finlandiyadan və keçmiş Sovetlər İttifaqından olan iştirakçılarını eyni şüarlar və tələblər birləşdirirdi. Elə həmin 1982-ci ildə feminist qadınlar özlərinin tərksilaha çağıran Ümumudünya Konqrensinə toplaşdılar. Bu konqresin iştirakçıları yekdillik nümunəsi göstərərək hamılıqla amerikalı qadınların Pentaqonun planlarına qarşı "Qadınlar, sülh uğrunda mübarizə aparın" hərəkatının Qrinem Kommondan olan qadınları ilə və sufrajist qadın hərəkatının

yarandığı tarixdən məşhur olan Seneka-Follze şəhərindən olan qadınlarla həmrəylik əlaməti kimi sülh şəhərciklərinin yaranması ideyasını dəstəklədilər. Feminist qadınlar bildirirdilər ki, qadınlar mübarizə yolunu ona görə seçiblər ki, Yer kürəsində baş verən bütün irtica hallarına, qanadlı raketlərə və ümumiyyətlə nüvə silahı məfhumuna birdəfəlik son qoysunlar.

Feminist qadınlar Moskva şəhərində (23-27 iyun 1987-ci il) keçirilmiş, proqram üzrə "Feminizm və qlobal problemlər" mövzusunda disskusiyalar aparılması nəzərdə tutulan və qadın ictimaiyyətinin çox önəmli forumu sayılan - Ümumdünya Qadın Konqresinin işindən də kənarda qalmadılar. Bu konqresin işində ABŞ-dan, Belçikadan, Çilidən, Avstriyadan, AFR-dən, İrlandiyadan, Puerto-Rikodan, Uqandadan, Fransadan və Qərbi Berlindən olan feminist qadınlar yaxından işğtirak edirdilər. Aparılmış qarşılıqlı fikir mübadiləsi feminist qadınların ideoloji platformasında olan kövrəkliyi üzə çıxardı, müəyyən qadın məsələlərində onların səhv mövqedə olduqları aydın oldu. Lakin, bununla belə feminist qadınların irəli sürdükləri bir çox problemlər və tələblər qadınlar tərəfindən geniş dəstək aldı. Feminst qadınların Ümumdünya Qadın Konqresindəki çıxışları onların sülh işi uğrunda yorulmaz mübariz oldularını bir daha sübut etdi. Təsadüfi deyildir ki, nüvə silahlarının qarşılıqlı ləğv olunması haqda Sovet-Amerika Müqaviləsinin imzalanmasını Qrinem-Kommondan olan qadınlar şadyanalıqla, mahnı və rəqslə, yandırılmış məşəllərlə, yürüşlərlə qarşıladılar. Bu qadınların lideri, xanım K.Xauzen deyirdi: "Vaşinqtonda imzalanan bu müqaviləni, biz altı illik mübarizəmizin nəticəsi və parlaq qələbəmiz hesab edirik".[1]

---

[1] "Правда" qəzeti, 1987, 23 dekabr

## 4. GENDER VƏ MƏDƏNİYYƏT

- **Patriarxal mədəniyyətin yaranması.**
- **Yeni zamanda gender baxışları.**

Feminist qadınların müşahidələrinə görə həyatın bütün sahələri və mədəniyyətin əsasını təşkil edən sosial institutlar, qaydalar ilə əhatə olunmuşdur. BMT-nin məlumatlarına görə (onlar feminist təşkilatlar tərfindən tez-tez gətirilir və görünür ki, artıq köhnəlib) qadınlar ümumi dünya əmtəəsinin 2/3 -ni yaratdıqları halda, ümumdünya gəlirinin 10%-ni alır və dünya mülkiyyətinin yalnız 1%-nə sahibdirlər. Kişilərin "güclülüyü" yalnız qadının "zəifliyi" vasitəsilə təsbit olunur. ("sahib - qul" münasibətləri). Buna görə də cəmiyyət özünün bütün sosial institutlarının vasitəsilə kişi və qadın üçün fərqli mənəvi normalar, sərvət idealı yaradır.

Kişi üçün təşviq olunan normalar müstəqillik, fərdilik, fəallıq, qətiyyət və i.a. olduğu halda, qadınlar üçün fədakarlık, özünü qurban etmək, emosionallıq, yumuşaqlıq, qayğıkeşlik, ailəyə bağlılıq, sədaqət məsləhət görülür. Cəmiyyətdə belə sosio-mədəni təsisat həyatın bütün sahələrində öz əksini tapmalıdır, tapır və onlara "hakimiyyət- tabeçilik" münasibətlərinin üstünlüyünü diktə edir. Məsələn, tarix kişilərin gözü ilə, kişilər üçün yazılır və buna görə də inqilablar, müharibələr digər sarsıntılar onun əsas məndəricatını elə təşkil edir ki, sanki bəşəriyyət tarixində zorakılıq inkişafın əsas hərəkətetdirici qüvvəsidir. Təbabətdə də, ümumiyyətlə elmdə də (əgər onlar ancaq Qərbin mövqelərindən çıxış edirlərsə) tədqiqatlar və əməli hərəkətlərdə güc, zorakılıq metodlarına üstünlük verilir, onları daha faydalı hesab edirlər.

1996-cı ildə Moskvada nəşr olunmuş "Fəlsəfə" dərsliyində oxuyuruq ki, orta əsrlərdə bu bölünmə artıq Müqəddəs Kitabların nüfuzuna arxalanmağa başlayır.

Kilsənin "atalarından" biri İskəndəriyyəli Filon belə deyirdi: "Tərəqqi - qadına aidlikdən, kişiyə aidliyə doğru hərəkətdir, zira qadın cinsi, felən material, passiv, tünd və şəhvani olduğu halda, kişiyə - fəal, rasional və daha çox mənəvilik fikri yaxındır. Kişi - qadına nisbətən daha dominantdır: qadın - natamam, tabe, passivdir. Rasional ağıllı, mənəviyyatlı - kişiyə, irasional-qadına aiddir. Makedon yığıncağında (585-ci il) "qadını insan hesab etmək olarmı" sualına cəmi bir səs çoxluğu ilə müsbət cavab alınmışdı. Orta əsrdə Avropada geniş yayılmış "İfritlərin çəkici" kitabının müəllifləri Y.Şprenger və Q.İnstitoris (1487-ci il) qadının kişiyə tabe vəziyyətini "femina" (fe-fides-inam, minus-defis-az) terminin özü ilə izah edirdilər: yəni kişiyə nisbətən qadına daha az inama və deməli həm də tabeçiliyə məhkumdur.

Özünün insanların bərabərliyi uğrunda görkəmli mübarizəsi ilə səciyyələnən yeni zamanda cinslərin qeyri-bərabərliyi fəlsəfi bir prinsip kimi formalaşır. Məhz bu dövrdə təbii, cismani və deməli femin olan şeyin əzilməsi mədəniyyət ilə təfəkkürün sistem yaradan bir prinsipinə çevrilir. Təbiət haqqında düşüncələrin yerinə ona fəal təsir etmə vaxtı gəlir. Bu baxımdan F.Bekon Aristotelin təbiəti "toxunulmaz və zorlanmamış" qoyması haqqındakı iradı heç də təsadüfi deyil. Əksinə, Yeni zamanın mütəfəkkiri üçün dərk edən özünün təbiət üzərində hakimiyyət və üstünlüyünü təsbit edən kişidir. Həmişə insan tərəfindən canlı məxluq kimi dərk edilən təbiət ilk dəfə olaraq "ölür": onun quruluşundan baş açmalı olan insanın əlində cansız mexaniki oyuncağa çevrilir. Digər bir mütəfəkkirin - Dekartın fikrincə, dərketmə Loqosun (rasional "kişi" şüurunun) Sofiyadan (intuitiv "qadın" şüurunda), kişinin və onun şüurunun Təbiətdən ayrılmasıdır. Faktlar göstərir ki, XVI-XVII əsrlərdə - "ağılın təntənəsi" dövründə əslində

türkəçarə, "təbii" təbiblər olan qadınlara qarşı "əcinnə ovu" görünməmiş vüsət alır. Məhz bu vaxt qadın seksuallığı sərt kişi nəzarəti altına alınır, zira onlar "patriarxal" cəmiyyət tərəfindən eyib sayılır.

Maarifçilik dövrü də cinslərin qarşılıqlı təsiri probleminə öz töhfəsini verdi. Bununla əlaqədar olaraq J.J.Russonun fikirləri daha çox diqqəti cəlb edir. Baxmayaraq ki, təbiət əsl sərvətdir, lakin onunla eyniləşdirilən ən alçaq əxlaqi məxluqdur, belə ki, onun ehtirasları vətəndaş cəmiyyəti quruculuğunun şüurlu, ağlabatan prinsiplərinə təhlükə törədir. Buna görə də qadını vətəndaş cəmiyyətindən uzaqlaşdırmaq, tamamilə xüsusi və ailəvi sahələrə yerləşdirmək lazımdır. Çünki onlar kişilər üçün səciyyəvi olan ictimai əxlaq, etika, vətəndaş fəallığından azaddır. Alman filosofları Kant və Hegel bu xətti davam etdirirdilər. Hegel deyirdi ki, "qadın kişidən bitki heyvandan fərqləndiyi kimi fərqlənir." Qeyd etmək yerinə düşərdi ki, o dövrün cəmiyyəti hesab edirdi ki, bu doğru fikirdir.

XVIII əsrdən başlayaraq qərb fəlsəfəsində gender differensiyası yeni prinsip əsasında formalaşır.

Yaranan sosialist və marksist ideyalar maskulin və femin mədəni ideyaların yenidən birləşdirilməsi, kişi və qadınların bərabərliyi məsələsini qaldırdı. Lakin, Marksın əsərlərində qadının diskriminasiyasına ümumiyyətlə antoqonistik cəmiyyətdə insanın diskriminasiyası kimi baxılırdı. F.Engels yazırdı: "xüsusi mülkiyyətin təşəkkülü və cəmiyyətin sinfi quruluşunun inkişafı qadın cinsinin ümumdünya tarixi məğlubiyyətinə gətirdi". Bununla o, ədalətli sinfi mübarizəni barrikadalarda bərpa etməyə çağırırdı. Lakin, müasir tədqiqatların göstərdiyi kimi, ancaq "sinfi" bərabərsizliyin aradan qaldırılması kifayət deyil, maskulin ideoloji və patriarxal mədəniyyətə qalib gəlmək, onları aradan qaldırmaq lazımdır.

Ən Yeni Zamanda vaxtı ötməkdə olan mexaniki rasionalizmə, onun sərt deterministik çərçivələrinə qarşı etiraz edən yeni tip irrasionalizmə qarşı mübarizə gender tədqiqatlarının əsasını təşkil etdi. Bu baxımdan da

Qadın hərəkatının, - "femin etirazı"nın üç mərhələsi aşağıdakıları əhatə edir:

1. 70-ci illərdə feminizm problemlərinin, xüsusilə sosiologiya və humanitar elmlərdə əsl partlayışı və canlanması.

2. Bu partlayışın nəticəsində Qərb universitetləri və kollecləri tədris proqramlarınına qadın tədqiqatları üzrə tədris kursları daxil edildi. "Qadın amili" cəmiyyətin sosial və siyasi həyatında getdikcə daha çox əhəmiyyət kəsb etməyə başladı.

3. Nəhayət, "femin" problemləri üzrə əsl elmi istiqamət və tədqiqatların yaranması, təşəkkül tapması sırf qadın tədqiqatlarından, ümumiyyətlə gender tədqiqatlarına keçid yaratdı: insan cəmiyyətinin, mədəniyyətinin və qarşılıqlı münasibətlərinin bütün aspektləri genderlə bağlıdır, buna görə də bu istiqamətin çərçivəsində ancaq qadın problemləri ilə məhdudlaşmaq olmaz Baxmayaraq ki, konkret maskulin femin təsəvvürləri bütün mədəniyyətlərdə eyni deyil, gender differensiyası və assimetriyası bütün cəmiyyət və mədəniyyətlər üçün xarakterkdir.

## 5. CƏMİYYƏTİN FEMİNİST TƏNQİDİ

- **Cəmiyyətə yeni baxış: gender və feminzm.**
- **Gender tədqiqatları: problemlər və araşdırmalar.**
- **Cinslərin qarşılıqlı münasibətlərinin psixo-fiziki və sosial aspektləri.**

Cəmiyyət və onun sosio-mədəni təsisatları feminist qadınların tənqidinin əsas hədəfi oldu. Feminizmin əsas iradları aşağıdakı müddəalarda ifadə olunmuşdu:

- qadınları həmişə siyasətdə "kənarlaşdırblar" və hal-hazırda onların hakimiyyəti kişilərin hakimiyyətindən azdır;
- qadınlar bir çox cəmiyyətlərdə həmişə daha az maariflənmiş olmuşlar;
- onlara sosial rol oynamaq imkanı daha az verilib və kənarda yaradıcı işlə məşğul olmaq üçün onlara daha az variantlar təklif olunur;
- cəmiyyətlərin əksəriyyətində qadınlar kişilərə nisbətən daha az pula və ya müftə, pulsuz daha ağır iş yerinə yetirirlər:
- qadınların bir cins kimi özlərinə alçaq qiymət vermələri şirnikləndirilir.

Problemin iki mümkün həlli var: a) "androgen ideal" - cinsi rolların (analıq) ləğv olunması hesabına cəmiyyətin "bircinsliliyini" əldə etmək. Bu halda kişi ilə qadın arasında münasibətlər hakimiyyətdən, zordan və ədalətsizlikdən azad olardı. "Laborator" (süni) uşaqları androgen idealın həyata keçirilməsinə kömək edə bilər. Məhz onda "birinci növ" feminist qadınların fikrincə, bütün fərqlər aradan qalxacaq: qadınlar daha rasionalist, daha məntiqli, güclü və cəsur olacaqlar: b) ikncі feminist qadınlar məktəbi üçün kişilərlə qadınlar arsındakı fərq realdır, qadınların təbiəti başqadır, lakin qiymətcə kişi təbiətindən heç də geri qalmır. Qadınlar xüsusi keyfiyyət və qabiliyyətə malikdirlər: səciyyəvi qadın düşüncə tərzi kişi

təfəkkürünə nisbətən daha intuitivdir, emosional cəhətdən daha səmimidir, daha qurucu və genişdir. O, kişilərin elmi, rasional, məntiqi, analitik düşüncə tərzinə tam qiymətin alternatividir. Feminizm bu kimi qadın xüsusiyyətlərinin əsl qiymətinin cəmiyyət tərəfindən tanınmasına nail olmaqdır.

Cinslərin fərqləri öz-özlüyündə bu fərqlərlə əsaslandırılan çoxsaylı müxtəlif sosial və siyasi normaları zəruriliklə şərtləndirə bilməz. Buna görə də feminist qadınlar cinslə (sex), soyla (gender) fərqləndirirlər. Misal üçün, feminist qadınlar müxtəlif dillərdə müxtəlif sözlərin (isimlərin) kişi, qadın və orta cinsinin təyin olunmasındakı fərqləri gətirirlər.

Simona de Bovuar özünün "İkinci cins" (1949-cu il) kitabında göstərmişdir ki, cəmiyyət kişi başlanğıcını müsbət mədəni norma kimi qəbul etdiyi halda, qadın başlanğıcını əksinə, mənfi, normadan kənara sapma hesab edir. Buna görə də qadınlar "yad" qrup kimi təyin olunur və bərabərlikdən, hətta öz həyat tərzlərini sürmək "qanuniliyindən" məhrum edilirlər.

"Seksual siyasət" kitabının müəllifi Keyt Miller "patriarxat" anlayışı və onunla bağlı hakimiyyət və dissidentliyin (fərqli fikirliliyin) əzilmə, boğulma atributlarını dövriyyəyə gətirir. Patriarxat - ataların hakimiyyətidir: elə ailəvi, sosial, ideoloji, siyasi sistemdir ki, orada qadına aid olan hər şey kişiyə tabe olunub. Qadınların əzilməsi kişidən bioloji fərqlərə görə yox, qadın başlanğıcının cəmiyyət tərəfindən törəmə kimi qəbul olunmasından irəli gəlir. Seksual siyasət-sosial hakimiyyətin qanunudur, seksual hakimiyyət isə insanları həm birbaşa zorakılıq, həm də mədəniyyət vasitələri ilə idarə edir.

Ənənəvi mühitdə qəbul olunmuşdur ki, kişi - insanın mentallığı eynidir, qadın mentallığı isə onlardan fərqlidir (psixiatr-həkimlərin apardığı və nəticələri əvvəlcədən

məlum olan sosioloji tədqiqatları bu fikri təsdiqləyirdi) Sulamif Fayerstoun özünün "Cinsin dialektikası" kitabında qeyd edirdi: "Əgər təbiət qadını kişidən fərqli etmişsə, cəmiyyət onu insandan fərqli edibdir."

Ona diqqəti cəlb etmək lazımdır ki, kişi və qadını qarşı-qarşıya qoyan mədəni-simvolik sıralarda cinslərin real bioloji fərqini göstərən birinci cütlükdən (kişi-qadın) sonra yerdə qalan qarşıqoymalar sosial və mədəni - simvolik səciyyə daşıyır, açıq və gizli dəyər qiymətləndirilməsindən ibarətdir. Seksual (cinsi) qiymətləndirmə hiss edilmədən gender qiymətləndirməsinə keçərək "femin" və "maskulin" qarışdırılması problemini yaradır.

Fikrim izcə, "gender" termini bir çox səbəbdən çox da uğurlu deyil, amma o artıq elmi terminologiyada "özünə yer etdiyindən" tədqiqatçıların onu necə başa düşdüklərinə müraciət etmək lazımdır.

Psixoloq Roda Unger "Cinsin və genderin yeni təyini" (1979-cu il) məqaləsində təklif etmişdir ki, cins (sex) sözü yalnız bu xüsusi bioloji mexanizmlərə (xromosom və ya fizioloji fərqlər) aid olanda, **gender**- cəmiyyətin qadın və kişi kimi müəyyən etdiyi və onlar üçün tipik və arzu olunan hesab edilən və cizgilərə, normalara, stereotiplərə, vəzifələrə aid olan sosioloji, mədəni və psixoloji aspektlərin tədqiqatı üçün istifadə edilsin.

Cəmiyyətin feminizm tərəfindən tənqidindən və onun əsas dəyərlərindən tamamilə aydın olur ki, gender problemlərinin hesabı bizim dünyagörüşümüzün əsaslarını dəyişir və insan sivilizasiyasının tarxinin yenidən dərk edilməsi məsələsini irəli çəkir. Gender probleminə əhəmiyyət verilməzsə, insanlığın yaxın və uzaq gələcəyini qabaqcadan bildirmək mümkün deyil.[1]

---

1 "Философия", М., 1998, стр. 406

Kişilərin və qadınların sosial, ictimai vəziyyətlərinə mədəniyyətin daxil etdiyi müxtəlifliklər ünsiyyətin müxtəlif səviyyələrində tarixi cəhətdən bir-birlərini anlamağa gətirib çıxarır. Kişilərin emosional təmkinliliyi, praqmatizmi və rasionallığı, onların həddindən artıq aktivliliyi və hərəkətlərindəki qətiyyətlilik, qadınların hissiyatlılığı, emosionalılığı, intuisiyası, onların yumşaqlığı və qətiyyətsizliyi, kompromis axtarmağa cəhd etmələri ilə birbaşa ziddiyyətdədir. Qarşılıqlı anlaşılmamaqda kişilər, özlərinin şəxsi meyllərinə və qiymətlərinə əsaslanaraq, qadınları şərh etməyə daha meyllidirlər. Münhen Universitetinin fəlsəfə üzrə professoru Qitta Axsın qeyd etdiyi kimi, kişi hesab edir ki, əgər qadınlar "yox" deyirsə - bu "bəlkə də" deməkdir, yox əgər o "bəlkə də" deyirsə - bu o deməkdir ki, o bu və ya digər mənada "hə" fikirləşir. Axırıncı onu bildirir ki, insanlar verbal dildən, sözdən başqa ünsiyyətin digər vasitələrindən istifadə edirlər.

Ünsiyyətin ən qədim və zəngin vasitələrindən biri də "əl-qol, qaş-göz hərəkətləri" "dili" sayılır. Sosial əhəmiyyətli məlumatların 2/3-yə qədəri əsas etibarı ilə "hərəkətlər" dili ilə ötürülür: daha doğrusu, "hərəkətlər dili"ndə susmaq mümkün deyildir, biz daima nə isə "ötürürük" və insanlar tərəfindən təsvir olunmağa məruz qalırıq. Və bu, rasionallığın və məntiqin ikinci plana keçdiyi ünsiyyət səviyyəsidir.

Belə hesab olunur ki, "hərəkətlər" "dili" seksuallıqla birbaşa əlaqəlidir, subyektiv erotikasının və obyektin seksual oyunlarının xüsusiyyətlərini ifadə edir. həqiqətdə "hərəkət dili" - geniş kommunikasiya meydanıdır: o, insanın keyfiyyətləri, əhəmiyyətli fərdi əlamətləri haqda məlumat ötürür: yaş, cins, irqi mənsubiyət, hisslər, göstərişlər, özünü qiymətləndirmə, "mən" obrazı, sosial status. Bu, ona görə mümkündür ki, eyni zamanda həm alət, həm də vasitə

olan bədən iki müxtəlif qaydalara tabedir. Verbal dildən fərqli olaraq "real" dil qayda-qanun elementidir. Onun dili, icra hakimiyyətinin aləti olub, hökmranlılıq atributuna malikdir.

Cinslər arasında əsas müxtəflik - gender ideyaları - sivilizasiyanın mürəkkəb prosesində konkretləşdirilir ki, bu zaman fərd tərəfindən mədəni və sosial qaydalar mənimsənilir. "Gender" cəmiyyətdə "qadınlıq" və "kişilik" anlayışları ilə əlaqələndirilən bütün təsəvvürlərin və ümumilərin cəmini bildirir. "Genderləşdirmə" həm də ona gətirdi ki, qadının və kişinin əvvəllər dəyişkənli, dağılmış əl-qol hərəkəti, davranışı aydın və kəskin konturlar qazanmış oldu. Bədən, ictimai ideologiyanın və şəxsi eyniləşdirmənin bütöv birləşmə yerinə çevrilir, bədən "üçüncü cinsi əlamətə" çevrilir. Cinslərin sosioloji müxtəlifliyi və onların psixoloji bəraət olunmaları, cinslərin arasında hökmranlığın (tabeçiliyin) qarşılıqlı münasibətlərini gücləndirir.

Deməli, aftonomiya (müsətqillik, azadlıq) və özünü dərk, cəmiyyətdə fiziki qüvvə, sosial hakimyyət və seksul potensiya ilə birbaşa əlaqələndirilir və onlar birmənalı şəkildə "kişiliyə" aid edilir. Əks vəziyyətdə "kişiliyə" aid özünüdərk əvəzinə "qadına aid" özünə diqqət, özünə məxsus bədənin özgəninki kimi "başqası" üçün nəzərdə tutulmuş kimi seyri əmələ gəlir. Gözəlliyə qarşı getdikcə artan tələblərə (bir qayda olaraq kişilərin irəli sürdüyü) uyğun gəlmək üçün, qadın bədəni çoxsaylı dəyişikliklərin hədəfinə və qurbanına çevrilir. Cəlbedicilik prinsipi qadınlar üçün "döş köynəyinə", "qadınlıq" isə - ikinci təbiətə çevrilir.

Madam ki, hakimiyyət həm də təyinedici hakimiyyətdir, geyim (və saçdüzümü) hakimiyyətin həlledici faktoruna çevrilir, cəmiyyətdəki sosial vəziyyəti əks etdirir.

"Estetik nüfuz" sahibləri (modelyerlər, üslubçular),

dini, kübar və ya "xüsusiyyətçi" hakimlər olan kişilər - nəinki özlərinin, həmçinin qadın geyimlərinin dəb qoyanlarıdır. Kişi geyimi: rahatdır, funksionaldır, keyfiyyətlidir, sosial vəziyyəti və rifahı təyin edərək o ailə statusuna qarşı etinasızdır. Qadın geyimi həmişə cəlbedicilik yəni başqası üçün faydalılıq meyarı ilə qiymətləndirilir. O, sərbəst hərəkəti məhdudlaşdırır, səhhət üçün zərərlidir, ziyan gətirir (korset, korsaj). Çox vaxt geyimlə ailə vəziyyəti müəyyən olunur (qadın ərdədir və ya yox).

Beləliklə, hakimiyyət müəyyənləşdirir, aydınlaşdırır, nəzarət edir, cəzalandırır. Lakin, "genderlekt" (cinsi dil) göstərir ki, bir dildə iki dialekt - qadının dili və kişinin dili əksər hallarda qarşılıqlı anlaşılmazdır (məsələn, kişinin yüksək səsi-təcavüz əlaməti olduğu halda, qadınınki haltəbdən çıxmaq kimi qəbul edilir). Bunlar jestlərə, mimikaya, baxışlara, bədənin vəziyyətinə, hərəkətə də aiddir. Ətrafda davranış və onun mənimsənilməsi həmçinin qadınların və kişilərin fərqli olduqlarının göstəriciləridir.

Kişiləri səciyyələndirən böyük məkan zəbti, maşınların, kabinetlərin (öz məkanının, ərazisinin müdafiəsi) ölçüsü, qadınların məkanda köməksizliyi, "yad" məkanda hərəkət azadlığının və onun sürətlə hərəketetmə qabiliyyətinin məhdudluğu ilə əksdir: kişilərin vahid məkanı qadınlar üçün kütləvi və şəxsi mühitə parçalanır.

Demək olar ki, şüursuz mədəniyyət qadın obrazını kişinin rəqibi kimi qəbul edir, onun əks cinsin nümayəndəsinin tamhüquqlu partnyoruna çevrilməsi - gender problemini anlamaqla zənginləşmiş yeni mədəniyyətin vəzifəsidir.

## 6. GENDERİN AZƏRBAYCANDA TƏŞƏKKÜLÜ VƏ GENDER STATİSTİKASI[1]

- **Gender statistikası haqqında.**
- **Gender Azərbaycanda: rəqəmlər və faktlar.**

Cəmiyyətdə qadınların və kişilərin hüquq bərabərliyinin bərqərar olmasını əks etdirən gender problemləri sosial həyatın bütün sahələrini əhatə edir. Hazırda cinsi bərabərlik məsələləri ən aktual siyasi, iqtisadi və sosial problemlərdən biridir. Artıq bütün cəmiyyət üzvləri gender problemlərinin qanundan, elmdən gerçəkləşib reallaşması istiqamətində çalışırlar. Əvvəllər uçot və statistikanın dövrün siyasi konsepsiyasından irəli gələn vahid metodologiyası mövcud olduğuna görə SSRİ tərkibində olan xalqların tarixi, coğrafi, milli və mədəni xüsusiyyətləri nəzərə alınmırdı. Bu da respublikalar üzrə gender stereotiplərini ifadə etmir və beynəlxalq müqayisələr və paralellər aparmağa imkan vermirdi. Nəhayət, 1998-ci ildən başlayaraq gender statistikası istiqamətində işlər hər il mütəmadi olaraq aparılır.

Nəzərə çatdıraq ki, Pekin Deklarasiyasında statistika məsələlərinə xüsusi diqqət yetirilmişdir. Konfransın materiallarında deyilir: "Milli statistika xidmətləri cəmiyyətdə qadın və kişilərin vəziyyəti ilə bağlı problem və məsələlərin cins və yaş üzrə bölgüsünü özündə əks etdirən statistik məlumatların toplanması, işlənməsi, təhlilli və nəşr olunmasını yerinə yetirirlər". Müstəqil inkişaf yoluna çıxmış respublikamızda insanlar cəmiyyətdə öz mədəni, milli və cinsi özünəməxsusluğunu yenidən dərk etmək və yenidən zəruri etmək üçün müəyyən yollar axtarırlar. Bütün dünyanın demokratik ölkələrində olduğu kimi bizim ölkə

[1] Bu bölmə təfsilatı ilə Rəna Mirzəzadə "Gender. Cəmiyyət. İnsan hüququ . Siyasət" monoqrafiyası Bakı. 2003. səh. 364-390

də də əhalinin gender məntiqində ilkin demoqrafik biliklərin formalaşdırılması aktuallıq kəsb etməlidir.

Gender statistikası-cəmiyyətin bütün sahələrində qadın və kişilərin vəziyyətini səciyyələndirir. O, qadın və kişilərin bərabər hüquq və imkanları prinsipinin yerinə yetirilməsi, onların hər bir xüsusiyyətləri üzrə tələblərə cavab verən optimal sosial-demoqrafik siyasətin işlənib hazırlanması üçün əsas verir.

Ümumilikdə respublikanın gender mənzərəsi belədir: Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-dən müstəqil dövlətdir. Hakimiyyət forması - prezident respublikasıdır. Ərazisi 86600 kv.km-dir. Azərbaycan Respublikası şimaldan Rusiya (Dağıstan), şimal-qərbdən Gürcüstan, cənub-qərbdən Ermənistan və Türkiyə, cənubdan İranla həmsərhəddir. Hər kv.km-ə əhalinin sıxlığı 92 nəfərdir. Əhalinin ümumi sayı 8.158.000 nəfərdir ki, onun 4.175.000-i qadın, 3.983.000-i isə kişidir. Əhalinin təxminən 13%-i qaçqın və məcburi köçkündür. Azərbaycan Respublikası 1992- ci ilin martından BMT-nin üzvüdür. 1995-ci ildə müstəqil dövlətin ilk Konstitusiyası qəbul olunmuşdur. Konstitusiya ən ali qüvvəli qanun olmaq etibarı ilə qadınların diskriminasiyasını qadağan edir ki, bu da 25-ci maddədə "kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır" kimi təsbit olunmuşdur. Konstitusiyanın bu tələbi eyni zamanda Azərbaycanın bir çox qanunları, Respublika Prezidentinin, Hökumətin və Milli Məclisin qanun və qərarları, fərmanları ilə tənzimlənir. Aktual problemlərdən biri olaraq, digər ölkələrdə olduğu kimi, gender statistikasının inkişaf etdirilməsi sahəsində, Respublika Dövlət Statistika Komitəsində də müəyyən işlər görülür.

Ümumiyyətlə Azərbaycanda 1995-ci il Pekin konfransından sonra gender problemləri maraq doğurudu.

"Gender məsələləri" sahəsində ilk məruzələr "Qadın və İnkişaf" (sədri professor E.Suleymanova olmuşdur) Mərkəzində, sonralar isə araşdırmalar, seminar və treninqlər BMTİP-nin 1997-2000-ci illərdə "Gender Layihəsi" (koordinatoru psixologiya elmlər namizədi R.İbrahimbəyova olmuşdur) çərçivəsində geniş vüsət almışdır. Tədricən respublikada Gender mərkəzləri, Elmi-tədqiqat İnstitutlarında "Gender tədqiqatları" şöbələri, QHT-lər formalaşmağa başladı.

Azərbaycan əhalisi haqqında ümumi təsəvvür yaratmaq üçün yenə də statistikaya müraciət edək. 2002- ci ilin göstəricilərinə görə hər 1000 nəfər kişiyə düşən qadının sayı 20- 30 yaş arasında 1039- 1121 nəfər, 40- 60 yaş arasında 1060- 1213 nəfər idi.

Əgər şəhər və kənd əhalilərini də gender statistikası baxımından xarakterizə etsək belə mənzərə alınar: şəhərdə əhalinin 14,7 faizi qadınlar, 10,9 faizi kişilər, kənddə isə paralel olaraq 15 faizə nisbətən 12 faizdir. Orta ömür uzunluğu qadınlarda 75, kişilərdə 67 hesab olunmuşdu.

Azərbaycanda əhalinin təhsil, sosial və professional istiqamətlərdə tərəqqisi məlum sosializm quruluşundan əvvəlki dövrdə inkişaf etsə də, məlum SSRİ konstitusiyası cinsi ayrı- seçkiliyə fərq qoymamış, qadınlar üçün icbari orta təhsil, qadınların kişilərlə bir yerdə təhsil almasını qanunla təsbit etmişdi. Təhsil sahəsində hüquq bərabərliyi haqqında qanun hal- hazırda öz qüvvəsindədir. 2000- ci il təhsil üçün göstəricilər belədir: Ali məktəblərdə 36600 nəfər qadın və 51900 nəfər kişi, orta ixtisas məktəblərində isə 26200 qadın və 12600 kişi oxuyur.

Cinsi mənsubiyyət üzrə yanaşdıqda 2000-ci il statistikasına görə elm sahəsində fərqlər belədir: akademik kişilərin sayı 36 nəfər, qadın 1 nəfər; akademiyanın müxbir üzvünün 57 nəfəri kişi olduğu halda, 3 nəfəri qadın; elmlər

doktoru 1375 nəfər kişi, 175 nəfər qadın; elmlər namizədi 5875 nəfər kişi, 2625 nəfər qadındır. Ali təhsil və tədiqat müəsisələrində qadınlar texniki və elmi sahələrdən çox, əsasən humanitar və ədəbi yaradıcılıq sahələrində məşğuldurlar. Qadınlar əhalinin əksəriyyətini təşkil etdiyi kimi qadın müəllimlərin də sayı kişilərinkindən çoxdur. Kənd yerlərində cinsi bərabərsizliyin bütün əlamətləri getdikcə daha da artır. Kənddə qadın və qızlar daha çox ev təsərrüfatı ilə məşğuldur, onların əsaslı təhsil almağa imkanları yoxdur. Beləliklə, onların təhsil hüququ ayrı-seçkiliyə uğrayır. Getdikcə adət halını almağa başlayan, Bu kimi hallar azyaşlı qızların erkən ərə verilməsi və təhsildən yayılmasına rəvac verən amillərdəndir.

Azərbaycanın əmək ehtiyatlarının 45%-ni qadınlar təşkil etdiyi halda, rəhbərlikdəkilərin yalnız 1,5%-i qadındır, kənd təsərrüfatında-peşəkar işçi qadınlar-10%, vəzifədəkilər-1,3%-dir. Kənd təsərrüfatında ağır işlərin 70-75%-i qadınların üzərinə düşür. 1994-cü ildə şəhərdə sənayedə işləyənlərin 44,6%-i qadın olmuşdur-rəhbərlikdə isə-3,1%- i. Ümumilikdə götürəndə qadınların əmək haqqı kişilərinkindən 30% aşağıdır. Ən pis vəziyyət pensiyaçılar və ahıllar arasındadır; tənha analar 142645, dullar 318000, çoxuşaqlılar 120000-dir. İşsizlərin 60-70%-i qadınlardır. Seçkilərə hədd (kvota) ləğv olunduqdan sonra qadın deputatların faizi SSRİ üzrə 50%- dən 27%- ə düşdü. Azərbaycan Ali Sovetində 1991-ci ildə 349 deputatın yalnız 17- si, yəni ümumi sayın 4,8%- i qadın idi. İlk Ali Sovetin tərkibindən yaranan Milli məclisin 1992-ci ildə 50 nəfərindən 3 nəfəri qadın idi. Muqayisə üçün qeyd edək ki, Rusiyada-16, Özbəkistanda-9,6, Tacikistanda-3, Ermənistanda-3, ABŞ-da-6, Türkiyədə-1,8, İranda-3,8, Danimarka, İsveç, Norveçdə 35%-ə yaxın qadın parlament üzvü idi. Respublika üzrə İcra Hakimiyyəti başçısından 2- si

qadındır (2,6%). Lakin, onu da nəzərə çatdıraq ki, şəhər və rayonlarda bir nəfər qadın humanitar və ya sosial məsələlər üzrə müavin təyin edilir.

Azərbaycanda ali təhsili olan qadınların faizi beynəlxalq standartlara görə kifayət qədər çox yüksəkdir və kişilər üçün olan göstərici ilə təxminən eynidir. Səhiyyə və təhsil sistemində işləyənlərin təxminən 65 faizi, elm sahəsində işləyənlərin ən azı 43 faizi qadındır. Bununla belə, ölkənin ən yüksək inzibati və siyasi vəzifələrində qadınlar zəif təmsil olunub. Ümumiyyətlə, ölkədə yüksək vəzifələrin 30 faizdən az hissəsini qadınlar tutur. Nazir səviyyəsindəki vəzifələrdə işləyənlərin 9 faizi qadınlardır. Milli Məclisdə qanunvericiliyin qəbul edilməsində məsul vəzifələrin 20 faizini qadınlar tutur. Milli Məclisdə komissiya sədri və sədr müavini, qrup və ya şöbə rəhbəri vəzifələrdəkilərin 15,4 faizi qadınlardır. Xarici ölkələrdəki səfirliklərdə işləyənlərin ancaq 11 faizi qadınlardır. Nazirlər Kabinetində qadınlar hələ də nisbətən aşağı vəzifələrdə, texniki işlərdə çalışırlar. Belə ki, rəhbərlik səviyyəsində qadınlar ümumiyyətlə yoxdur, ekspert və ya məsul vəzifələrin yalnız 17 faizini qadınlar tutur; hökumət strukturlarında işləyən texniki işçilərin isə 83 faizi qadınlardır. Naxçıvan MR-sı müstəsna hal təşkil edir; burada Baş Nazirin üç müavinindən biri qadındır. Azərbaycanda insan inkişafının səviyyəsi ölkənin qadın əhalisi üçün kişilərə nisbətən daha aşağıdır. Bu mənada 1999-cu ilin hesabatlarına görə ölkənin qadın əhalisi üçün İnsan İnkişaf İndeksi 0,687, kişi əhalisi üçün isə 0,744 təşkil edir. Ömrün ehtimal edilən müddət göstəricisi qadınlarda daha yüksəkdir, lakin onların nisbətən aşağı təhsil səviyyəsi və ÜDM göstəricisi ümumi insan inkişafı indeksinin qadınlar üçün daha aşağı səviyyəsini şərtləndirir. Azərbaycanın genderlə bağlı İnkişaf İndeksi (GİI) 0,715- dir. Bu kimi nəticələr göstərir

ki, insan inkişafı prosesində kişilərin və qadınların bərabərliyinə nail olmaq üçün qadınların iqtisadi və yüksək keyfiyyətli təhsil almaq imkanlarını genişləndirmək istiqamətində işlər görülməlidir. Respublikada Qadın Problemləri üzrə Qadın Komitəsi və 50- dək qadın QHT-ləri fəaliyyət göstərir. Qadınların sürətlə təşkilatlanmasının obyektiv səbəbi ilk növbədə əsasən qeyd etdiyimiz statistik göstəricilərdirsə, subyektiv səbəbi onların da proses və hadisələrdə müstəqil iştirak etməsidir. Ölkənin ictimai-siyasi həyatında daha çox kişilərin fəallıq göstərməsi, qadınların isə passivliyi də bir sıra amillərlə bağlıdır. Əsas səbəb kimi maddi iqtisadi durumun ən çox qadınların çiyninə düşməsi (ailə başçısı rolu-həm ata, həm ana olması), sosial təhlükəsizliyin zəifliyi, milli mentalitet baxımı prizmasından hələ də "siyasətçi qadın" obrazının özünə həyatda tam status qazanmaması, ağır ev işləri və s. kimi çoxsaylı təzadların təzahürüdür. Məhkəmə sistemi baxmayaraq ki, rəhbəri qadındır, say hesabı ilə hələ də kişilərin ixtiyarındadır. Sorğulara əsasən 100 kişi hakimdən 18 nəfəri qadın, 100 kişi vəkil müqabilində 21-i qadındır. Polisdə işləyənlərin cəmi 2%- i qadındır. Beləliklə, onu da qeyd edək ki, demokratiya fərdi azadlığı və qanun qarşısında hamının bərabərliyini nəzərdə tutur. Cəmiyyət gender simmetriyasına doğru tənzimlənməlidir. XXI əsr gender disbalansının formalaşması istiqamətində sürət götürməlidir.

1994-cü ildən qadınların IV Ümumdünya Konfransına hazırlıq məqsədilə, dövlət strukturları və QHT- in qadın nümayəndələrindən ibarət Qadınların Milli Hazırlıq Komitəsi yaradıldı. Bu Komitə həm beynəlxalq aləmdə, həm də respublikada müxtəlif səpgili qadın məsələlərinə həsr olunmuş seminar, treninq, sərgi və dəyirmi masa ətrafında müzakirələr keçirir. Onlar Pekin Konfransından əvvəl keçirilmiş Cakarta, Nyu-York, Minsk və Ankara

konfranslarının da fəal iştirakçısı olmuşdu. Respublikada qəbul olunan qərar və qanunlar, əksər vaxt gender siyasətini özlərində ehtiva etmədiyi üçün, müəyyən boşluqlar vardır. Bu da həqiqətdir ki, Konstitusiyada təsbit olunmuş bərabər hüquqlar real bərabər imkanlar olmaması üzündən gerçəkləşmir. PFP-da müəyyənləşdirilmiş on iki problem-istiqamətlər Azərbaycanda fəaliyyətdə olan qadın, gender və insan hüquqları təşkilatlatlarının da strategiyası kimi qəbul olunmuşdur. 1998-ci il yanvarın 14-də "Azərbaycanda qadınların rolunun artırılması haqqında" Respublika Prezidentinin sərəncamına əsasən Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Nazirlər Kabinetinə tapşırıldı ki, ölkənin siyasi, iqtisadi, mədəni həyatında qadınların rolunu artırmaq məqsədilə müvafiq təkliflər işləyib hazırlasın. 1998-ci ilin sentyabr ayında müstəqil Azərbaycan Respublikasında ilk dəfə Respublika qadınlarının I qurultayı oldu. II qarultayı isə 2003-cü ilin sentyabrında keçirildi.

**Qarabağ münaqişəsi gender müstəvisində.** Müstəqilliyinin ikinci onilliyini yaşayan Azərbaycan, bu illərdə Ermənistanın hərbi təcavüzünə məruz qalmış, ərazisinin 20%- ni itirmiş, işğal zonasına çevrilmişdir, onun 1 milyondan çox qaçqını və məcburi köçkünü vardır. Azərbaycan qadınları 1988-91-ci illər müstəqillik uğrunda gedən milli azadlıq hərəkatının əsas hərəkətverici qüvvələrindən olmuşdur. Bütün hadisə və proseslərdə kişilərlə bərabər qadınlar da yaxından iştirak etmişlər. 1990-cı il 20 yanvarda Bakıda və respublikanın digər ərazilərində sovet qoşunlarının törətdiyi qanlı faciənin qurbanları sırasında yaşlı, gənc, ziyalı, alim qadınlar, hətta məktəbli qız uşaqları da var idi. Qarabağ münaqişəsinin qurbanları olmuş jurnalist, həkim qadınlarımız qəhrəmanlıq rəmzinə çevrilmişlər. Qaçqın və məcburi köçkünlər arasında qadınlar

çoxluq təşkil edir. Bunun obyektiv səbəbi isə müharibənin nəticəsində ailə başçısını, oğlunu, qardaşını, atasını, ərini itirmiş qadın və qızların olması və həyatın bütün ağırlığının onların üzərinə düşməsi olmuşdur.

Azərbaycanda insanların öz ərazisinin bir yerindən digərinə qaçqın və məcburi köçkün kimi köçüb məskunlaşması probleminin tarixi-siyasi kökləri vardır. Bu hələ 1828-1830-cu illərdə Rus imperiyasının apardığı müstəmləkəçilik siyasəti nəticəsində ermənilərin bir hissəsinin İrandan Azərbaycanın Dağlıq Qarabağ ərazisinə köçürülməsi ilə başlamışdı. Köçürülən ermənilərlə yerli azərbaycanlılar arasındakı münaqişənin kökləri o dövrdə alovlanmış, bu günə qədər də davam etməkdədir. 1905-07-ci və 1918-20-ci illərdə də erməni təxribatçılarının Azərbaycanın Bakı və Şamaxı şəhərlərində törətdiyi qanlı qırğınlar azərbaycan tarixinin ağrılı səhifələridir. 1948-1953-cü illərdə Ermənistandan, tarixən həmin ərazilərdə kök salmış, 100 mindən çox azərbaycanlı zorakılıqla qovulmuş, Azərbaycanda məskunlaşmalı olmuşdur. 1988-89-cu illərdə SSRİ dövründə yenə Ermənistanda yaşayan 230 min azərbaycanlı həmin respublikadan zorla, ağır işgəncələrə məruz qalaraq qovuldular. 1990-cı ildə Orta Asiya və Qazaxıstandan, milli münaqişə nəticəsində, didərgin düşmüş 50 minədək axısxa (mesheti ) türkü də Azərbaycana pənah gətirdi. 1992-ci il 26 fevral Xocalı faciəsi zamanı bütov bir şəhər yerlə yeksan edilmiş, 613 nəfər dinc əhali, o cümlədən 63 uşaq, 106 qadın vəhşicəsinə öldürülmüş, 487 nəfər şikəst edilmiş, 1275 sakin, qocalar, uşaqlar, qadınlar əsir aparılaraq tarixdə misli görülməyən zülmə, təhqirə və təcavüzə məruz qalmışdır. Yüzlərlə qadın, gənc qız, uşaq xəbərsiz itkin düşmüşdür.

1990-94-cü illərdə Ermənistanın silahlı birləşmələri Azərbaycan torpaqlarının 17300 kv.km-ni (14 rayon mər-

kəzi və 834 kənd ) işğal etdi, 700000 nəfərədək azərbaycanlı daimi yaşayış yerini tərk etməyə məcbur edildi. Ermənistan hərbi birləşmələri tərəfindən Azərbaycan torpaqlarının işğalı nəticəsində ölkəyə 53,5 miyard ABŞ dolları həcmində zərər dəymişdir.

1995-ci ilin martında BMT-nin Qadınların Statusu üzrə Komissiyasının 39-cu sessiyasında Azərbaycan qadınlarının müdaxiləsi və tövsiyyəsi nəticəsində "Hərbi münaqişə ocaqlarında girov götürülmüş qadın və uşaqların azad edilməsi haqqında" qətnamə PFP-nın layihəsinin son variantına daxil edilib, qəbul olunmuşdu. 1995-ci ildə Pekində keçirilmiş Qadvınların IV Ümumdünya Konfransında Azərbaycan qadınları "Silahlı münaqişələr zamanı əsir düşmüş qadın və uşaqların azad edilməsi barədə" BMT-nin Qətnaməsinə müvafiq olaraq Qarabağ müharibəsi zamanı əsir düşmüş uşaq və qadınlarımızın qaytarılması tələbini irəli sürmüşlər. Onlar həmçinin bu müharibənin sülh yolu ilə qurtarması üçün dünya ictimaiyyəti tərəfindən yardım göstərilməsini xahiş etmişdir. Nümayəndə heyəti işğal olunmuş ərazilərdə hərbi işğal zamanı qadın və uşaqların pozulmuş hüquqlarının müdafiəsinə dünya ictimaiyyətinin diqqətini cəlb etmiş, bu sahədə onlara kömək göstərilməsini xahiş etmişdilər. Konfransda məhz Azərbaycan qadınlarının tələbi ilə bütün dünya qadınlarına müraciət qəbul edilmişdi. Müraciətdə deyilirdi ki, onlar öz ölkələrinin dövlət və din rəhbərlərindən tələb etsinlər ki, təcavüz zamanı əsir alınmış qadın və uşaqların insan hüquqlarının fəal müdafiəsi sahəsində əməli tədbirlər görsünlər. Azərbaycan qadın nümayəndələri həmçinin Konfransın ünvanına üzərində konfransın simvolu olan bayraq təqdim etmişdilər. Bayrağın üzərində "Öz doğma evimə qaytarın məni" çağırışı ilə minlərlə qaçqın qadının imzası var idi. Bunların müqabilində PFP "Girov götürmə"(116-cı maddə)

zorakılıq forması kimi daxil edildi.

Yüz minləri əhatə edən qaçqınlıq və məcburi köçkünlük halı iqtisadi keçid dövrünü yaşayan gənc, müstəqil respublikamızın vəziyyətinə kəskin surətdə mənfi təsir edir. Respublikanın müxtəlif rayonlarında, çadır düşərgələri və yataqxanalarda müvəqqəti olaraq yerləşdirilmiş bu insanlar ağlasığmaz məşəqqət, çətinliklərə düçar olmuş, adi insan üçün normal olan tələbatlardan məhrum vəziyyətdə yaşayırlar. Hərbi müdaxilə zamanı 100-dək uşaq, 442 qadın, 370 qoca əsir götürülmüşdü ki, sonradan Azərbaycan Respublikasının hərbi əsirlər, girovlar və itkin düşmüşlər üzrə Dövlət Komissiyasının gücü və tələbi ilə 30 uşaq, 92 qadın və 115 qocanı azad etmək mümkün olmuşdur. Müharibənin depressiv əlamətlərini yaşayan minlərlə insan əsəb və ruhi xəstəlikdən əzab çəkir. Son zamanlar dünya mətbuatında qadağan olunmuş insan alveri məsələsindən bəhs edən yazılarda Ermənistanın da adı xüsusilə tez-tez hallandırılır. Güman etmək olar ki, hərbi münaqişə dövründə itkin düşmüş Azərbaycan vətəndaşlarından bu qorxulu biznesdə transplantasiya üçün əmtəə kimi istifadə edilir. Respublika Hərbi Əsirlər, Girov və İtkin Düşənlər üzrə Dövlət Komissiyasının məlumatına görə, Qarabağ münaqişəsi nəticəsində 4928 nəfər itkin düşmüşdür. Onların 56-sı uşaq, 327-si qadın, 364-ü yaşlıdır. 1988-ci ildən bəri əsirlikdən azad edilənlər 1330 nəfərdir və qeyd etməliyik ki, onların hamısı kişilərdir. PFP-in "Qadınlar və hərbi münaqişələr"ə həsr olunmuş 131-149-cu maddələri bu işdə müəyyən rol oynamışdır. 1998-ci il mayın 18-dən 20-dək Bakıda "Qadın hüquqları-İnsan hüquqlarıdır. Qadınlar və hərbi münaqişə" mövzusunda Beynəlxalq Konfrans keçirilmişdir. Konfransı BMT İP, YUNİFEM, UNHCR və Azərbaycan hökuməti birgə təşkil etmişdilər.Tədbirə dünyanın 13 ölkəsindən çoxlu nümayəndələr dəvət olun-

muşdu. Qarabağ münaqişəsinin əsas tərəflərindən biri olan Ermənistan Respublikasının nümayəndələri də iştirakçılar arasında idi. Konfrans iştirakçıları PFP üç prinsipinin nəzərdən keçirilməsinin vacibliyi haqda razılığa gəlmişdilər: - dinc quruculuqda və hərbi münaqişələrin həll olunmasında qadınların rolu; - qadınlara qarşı zorakılıq; - qadınların hüquqları insan hüquqları kimi, o cümlədən qaçqınların və məcburi köçkünlərin doğma yurd-yuvalarına qaytarılması və həlli uzun müddət tələb edən digər məsələlər. Bu məsələlər, konfrans iştirakçıları olan 13 ölkədə yaranmış vəziyyətlə əlaqədar olaraq, müvafiq və aktual hesab edilmişdir. İştirakçılar bu məsələləri öz milli hökumətlərinin və ictimayətlərinin nəzərlərinə çatıracaqlarına söz vermişlər. İştirakçılar həmçinin BMT-nin köməyi ilə subregional və regional əlaqə sisteminin yaradılması məsələsində konsensusa nail olmuşlar. Subregional konfransın məqsədləri: - ailədə, cəmiyyətdə, milli və beynəlxalq səviyyədə qadınlara qarşı zorakılığın qarşısının alınması və ləğv edilməsi işində əldə olunmuş effektif təcrübə mübadiləsi; - əməkdaşlıq məqsədi ilə və regional dialoqların aparılması üçün forumun yaradılması; - gələcək fəaliyyətdə konsensusa nail olunması.

Bakı Bəyannaməsinin yekun nəticəsi strategiya və mexanizmi müəyyən edən konkret fəaliyyət proqramı oldu. Bu sənədlər milli və regional səviyyələrdə hazırlanmışdı. BMT "Zorakılıqla mübarizə və sabit sülh quruculuğu üçün qadınların rolunun gücləndirilməsi üzrə əməkdaşlıq sistemi" adlı uzunmüddətli proqramın həyata keçirilməsinə kömək göstərəcəyinə razılıq verdi. Göstərilən əməkdaşlıq proqramının məqsədləri bunlardır: - Hərbi konfliktlərin qarşısının alınmasında və regionda sülhün bərqərar olması prosesində qadınların rolunun möhkəmləndirilməsi; - Qadınlara qarşı zorakılığın qarşısının alınması və ləğv olun-

ması üçün tədbirlərin hazırlanması; - Qadınların, o cümlədən qaçqınların və məcburi köçkünlərin hüquqlarının qorunması.

Bakı konfransında girovlar haqda da məsələ qaldırılmış, 330-dək qadının və 60-dək uşağın taleyi diqqət mərkəzində olmuşdur. "Azərbaycan qadınlarının Bakı Assosasiyası" qeyri-dövlət təşkilatı BMT-nin İnsan hüquqları üzrə Ali Kommisarlığının Cenevrə ofisində bu məsələ ilə əlaqədar olaraq çıxış edmişdir. Qeyd olunan problemlə əlaqədar olaraq münaqişə dövrü ərzində qaçqınların və məcburi köçkünlərin məsələləri ilə bağlı 100-dən çox hüquqi sənəd qəbul edilmişdir.

1994-cü ilin mayında atəşkəs elan olunmuşdur. Sülh müqaviləsinə dəfələrlə cəhd edilsə hələ də konkret nəticə yoxdur. Münaqişə tərəflərinin, beynəlxalq təşkilatların da müdaxiləsi olmaqla, həm dövlət, həm də qeyri dövlət strukturları səviyyəsində keçirtdikləri saysız görüşlərdə hələ ki, heç bir irəliləyişə nail olunmamışdır. Torpaqların işğalı ilə bütün insani hüquqları pozulmuş əhalinin əsas həssas qrupu olan qadınların münaqişədə zorlanma, cinsi təzyiq, məcburi hamiləlik, döymə, təhqir etmə hallarını xüsusi qeyd etməliyik. Məhz PFP-nın 116-cı maddəsi bu kimi hallara qarşı çıxış edir. 1995-ci ildə BMT-nin 39-cu sessiyasında BMT Baş Katibinin üzərinə qoyulan qadınların azad edilməsi məsələsini Pekin Konfransında öhdəlik kimi üzərinə götürən Qətnamə hələ də icra olunmamışdır və Post-Pekin dövründə onun müddəti dörd dəfə uzadılmışdır (40, 41, 42, 43, 44-cü sessiyalarda). 1998-ci ildə respublika Nazirlər Kabinetinin qaçqınlar, məcburi köçkünlər və əhalinin miqrasiya şöbəsi tərəfindən respublikanın bütün rayonlarını əhatə edən xüsusi sorğu keçirilmişdir. Bu sorğu nəticəsində qaçqın və məcburi köçkün qadınların təhsili, məşğulluğu, sağlamlığı və yaş göstəriciləri təhlil olunmuş-

dur. Bu məlumatlara görə qaçqın və məcburi köçkün qadınların məşğulluğu müxtəlif rayonlar üzrə müxtəlif şəkildə paylanmaqla 30% olmuşdur və onların arasında kənd yerləri çoxluq təşkil edir. Bu qadınların 16,4%-i müəllim, 12,35-i tibb işçisi, 7,6%-i mədəniyyət işçisi, 41,1%-i kənd təsərrüfat işçiləri, 15,6%-i isə digərləridir. Ümumilikdə götürdükdə isə qaçqın və məcburi köçkünlərin 419171 nə fəri qadındır ki, bunun da 120265 nəfəri 28,7%-i qaçqın, 298906 nəfəri 71,3%-i köçkündür .

1998-ci ildə qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə dövlət proqramı qəbul edilmişdir. Bu proqramdan irəli gələn vəzifələri yerinə yetirmək beynəlxalq humanitar təşkilatların, dünya dövlətlərinin köməyi və iştirakı olmadan həyata keçirmək mümkün deyildir. Beynəlxalq qurumların qaçqın və məcburi köçkün ailələrinə, o cümlədən, ilk növbədə - tənha və ailə başçısı olan qadınlara, yardım və kömək sahəsində respublikada geniş fəaliyyət göstərilir. Qaçqın və məcburi köçkün qadınların milli tərkibi belədir: 399058 azərbaycanlı, 375 rus, 1902 kürd, 17677 türk, 159 nəfər isə digər millətlərin nümayəndəsi. Qaçqın və məcburi köçkün qadınların 15878-i ali, 19384-ü orta ixtisas, 85123-ü orta, 45397-i natamam orta, 75065-i ibtidai, 58059 nəfəri isə başqa təhsilə malikdir. Statistika da göstərir ki, onların inkişaf potensialı yüksəkdir.

Yaş tərkibinə görə: 6 yaşına qədər 40597 nəfər; 7-17 yaş arası 73632 nəfər; 18-49 yaş arası 121619 nəfər; 50 və ondan yuxarı 63060 nəfərdir. Ailə tərkibinə görə: 29484-ü çoxuşaqlı ana; 4253-ü şəhid anası; 16948-i ailə başçısı olan qadın; 3595-i tənha qadın; 114229-u qız uşağıdır.

Rəqəmlər aydın göstərir ki, hərbi münaqişə nəticəsində zorakılığa məruz qalma bu qadınların şəxsi həyat tərzini də köklü dəyişmişdir., Pekin Platformasının 210-233-ci maddələrində qeyd olunan "Qadınların insan hüquqları"

müddəasında olan əsas hüquqlardan - yaşayış yerindən, iş yerlərindən, təhsil almaqdan, dinc ailə münasibəti qurmaqdan, ən əsası insan kimi inkişafdan məhrum etmişdir. Əhalinin bu hissəsinin daha çox qayğı və müdafiəyə ehtiyajı vardır. Bu qadınların ümumi sayının böyük hissəsi özü ailə başçısı olan, tənha, kimsəsiz şəxslərdir.

Reallıq göstərir ki, qaçqın və məcburi köçkün qadınların böyük bir hissəsi yoxsulluq və işsizliklə mübarizə apararaq normal həyat tərzini, çətinliklə də olsa yaşamaq uğrunda mübarizədə öz əsil peşəsini, sənətini, savadını, qadına uyğun qabiliyyətini itirmiş xəstə, cavan ikən qocalmış, gücsüz və ağır psixoloji gərginlik vəziyyətindədir. Onların içərisində olan gənc qızlar isə xüsusən firavan həyat tərzindən məhrum olub, sosial bəlalar, məhrumiyyətlərlə üzləşir və PFP-nın 259-285-ci maddələrində göstərilən "Qız uşaqları"nın vəzifə və hüquqlarından məhrumdurlar. Onların əksəriyyətinin təhsilə, tibbi xidmətə, qidaya, geyimə və informasiyaya ehtiyajı vardır.

Lakin buradaca qeyd edək ki, bu qadın və qızlar dövlətin sülh məramlı gedişlərinə böyük ümidlə yanaşaraq, öz doğma torpaqlarına qayıdacaqları günü gözləyirlər.

**<u>Qadınlara qarşı zorakılıq.</u>** Pekin Bəyannaməsinin 113-cü bəndində deyilir: "Qadınlara qarşı zorakılıq termini qadının fiziki, cinsi və psixoloji sağlamlığına ziyan, əzab-əziyyət gətirən cinsi əlamət əsasında hər cür zorakılıq aktı deməkdir".

Bu həqiqətdir ki, tarixən Azərbaycanda mənəvi, adətlərə görə qadın xüsusi hörmət sahibi olmuş, ailənin namusu hesab edilmişdir. Qadın, o cümlədən də, əsasən qızlar xüsusi olaraq kişi cinsi tərəfindən himayə olunub qorunmuşdur. Təbii ki, nəinki cəmiyyətdə, həm də ailədə müəyyən zorakılıq nümunələrinə daima rast gəlinmişdir. Son illərin dəyişiklikləri ailə-cəmiyyət zəminində bütün

cinsləri obyektiv və subyektiv səbəblər üzündən zorakılığa məruz qoymuşdur. Respublikanın müstəqillik qazandıqdan sonra üzləşdiyi çoxsaylı problemlərin təzahürü daha çox ağırlığı qadınların çiyninə qoymuşdur. Müharibədə çoxlu sayda kişi itkisi, ölümü kütləvi surətdə zorakılıq əlaməti yaratmış, insan bir insan olaraq bütün həyat vasitələrindən məhrum olunmuş, tarixi adət-ənənələrə söykənən vərdişlər zərif qadını bərkitmiş, belə deyək ki, "kişiləşdirmiş" dir. Ən yaxını və yaxud tanımadığı fərd tərəfindən haradasa və kimlərinsə vasitəsilə törətdikləri təhlükə, qorxu və ya zorakılıq halları qadının normal inkişafında ən böyük maniədir.

Azərbaycanda keçirilən sosioloji sorğular təzahür edən zorakılığın müxtəlif formalarını aşkarladı. Onlara: müharibə nəticəsində baş verən kütləvi zorakılıq; ailə-məişət zəminində ailə zorakılığı; iş yerində zorakılıq; fiziki mənəvi və cinsi mənəvi zorakılıqlar aiddir. Ailə-məişət zəminində olan zorakılıq faktları, milli adətlərdən irəli gəlir, ənənəvi olaraq heç də statistikada daim dəqiq əksini tapmır. Ailə daxili problemlərin açıqlanması çox nadir hallarda aşkarlanır. Ailədə kişi cinsi (ata-qardaş-ər-oğul) tərəfindən fiziki zorakılığın səviyyəsi 26,1% təşkil edir. Qadınlar ən çox mənəvi zorakılığa məruz qalırlar - 61,3%.

Əlbəttə, XX əsrin əvvəllərində bu nəticələr tərsinə idi. Son illər ərzində ictimai-siyasi mühitin dəyişməsi digər təzyiq formalarını da yaratdı. Şəhid vermək, ailəyə başçılıq etmək, tənha qalmaq qadını iqtisadi çətinliklərlə üzbəüz qoydu. Digər tərəfdən, bürokrat məmurların "sənin şəhidini mənmi öldürmüşəm" tipli soyuqqanlı münasibəti də qadının mənəviyyatını "zorladı".

Daxili İşlər Nazirliyinin 2000-ci ilə olan məlumatına görə qadınlara qarşı 1062 cinayət hadisəsi qeydə alınmışdır. Bunlardan 46-ı zorlama və onlara sui-qəsd cəhdi; 31-i

qəsdən adam öldürmə və qəsd; 20-i sağlamlığa ağır zərbə vurma; 83-ü az ağır zərbə vurma; 18-i soyğunçuluq; 13-ü dələduzluq; 69-u xuliqanlıq və s-dir. 1180 nəfər qadın cinayət məsuliyyətinə cəlb olunub. Onlardan 15-i qəsdən adam öldürmə və ona sui-qəsd; 89-u şəxsi və dövlət əmlakını oğurlama; 91-i dələ-duzluq; 122-i xuliqanlıq; 186-ı narkotik vasitələr saxlanması, yayılması və s-dir.

Türkiyədə və Birlləşmiş Ərəb Əmrliklərində 43 qadın fahişəliyə, 3 nəfər isə narkotik maddələr yaydığına görə həbs edilmişdi. O cümlədən, bir neçə gecə barlarında yoluxucu xəstəlik daşıyan 32 qadın müəyyən edilmiş və xəstəxanaya göndərilmişdi. Bakı şəhərində isə ümumilikdə 433 qadın müalicə üçün xəstəxanaya göndərilmiş və onlardan 400 nəfərinin müxtəlif növ dəri-zöhrəvi xəstəliklərinə yoluxması müəyyən edilmişdi.

Qadın Əmək İslah Koloniyasında qadınlar arasında keçirilən sorğuya əsasən onları cinayətə sürükləyən səbəblər belə açıqlanır: "bir tikə çörək ucundan" narkotik maddə satışına cəlb olunub; müəyyən təzyiq altında cinayətkar qrupa qoşulub; xırda xuliqanlığa görə; ailə-məişət zəminindəki problemlərlə əlaqədar.

Məlumdur ki, fahişəlik qadının öz şəxsi işi sayılır və qanunla təqib edilmir. Lakin fahişəxana saxlamaq, qız və qadınları müəyyən vasitələrlə ələ alıb vasitəçilik etmək cinayət hesab olunur və Azərbaycan Respublikası CM-nin 299-cu maddəsi ilə cəzalandırılır. Azyaşlıları fahişəliyə cəlb etmə CM-nin 215-ci, 16 yaşınadək şəxslə cinsi əlaqədə olma 111-ci maddələrilə cəzalandırılır. 2 və ya daha çox arvad saxlamaq CM-nin 130-cu, qadını zorla qaçırma 129-cu, qorxutma və zorla məcburi nigaha sövq etmə 128-ci maddələri ilə tənzim olunur. 1996-cı ilin mayında Azərbaycan da "İnsanlarla ticarət və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında" Konvensiya-

ya qoşulmuşdur. İnsana-qadına fiziki təzyiq onun psixi aləminə, dünya görüşünə yəqin ki, öz təsirini göstərir. Qadın və kişi mənəvi zənginliyi, əxlaqi saflığı, fiziki kamilliyi özündə birləşdirməli və inkişaf etdirməlidirlər.

Ermənistanla münaqişə nəticəsində qız və qadınlara qarşı ən ağrılı təcavüzlər edilmişdir. Azyaşlı qızların valideynlərinin gözü qarşısında zorlanması, uşaqların öldürülməsi, südəmər körpəli anaların döşlərinin kəsilməsi, qadınların kürəklərinə qaynar samovarlar bağlanması faktları bəşəriyyətdə görünməmiş zorakılıq aktlarıdır. Düşmən əlinə əsir düşməmək naminə intihar hökmu seçən, qayalardan özünü atan qız-qadının haqqının zorlanması faktları reallıqdır. Bu gün əsirlikdə girov olan 300-dən çox qadının ən ağır işgəncələrlə ləyaqət və şərəfinin tapdalanması, zorla doğuzdurulması ən qatı zorakılıqdır. Bu isə PFP-nın "bərabərlik, sülh və inkişaf yolunda" (112-ci maddə) çağırışına tamamilə ziddir.

Azərbaycan insan hüquqlarına aid 20-dək beynəlxalq Konvensiyaya imza atmışdır. 1995-2001-ci illər ərzində verilən amnistiyaya görə minlərlə əhv olunanların arasında qadınlar da vardır. Hər insana həyatının ilk anından verilən hüquqlar onun insan hüquqları və əsas azadlıqlarıdır, onların qorunması və həyata keçirilməsi üçün şərait yaratmaq hökumətlərin vəzifəsidir (PFP, 210-cu maddə).

Qadın və yoxsulluq. İnsan həyatı çox şaxəli, müxtəlif istiqamətlidir, insanın yoxsulluğu da belədir. Pekin Platformasının A fəslinin, 47-68-ci maddələri "Qadın və yoxsulluq" adlanır. İnsan yoxsulluğu indeksinin təhlilinə əsasən, belə nəticə alınır ki, əhalinin bir hissəsi yoxsulluğun ağır təzahürləri ilə üzbəüz qalmışdır. İnsanın kifayət qədər qida almaması, müxtəlif xəstəliklərə qarşı tibbi müdaxiləyə ehtiyacı, əsasən də əhalinin qaçqın və məcburi köçkün təbəqəsinin çadır həyatı, adamların vaxtından qabaq ağır

xəstəlik tapmağı və bir çox hallarda ölümli ilə nəticələnir.

Azərbaycanda İnsan İnkişafı Haqqında 2000-ci il hesabatında ekspertlərin fikrinə görə əhalinin 70%-i yoxsulluq həddindən aşağı yaşayır. Yoxsulluğun meydana gəlməsi səbəbləri:

- bir sistemdən digər sistemə keçid; - yeni bazar iqtisadiyyatı; - hərbi münaqişə və əhalinin bir hissəsinin qaçqın, köçkün vəziyyəti; - işsizlik, iqtisadi əlaqələrin dağılması; - sosial müdafiə sisteminin zəifliyi.

Bu illər ərzində neft sənayesi inkişafına böyük sərmayələr qoyuluşu artsa da insanların yoxsulluq səviyyəsi eynilə qalmaqdadır. Beynəlxalq Bankın təşkilatçılığı ilə respublikada "Yoxsulluğun azaldılması haqqında" Dövlət proqramı hazırlanmışdır. Respublikanın bütün əsas iqtisadi və sosial sektorlarındakı işçi qruplar öz təklif və yardımları ilə bu Proqramda iştirak edirlər. Yoxsulluğu aradan qaldırmağın ən mühüm göstəricisi məşğulluq sahələrinin artırılması, işsizliyin aradan qaldırılması məsələsidir. 2001-ci ilin rəsmi statistikasına görə ölkədə 4694400 nəfər insan əmək qabiliyyətli idi. Aşağıda verilmiş cədvəldə həmin ildə respublikada məşğulluq və işsizliyin göstəriciləri ilə tanış olaq:

| Hesablama | Min nəfərlə | | Faizlə | |
|---|---|---|---|---|
| Cinsi bölgü | **Qadınlar** | **Kişilər** | **Qadınlar** | **Kişilər** |
| Məşğul əhali | **1770** | **1945** | **48** | **52** |
| Qeydiyyata alınan işsizlər | **26** | **22** | **54** | **46** |
| İqtisadi fəal əhali | **1796** | **1967** | **48** | **52** |
| İşsizliyin səviyyəsi | **1,5** | **1,1** | | |

Diqqətə çatdıraq ki, işsizlik səviyyəsi yalnız, iş almaq üçün məşğulluq idarələrinə rəsmi müraciət etmiş şəxslərin sayı ilə verilmişdir. Bir çox zavod və fabriklərin, iqti-

sadi strukturların dəyişməsi, müvəqqəti işləməməsi nəticəsində həmin müəssisələrin işsiz qalmış işçiləri, işsizliyə görə müavinət almayanlar, qaçqınlıq və məcburi köçkünlük nəticəsində adı siyahıya düşməyənlər bu statistik məlumatlarda qeydiyyatda yoxdurlar.

Respublikada 1999-cu ildə qəbul edilmiş yeni "Əmək Məcəlləsinə" əsasən əslində əmək və məşğulluq haqqında "cinsi" əlamətə görə ayrı-seçkiliyə yol verilməməlidir. Əmək haqqı səviyyəsinin yaşayış tələbatını tam təmin etməməsi, yeni açılmış özəl sektorlarda daha çox gənc qızlara, əsasən isə kişi işçi qüvvəsinə üstünlük verilməsi, əyalətlərdə - kənddə iş yerlərinin azlığı, müstəqil qadın fermer və biznesmenlərin az olması, kredit və ssuda götürmə sahələrində qadınlara qarşı ayrı-seçkilik halları da mövcuddur.

Göstərilən neqativ halların getdikcə dövlətin "Yoxsulluğun azaldılması Proqramı"nda da öz əksini tapması sabaha optimist yanaşma doğurur. PFP-nın bu sahədə məqbul saydığı prioritetlər tədricən dəstək tələb edən tələbatlar kimi dövlət və qeyri dövlət strukturları tərəfindən, o cümlədən beynəlxalq təşkilatların köməyi ilə düzəlməyə doğru yönəlmişdir. Respublikada qəbul edilən qanun və qərarlardan əsas məqsəd qadınların əmək prosesinə daha fəal daxil olmasıdır. Bunun üçün davamlı əmək rejiminin tətbiqi, evdar qadınlar (bura əlil və qocaları da aid etmək olar) üçün müəyyən ödənişli ev təsərrüfatında zəhmət üsulunun yaradılması (bişirmə, tikmə və s.), məişət tipli yeni iş yerlərinin açılması, müasir peşələrin öyrədilməsi üçün pulsuz kurslar açılması kimi hallar prioritet götürülür. Yoxsulluq probleminin müəyyən qədər aradan galdırılması üçün beynəlxalq təşkilatların köməyinə ehtiyac vardır. Respublikanın qoşulduğu 47 Beynəlxalq Sazişdən 13-ü qadınların əmək və məşğulluğu problemlərinə aiddir.

**Qadınların qanunvericilik orqanlarının işində və qərar qəbul olunması prosesində iştirakı.** Siyasi qərarların qəbulunda mövcud olan bərabərlik prinsipləri elə bir qüvvədir ki, onsuz dövlət siyasətinin formalaşmasında real bərabərliyin əldə edilməsi mümkün deyildir ( PFR, 181-ci maddə). Önəmli faktdır ki, Azərbaycanın müstəqillik aktını 1991-ci ildə o dövr Ali Sovetin sədri vəzifəsini daşıyan - qadın ( Elmira Qafarova ) imzalamışdır. Azərbaycanda qanunvericilik sahəsində qadınların təmsil olunma səviyyəsi belə idi:

| *İllər* | Sayı | | Faizlə | |
|---|---|---|---|---|
| | Qadınlar | Kişilər | Qadınlar | Kişilər |
| **1985** | 179 | 271 | 40 | 60 |
| **1990** | 15 | 335 | 4 | 96 |
| **1995** | 15 | 109 | 12 | 88 |
| **2000** | 13 | 111 | 11 | 89 |

Sovet dövrünün süni bərabər hüquqluğa əsaslanan planlaşdırma siyasəti nəticəsində parlamentdə qadınlar 40%-lə təmsil olunurdusa, bu gün Milli Məclisdə 13 qadın təmsil olunur (10,6%). Milli Məclisin sədrinin müavinlərindən biri və parlamentdə fəaliyyət göstərən 11 komissiyadan 1-nin sədri və 2-nin sədr müavini qadındır. Mərkəzi Seçki Komissiyası sədrinin I müavini qadındır.

2001-ci ilin yanvarından Azərbaycan Avropa Şurasının üzvüdür. Respublikanı Avropa Parlamenti nümayəndələri tərkibində 2 nəfər qadın millət vəkili təmsil edir. Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini M.Ömərova 2001-ci ildə Avropa Şurasının Kişilər və Qadınlar Arasında Bərabərlik Komissiyasının Büro üzvü seçilmişdir. Eyni zamanda, 2001-ci ilin dekabırında Azərbaycanda "Ombudsman" (xalq müvəkkili) haqqında qanun qəbul olunmuş və E.Süleymanova respublikanın ilk

Ombudsmanı seçilmişdir.

İcra Hakimiyyəti aparatlarında qadın məsələsi ilə məşğul olan şöbələrin yaradılması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 aprel 2000-ci il tarixli xüsusi qərarı mühüm əhəmiyyətə malikdir.

1999-cu ildə keçirilən bələdiyyə seçkilərində 486 qadın bələdiyyə üzvü seçilmişdir. Respublikada rayon icra başçısının cəmi 3-ü ( 3,6%-i ) və 22 rayon icra başçısının müavini qadınlardır. Rayon İcra Hakimiyyətində işləyən 577 şöbə müdirindən 55 nəfəri, yəni 9,5%-i qadındır.

Təhsil və səhiyyə sistemində çalışanların əksəriyyətini qadınlar təşkil etsə də, 82 təhsil şöbə müdirindən yalnız 7-si (8,5%), 4028 orta məktəb direktorundan isə 669-u (18,9%) qadındır. Təhsil Nazirinin müavinlərindən biri də qadhındır. Respublikada fəaliyyət göstərən 82 səhiyyə şöbəsinin yalnız 8-nə (10%) qadın rəhbərlik edir. Səhiyyə sahəsində yüksək vəzifələrdə çalışan 88 nəfərin 5-i qadındır. Azərbaycan Respublikası Dövlət Test-İmtahan Komissiyasının sədri də qadındır.

Məhkəmə hakimiyyəti orqanları rəhbərlərinin 2-si qadın, 3-ü kişidir, o cümlədən bu sahədə işləyənlərin 15%-ni qadınlar təşkil edir. Son dövrlər artıq qadın polislər də formalaşmışdır. Ümumilikdə nazirliklərdə 6,2%, idarəçilikdə 30% qadın təmsil olunur.

Xarici İşlər Nazirliyi sistemində səfirlərin arasında qadınların sayı 10%, ümumilikdə diplomatik korpusda isə 11%-ə yaxın təşkil edir.

**Təhsil və qadınların peşə hazırlığı.** Azərbaycanın təhsil sistemi tarixən humanist mahiyyətdə, maarifçilik ənənələrinə və bəşəri dəyərlərə sadiq olmuşdur. Təhsilin inkişafında qadınların xüsusi yeri vardır. Pekin Platformasının 69-88-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikasının təhsil sistemində plan,

proqram, peşə hazırlığı və işlə təminin həyata keçirilməsində qadınların iştirakına qanuni imkan yaranmışdır.

1992-ci ildə, müstəqilliyin ilk ilindən qəbul edilmiş "Təhsil haqqında Qanun"a və 1995-ci ildə qəbul olunmuş Konstitusiyaya əsasən, cinsindən asılı olmayaraq bütün uşaqlara 6 yaşından etibarən 11 illik icbari təhsilalma hüququ verilir. Təhsil Qanununun yeni islahatlarla bağlı dəyişiliklər edilmiş layihəsi hazırlanmışdır. İcbari təhsil pulsuzdur. Dövlət tədris müəssisələrində pulsuz təhsillə yanaşı, pullu təhsil də nəzərdə tutulur. Özəl təhsil sahələrində isə təhsil haqqı ödənişlidir.

Təhsil sistemində islahatlar aparılması üçün 1998-ci ildə yaradılan Dövlət Komissiyasının rəyi göstərir ki, icbari təhsil sistemində gender tarazlığı pozulmamışdır. Təbii ki, maddi vəziyyətin mənfi təzahürlərinin göstərdiyi hallar mövcuddur. Bu hal hər iki cinsdən olan uşaqların təhsil almasına çətinlik yaradır. Belə ki, kitab almağa, geyimə vəsait olmadığı üçün bir çox valideyn uşağını təhsillə təmin edə bilmir.

Keçmiş Sovetlər İttifaqında qadınların məşğul olduğu bir sahə də məktəbəqədər tərbiyə ocaqları idi. Bu tipli iş yeri qadına ikitərəfli sərf edirdi: o həm uşağını bu tərbiyə müəssisəsinə verir, həm də özünün işlə təminatı ödənilirdi. Bu tipli tərbiyə sistemi - körpələr evi, uşaq baxçaları və s. iqtisadi strukturun yeniləşməsi ilə öz formasını dəyişdi. Belə tərbiyə ocaqları ya müəssisələrin daxilində, ya da sərbəst formada, yəni ödənişli olaraq yaradıldı. Köhnə sistemin dağılması nəticəsində minlərlə qadın işsiz qaldı. Bu hallar texniki peşə məktəbləri üçün də xarakterikdir. Respublikada ödənişli kollec, gimnaziya və litseylər fəaliyyət göstərir. Belə vəziyyət alternativ təhsil sistemində güclü rəqabət yaratsa da, digər cəhətdən, az təminatlı ailələrin uşaqlarının yaxşı təhsil almasında

məhdudiyyətlər yaradır.

1998-ci ilin əvvəlində qadınların təhsil səviyyəsi belə idi: 24% ali; 33,7% orta ixtisas; 33,9% ümumi orta təhsillilər idi, ümumi orta təhsili olmayanlar 8,4% təşkil edirdi. 1999-cu il siyahıyaalmasının nəticəsinə görə 15 yaşdan yuxarı əhalinin savadlılıq səviyyəsi qadınlar arasında 98%, kişilər üçün isə 100%-dir. 2000-2001-ci tədris ilinin əvvəlinə dövlət orta ixtisas məktəbləri şagirdlərinin tədris müəssisələrinin sahə ixtisaslaşması üzrə bölgüsünə görə 28400 qadın cinsi və 12800 kişi cinsi təşkil edir və yaxud 69% qadın, 31% kişidir.

Rəqəmlər də göstərir ki, Azərbaycan qadınının ümumi təhsil səviyyəsi yüksəkdir. Lakin müharibə faktoru, onun nəticələri respublikada təhsilin səviyyəsinə də mənfi təsir göstərmişdir. Azərbaycanın işğal olunmuş ərazilərində 12000 yerlik 242 uşaq bağçası və körpələr evi; 117000 şagirdin təhsil aldığı 616 ümumtəhsil məktəbi, 21000 yerlik 4 kollec, 34 məktəbdənkənar müəssisə və ali məktəblərin filialları itirilmişdir. 20000-dən çox müəllim, o cümlədən, qadın müəllimə qaçqındır. Beynəlxalq humanitar təşkilatların köməyi ilə çadır düşərgələrində, yığma evlərdə müvəqqəti məktəblər yaradılmış, qismən də olsa çətinlik dəf olunmuşsa da, təhsil prosesi tam həll edilməmişdir. YUNİSEF-in dəstəyi ilə çadırda məskunlaşmış 3-6 yaşlı uşaqlar üçün yarı funksional mərkəzlər açılmışdır, eyni zamanda, onlara psixoloji kömək göstərilir.

Dövlət Statistika Komitəsinin 1998-ci il məlumatına görə təhsil sahəsində çalışan qadın və kişilərin nisbəti 66,9% və 33,1% təşkil etsə də, göstərdiyimiz kimi, inzibati idarəetmə sahəsində əksinə, yenə kişilər üstünlük təşkil edir. Rəhbərlik səviyyəsində təhsildə kişilər 6/1 nisbəti kimi üstünlük əldə etmişdir. Ali məktəblərə qəbul hər 10000 nəfərə 148 tələbədən (1990) 112 tələbəyə (1999) enmişdi.

Tələbələrin təxminən 41%-ni qadınlar, 59%-ni isə kişilər təşkil edir.

Alim qadınların da vəziyyəti keçid dövründə mürəkkəbləşmişdir. 1998-ci ilin məlumatına əsasən elmi-tədqiqat sahəsində məşğul olanların 40,8%-i qadın, 59,2%-i kişi idi. 2000-ci ilin axırına elm sahələri üzrə aspirantların 35%-i qadın, elmlər namizədlərinin 44%-i qadın, 56%-i kişi, elmlər doktorlarının 7%-i qadındır. Elmə ayrılan xərclərin azaldılması həm kişilərin, həm də qadınların bu sahədən uzaqlaşmasına gətirib çıxarır. Bu sahənin yüksək intelektual potensiala və təhsilə malik olan insanları öz həyatı tələbatlarını, aldıqları əmək haqqı müqabilində, bazar iqtisadiyyatına uyğunlaşdıra bilmirlər. Hökumətin bu sahəyə ayırdığı maliyyə vəsaiti islahatlar aparmağa, yeni elmi mərkəzlər yaratmağa imkan vermir. Dövlət tərəfindən maliyyələşən elmi tədqiqatlar, o cümlədən gender, qadın məsələsi və qadın problemlərinin də araşdırılması prioritet sahələrə daxildir. Respublikada gender assimetriyasının tədqiqi ilə əlaqədar Qadın Problemləri üzrə Dövlət Komitəsində Elmi Araşdırma Mərkəzi yaradılmasına zəruri ehtiyac vardır. Təhsilin bütün pillələrində uyğun təhsilalma imkanlarına yol açılması da vacib amillərdəndir.

**Qadın və səhiyyə.** İnsanların sağlamlığının qorunması ətraf mühitin mühafizəsi, işlə təmin olunması, tərbiyə və təhsil alması, qida ilə təmin olunması, ona tibbi və sosial yardım göstərilməsi ilə şərtlənir. Məlum sovet dövrünün səhiyyə sisteminin dağılması, müalicə-profilaktika sahələrinin lazımi avadanlıq, dərman preparatları, müasir texnika və ehtiyatlarla təchiz olunmaması və müharibə amili də öz təsirini göstərir. Beləliklə, səhiyyənin real vəziyyətini görürük. 2001-ci ilin son məlumatlarına görə ölkədə 16400 qadın, 10600 kişi həkim vardır, yəni 61%-i qadın,

39%-i kişi. Statistika göstərir ki, səhiyyə sistemi qadınların peşə kimi seçdiyi əsas sahələrdən biridir.

Ölkədəki iqtisadi və sosial dəyişikliklər, həmçinin müharibə amili qadınların səhhətinə, əsəb sisteminə əsaslı mənfi təsir göstərmişdir. Təsadüfi deyildir ki, 2000-ci il məlumatına görə 2430 nəfər qadında XX əsrin bəlası hesab olunan bədxassəli şiş xəstəliyi qeydə alınmışdı. Bu da həmin xəstəliyə düçar olmuş insanların 51%-ni təşkil edir.

1995-ci ildən ölkədə başlanan özəlləşmə prosesi tibbi xidməti də əhatə etdi. Ödənişli müalicə, tibbi xidmət yoxsulluq vəziyyətində olan əhali üçün heç də münasib deyildi. Onlar imkansızlıq ucbatından yaxşı qidalanmadıqlarından, xəstəliyə tutulduqları ilk anlardan bu xəstəliyə qeyri-ciddi yanaşır, müalicə etdirə bilmir, sonra da ağır fəsadlarla üzləşirdilər və bir-çox hallarda bu, ölümlə nəticələnirdi.

Respublikada qadınlar tərəfindən kontraseptiv üsullardan çox az istifadə olunduğu üçün, hamiləliyin qarşısı adətən ya abortla, ya da bəzi hallarda türkəçarə vasitələrlə alınırdı. 2000-ci ildə 17500-ə qədər abort halı qeyd olunmuşdu. Doğuş zamanı ana və uşaq ölümünün vəziyyəti belədir: 1995-ci ildə ana ölümü 37 nəfər idisə, 1996-cı ildə - 44; 1997-ci ildə - 31; 1998-ci ildə - 41; 1999-cu ildə - 43; 2000-ci ildə 38 nəfər olmuşdur. 1996-cı ilə nisbətən 2000-ci ildə 6 nəfərin azalması uğur olmasa da hər halda müəyyən irəliləyişdir. Uşaq ölümü isə 1995-ci ildə 26 nəfər; 1997-ci ildə - 21; 1998-ci ildə - 18; 1999-cu ildə - 17 və 2000-ci ildə 14 nəfər olmuşdur. Getdikcə azalan nəfərlər az da olsa yenə müsbət haldır.

Hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü (doğuşdan əvvəl 70 və doğuşdan sonra 56 təqvim günü) müddətində ödənişli məzuniyyət verilir. İki və ya daha çox uşaq doğulanda

məzuniyyət 180 təqvim günü (70+110), doğuş çətin olduqda isə 156 (70+86) təqvim günü müddətinə verilir. Anaların və uşaqların mühafizəsi üçün, habelə təhsil və yaradıcılıqla əlaqədar Azərbaycan Respublikası Konstitusiyası sosial məzuniyyətləri təsbit edir. Həkimlərə, orta tibb işçiləri və əczaçılara 30 təqvim günü məzuniyyət verilir.

İlkin uşaqlıq dövrünün insanın sonrakı inkişafında xüsusi yeri vardır. Buna görə hamiləlik və körpəlik dövrünün mühafizəsi dövlətin və səhiyyə sisteminin əsas prioritet məqsədi olmalıdır. Sovet dövründən qalmış qadın məsləhətxanaları, doğum evləri və uşaq poliklinikaları köhnəldikləri üçün təmirə ehtiyacları vardır. Əksər yerlərdə isə yenilərinin tikintisi vacib məsələlərdən biridir. Bakı şəhərində 1999-gu ildə bütün müasir avadanlıqlarla təchiz edilmiş, ödənişli ilk özəl Mamalıq və Ginekologiya Mərkəzi açılmışdır.

Əhalinin yerdəyişməsi, işsizlik, narkomaniya və əxlaqsızlıq hallarının təsiri insanların bir sıra xəstəliklərə, eləcə də QİSÇ-ə yoluxmasına səbəb olur. 2000-ci ilin məlumatına görə 270 qadın və 240 kişi siflisə yoluxmuşdu. 1999-cu ildə 7 azərbaycanlıda və 17 əcnəbidə (Bakıda işləyən və təhsil alan) QİSÇ aşkar edilmişdi. Son illər QİSÇ-ə qarşı Azərbaycan Dövlət Mərkəzində 60 nəfər azərbaycanlı və 20 nəfər əcnəbi şəxs bu xəstəliklə qeydiyyatdan keçmişdir. Onu da əlavə edək ki, bəzən anonim müalicə halları da mövcuddur. Bu da faktdır ki, Azərbaycanda tarixən belə xəstəliklərin gizlədilməsi ənənəsi və ya türkəçarə ilə müalicəsi mövcud olmuşdur.

Digər mühüm bir faktı göstərək ki, səhiyyə sistemində də qadınlar çoxluq təşkil edir və bu fərq gender tarazlığının mütənasib olmadığını göstərir. Ümumiyyətlə isə səhiyyə sahəsində də xüsusi islahatlara ehtiyac olduğu üçün buna beynəlxalq təşkilatların dəstəyi gərəkdir. Müharibə

fəsadları ilə əlaqədar olan psixoterapevtik məsləhətxanaların bütün şəhər-rayon-kənd yerlərində yaranması zərurətdir. Beynəlxalq təşkilatların köməyi nəticəsində respublikaya gətirilən dərman ləvazimatı da köməkçi vasitə kimi insan sağlamlığının qorunmasında bir vasitədir. İçməli suyun təmizlənməsi və ətraf mühitin təmizliyi də vacib amildir. Əhali arasında qadın səhətinin qorunmasının vacibliyi haqda mütəmadi olaraq televiziya verilişləri aparılması, seminarlar keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

**Qadınlar və iqtisadiyyat.** İqtisadi yüksəliş insanın, o cümlədən qadının rifah halının inkişafı üçün başlıca amildir. Azərbaycanda qadınlar və kişilər iqtisadiyyat sahəsində, qazanc əldə etmək, öz həyatı tələbatlarını ödəmək məsələsində qeyri-bərabər imkanlarla üzləşirlər. Belə ki, qeyri-rəsmi məlumatlara görə, bir milyondan çox insan işsizliyə görə respublika hüdudlarını tərk etmişdir. Bunun nəticəsində iqtisadi tənəzzül qadınlara kişilərdən daha çox zərbə vurmuş, məsuliyyət onların üzərinə yüklənmişdir. Xırda küçə ticarəti ilə məşğul olan, imkanlı ailələrdə işçi qüvvəsi kimi çalışan və dövlət büdcəsindən maliyyələşən təşkilatlarda işləyən qadınların həyat səviyyəsi qənaətbəxş deyildir.

2000-ci ildə fəaliyyət növləri üzrə muzdla işləyənlərin sayını ümumilikdə gender bölgüsü ilə götürsək 556045 nəfəri qadın və 661742 nəfəri kişi idi. Bu da paralel olaraq 46% və 54% edir. 2000-ci ildə istehsalatda sahələr üzrə zərər çəkənlərin ümumilikdə 4-ü qadın, 173-ü kişi; ölənlərin sayı isə 37 nəfər idi ki, onların da hamısı kişi olmuşdur. Qadınların daha çoxu humanitar meylli sahələrdə işləyir. Bu isə ölkədə gender disbalansı yaradır. İqtisadiyyatın bank sistemi, vergi, ağır sənaye, balıqçılıq, tikinti və s. kimi sahələrində qadınlar çox az təmsil olunurlar.

İqtisadiyyatda qadının rolunu artırmaq üçün mey-

vəçilik, baramaçılıq, tərəvəzçilik, balıqçılıq, tütünçülük, pambıqçılıq, xalçaçılıq kimi xüsusi qadın əməyi tələb olunan sahələrə diqqəti yönəltmək zəruridir.

**Qadınlar və kütləvi informasiya vasitələri (KİV).** Dünyaın bütün sivil ölkələrində olduğu kimi, Azərbaycanda da hər bir vətəndaş öz düşüncələrini şifahi və yazılı formada, siyasi və fəlsəfi konsepsiyalarla, bədii obrazlarla KİV-də çap etdirmək, eyni zamanda radio və televiziyada demək və göstərmək imkanına malikdir. Respublikada nəşr edilən qəzet və jurnalların müxbirlərinin təxminən yarıya qədərini qadınlar, o cümlədən gənc qızlar təşkil edir. Dövlət və özəl universitetlərin jurnalistika fakultələrində təhsil alan tələbələrin də əksəriyyəti qızlardır

Respublikada qadınlara həsr olunmuş "Azərbaycan qadını", "Xatun", "Qadın dünyası", "El" və "Genderşünaslıq" jurnalları, "Qadın və cəmiyyət", "Səmavi" və "Qadın dünyası" adlı qəzetlər nəşr olunub. Qadın KİV Baş redaktorlarının sayı getdikcə artır, Jurnalist Qadınlar Birliyi xüsusi qurumu qadın jurnalistləri öz ətrafında birləşdirir. Televiziya kanallarında da qadınlar üstünlük təşkil edir. Respublika mətbuatında qadın jurnalistlər nəinki ədəbi-publisistik, həmçinin siyasi, iqtisadi, beynəlxalq mövzularda təhlillərlə çıxış edir, müstəqil fikir yürüdürlər. Mətbuatda qadınların münaqişə zamanı məruz qaldığı zorakılıq halları, qaçqın və məcburi köçkün qadınların vəziyyəti, qadının cəmiyyətdə yeri, mövqeyi, qadın liderlər haqda yazılar dərc edilir. Lakin qeyd edək ki, "sarı", yəni- bulvar mətbuatında bəzən açıq-saçıqlığa, ekranlarda isə əxlaqsızlığı nümayiş etdirən filmlərə rast gəlinir. Dövlət televiziyasında "Səadət" və "Ailələr və talelər" verilişləri və özəl telekanallarda "Qadın saatı", "Eybi yox", "Bir böl iki", "Qadın dünyası", "Qadın və kişi", "Ailə üçbucağı" verilişləri cəmiyyətdə qadın problemini açıqlayırlar.

Bəzən münaqişə ocaqlarına ilk can atan da qadın jurnalistlər olur. Qarabağ konfliktinin ilk jurnalist qurbanı olmuş Salatın Əsgərova belələrindəndir. Son Əfqanıstan hadisələrində ANS özəl telekanalının qadın jurnalisti Kabildən canlı reportaj hazırlamaq üçün Əfqanıstana, "Speys" özəl telekanalının qadın jurnalisti 11 sentyabr 2001-ci il hadisələrindən sonra, hadisə haqqında daha obyektiv veriliş hazırlamaq məqsədi ilə ABŞ-a, ANS telekanalının jurnalisti isə İraq hadisələrində İraqa ezam olunmuşdular.

Gender problemini əks etdirən "Etimad telefonu" (ssenari müəllifi və rejissor R.İbrahimbəyov) cəmiyyətdə qadın-kişi münasibətlərinin real əksi, genderə həsr olunmuş ilk filmdir.

Bütün bunlarla yanaşı, qadın mövzusu yenə də KİV-də istənilən səviyyədə işıqlandırılmır. Qadınlar əksər hallarda gözəllik nümunəsi kimi reklam edilir. Cəmiyyətdə qadına münasibət məsələsinə ciddi yanaşmağa və KİV vasitəsilə bu sahədə maarifləndirmə işi aparmağa böyük ehtiyac vardır.

**Qadınlar və ətraf mühit.** Qadın orqanizmi zərif olduğu qədər də həssasdır. Ekoloji tarazlığın pozulması, ətraf mühitin çirklənməsi qadın səhhətinə ziyan vurmaqla həm də gələcək nəslə ziyan vurur.

Silahlı münaqişələr zamanı ətraf mühitin çirklənməsi nəticəsində doğulan uşaqlarda anadangəlmə çatışmazlıqlar daha çox olur. Bu zaman stress, həyacan, qorxu kimi hallar qadınlara qarşı mənəvi zorakılığın bir nümunəsidir.

Azərbaycanın Qarabağ münaqişəsi kimi problemi və neft-qaz kimi təbii yanacaqla zənginliyi respublikada ətraf mühitin qorunmasını zəruri edir. Ətraf mühitə aid məsələlər Respublika Konstitusiyası və "Təbiətin və təbii sərvətlərin qorunması haqqında" Qanunda təsbit olunmuşdur.

**Qızlar.** Cəmiyyətin əsas həssas qrupu sayılan qızlar Azərbaycanda tarixi adət ənənələrə uyğun olaraq, daima kişi cinsi tərəfindən xüsusi mühafizə olunubdur. Respublikada əhalinin son 1999-cu il siyahıya alınması statistikasına görə qızlar: 1 yaşa qədər - 71600 nəfər; 1-4 yaşarası - 349600 nəfər; 5-9 yaşarası - 441000 nəfər; 10-14 yaşarası - 406900 nəfər; 15-19 yaşarası isə 354600 nəfər təşkil edirdi.

Lakin, bəzən qız uşaqlarına qarşı o hələ dünyaya gəlməmiş də ayrı-seçkilik edilir. Yeni texnologiya və aparatlar əvvəlcədən dölün oğlan və ya qız uşağı olmasını müəyyən etməyə imkan yaradır və ən çox da belə halda qız uşağı arzuedilməz hesab edilir, "zorakılığa" məruz qalır.

Son illərdə aparılan statistik araşdırmalar göstərir ki, kənd və qəsəbə məktəblərində, qaçqın və məcburi köçkünlərin məskunlaşdığı çadır düşərgələrində, yataqxanalarda qızların təhsildən yayınma halları vardır. Bu tipik hal iqtisadi vəziyyəti ağır olan, eləcə də valideynlər işləməyən ailələr üçün daha xarakterikdir. Onu da qeyd edək ki, qızların erkən ərə getməsi problemi ilə yanaşı respublikada ""qarımış"" qızlar problemi də artıq aşkar gerçəklikdir. Digər ağrılı bir fakt 1995-2000-ci illərdə 108 nəfər yetkinlik yaşına çatmayan qız uşağının cinayət törətməsidir.

Qız uşaqlarının təhsili ilə bağlı olan bir çox problemlər hələ kifayət qədər araşdırılmadığı üçün, sovet ideologiyası dövründə formalaşmış münasibət hələ də özünü göstərir. Qızların və oğlanların texniki peşə məktəbləri üzrə cinsə görə bölgüsündə gender disbalansı müxtəlif istiqamətlər üzrə peşə hazırlığının inkişafında labüddür. Qızlar təhsil alacaqları müəssələrin seçimi zamanı yenə də əsasən tibbi, pedaqoji və humanitar sahələrə üstünlük verirlər. İxtisasa görə gender bölgusundə son illərdə qızların iqtisadiyyata da meyilliyi müşahidə edilməkdədir.

2000-ci ildən ixtisaslaşdırılmış orta məktəblərdə oxuyan tələbələrin 67%-ni qızlar təşkil edirdi. Onların da təqribən 95%-i elmin tibb, pedaqoji, təbiət sahələrini və texnologiyanı seçmişdi. Qızların 50%-dən çoxu incəsənət, kompüter elmi, iqtisadiyyat və idarəçilik sahələrində oxumağa çalışırdı. Maşınqayırma, inşaat, enerji, kənd təsərrüfatı və balıqçılıq kimi sahələrdə oxumaq qızlar üçün nədənsə xarakterik görünmür, çox nadir hallarda bu sahələrdə qızlara ras gəlinir. Ali məktəblərin pedoqoji və tibb elmi sahələrinə üstünlük verən tələbələrinin təxminən 67%-ni qızlar təşkil edir.

Azərbaycan Respublikasında gender statistikasının təhlilindən belə qənaət alınır: - qadınların vəziyyətinin yaxşılaşdırılması üzrə beynəlxalq elmi-tədqiqat-tədris institutunun himayəsi altında qadınların vəziyyətinin öyrənilməsi ilə bağlı elmi-tədqiqat işlərinin əlaqələndirilməsinin təmin edilməsi; - qaçqın və məcburi koçkün qadınların vəziyyətinin alim və mütəxəssislərin iştirakı ilə elmi təhlilinin aparılması və bunun əsasında beynəlxalq tələblərə müvafiq uzunmüddətli reabilitasiya proqramının işlənib hazırlanması; - tranzit iqtisadiyyatı ölkələrində qadınların vəziyyətinin spesifik şərtlərinin tələbləri əsasında qadın sahibkarlara güzəştli kreditlər verilməsi və məşğulluq proqramlarının maliyyələşdirilməsi yolu ilə dünya bankı miqyasında xüsusi iqtisadi himayədarlıq göstərilməsi lazımdır.

Müharibələr zamanı qadınlar daha çox zorlama və zorakılıq hallarına məruz qalırlar. Onlar qaçqın düşərgələrində və müvəqqəti məskunlaşdıqları digər yerlərdə müxtəlif çətinliklərlə üzləşirlər. Qadınlar antisanitariyadan, lazımi tibbi yardım göstərilməməsindən əziyyət çəkir, qızlar təhsildən yayınırlar. UNHCR və ya digər yardım agentliklərinin qaçqınlar üçün nəzərdə tutulan xüsusi məntəqələrdə paylanan yardım payları bəzən kişilərin təqsiri üzündən ailə başçısı qadın olan ailələrə çatmır. Çadır şəhərciyinə nə-

zarət edənlərin də kişilər olduğunu nəzərə alsaq, bir qayda olaraq qadınların şikayətləri eşidilmir və kişilər tərəfindən dəstəklənmir. Yekun olaraq qaçqınlara və məcburi köçkünlərə qayğının və diqqətin artırılması məqsədi ilə bir neçə təklif irəli sürmək istərdik:

- respublikanın ərazi bütövlüyünün bərpa olunması, erməni təcavüzkarlar tərəfindən işğal olunmuş torpaqların azad edilməsi;
- erməni əsirliyində olan qadın və uşaqların hamısının azad olunmasının təmin edilməsi;
- doğma torpağa məhəbbət və vətənpərvərlik hisslərinin gücləndirilməsi, münaqişənin sülh yolu ilə həllinin məqbulluğunun əhaliyə başa salınması;
- torpaqlar qaytarıldıqdan sonra yeni yaşayış evlərinin, sosio-mədəni obyektlərin tikilməsi, dağıdılmış şəhər və kəndlərin bütün maddi bazalarının yenidən qurulması;
- qaçqın və məcburi köçkün düşərgələrində qadınların maariflәndirilməsi istiqamətində beynəlxalq təşkilatların treninq-seminarlarnın sayının artırılması;
- qadın hüquqları haqda bilgilərin ardıcıl xarakterdə olması;
- oğlan və qız uşaqlarının şüuruna onların müvəqqəti qaçqın olduqları fikrinin daim təlqin edilməsi;
- oğlan və qızlarda təhsilin vacibliyinə marağ oyadılması, onların təhsilə cəlb edilməsi;
- tibbi xidmətin lazımi səviyyəyə qaldırılması, qadınlar üçün xüsusi reabilitasiya mərkəzləri yaradılması;
- qadın məşğulluğu məsələsində müəyyən dəstəklər tapılması.[1]

---

[1] Bax:Rəna Mirzəzadə "Gender: Cəsmiyyət. İnsan Hüququ.Siyasət". B., 2003.səh. 364-390.

# 7. NƏTİCƏ

Kişilər... Qadınlar... Bəşəriyyətin yaradılışının əsası olan insanlığın bu ayrı-ayrı şəxsləri cəmiyyətdəki bütün ha+disə və proseslərin inkişafını tənzimləyən hərəkətverici qüvvələridir. BMT-nin İnkişaf Proqramında gender münasibətləri xüsusi yer tutur. Gender problemləri getdikcə respublikada da aktual mövzuya, xüsusi maraq dairəsinə çevrilməkdədir. Məsələnin əsas məğzi cinsindən asılı olmayaraq insanların bütün sahələrdə hüquqlarının eyni dərəcədə sosial bərabərlik prinsipi əsasında bərabər həyata keçirilməsindən ibarətdir.

Sosial-mədəni prolseslərin meyarları - ölçüsü baxımından gender mədəniyyəti ümumbəşəri dəyərlərdəndir. Müasir dünyanın inkişaf etmiş tədris ocaqlarında gender elminin metodu, predmeti ümumi siyasətin, ictimai təfəkkürün, cəmiyyətdə cinslərin qarşılıqlı münasibətinin ayrılmaz tərkib hissəsi kimi tədris olunur. Bu elm respublikamız üçün nə dərəcədə xarakterikdir? Bu suala cavab vermək üçün nəinki tarixi-fəlsəfi istiqamətli araşdırmalar, konkret sosioloji sorğulardan tutmuş sosial elmlərin etibar etdiyi bütün sahələrin milli xarakterə uyğun tərzdə tədqiqi müasir dünyagörüşü baxımından öz vacibliyi ilə aktuallaşmalı, gender problematikası xüsusi və ümumiləşdirilmiş analiz nəticəsində aşılanmalıdır. Gender münasibətləri haqda biliklər maarifləndirmə tərzi daşımalı, uşaq və gənclərə öyrədilməli, ümumtəhsil-tədris müəssisələrinin də bu sahədə xüsusi proqramları olmalıdır. Bunun üçünsə ədəbiyyatlar tərcümə edilməli, yerli mütəxəssis kadrlar hazırlanmalıdır. Kütləvi informasiya vasitələri əhaliyə gender biliyi çatdırmaqda müstəsna rol oynamalıdırlar. Sivil dünya çərçivəsi baxımından insan hüquqları, qadın və uşaq hüquqları gender bərabərliyi müstəvisində ali məktəblərdə humanitar fakültələrlə yanaşı texniki sahələrdə də onun

təlimi cəmiyyətin sosial ahəngi baxımından zəruridir. Bu özlüyündə sosial amillərin insan faktorunun psixoloji yönümdə formalaşmasının da xüsusi əhəmiyyət kəsb etdiyini göstərir. Çoxsaylı ziddiyyətlər içrə yaşayan respublikamız üçün obyektiv problemlərin həlli sosial stabilliyə istiqamətlənmiş gender tarazlığına nail olunmasıdır.

Gender problemləri qlobal problemlər sistemində sülh və müharibə məsələlərindən sonra mühüm sırada durur. Müasir qlobolistikada gender problemlərinin yeri və rolu müəyyənləşdirilərkən qarşıya aşağıdakı konkret vəzifələr çıxır:

1) Müasir dövrün qlobal problemləri xüsusiyyətlərinin meydana gəlməsi səbəblərini və bu problemlər sistemində gender problemlərinin yerini aşkar etmək;

2) Cəmiyyətdə cinslərin qarşılıqlı münasibətlərinin optimallaşdırılması, gender problemlərinin hüquqi ideoloji aspektini açmaq;

3) Sosial istiqamətdə genderin mühüm konsepsiyalarının nəzəri-metodoloji, sosial-siyasi və aksioloji dünyagörüşü əsaslarını açmaq;

4) Gender problemlərinin təhlilinə ümumbəşəri yanaşmanın üstünlüyünü göstərmək.

Müasir dövr gender problemləri situasiyasının və qlobal problemlərinin xarakterini düzgün anlamaq üçün, hər şeydən əvvəl, bəşəriyyət tarixində cəmiyyətdə cinslərin qarşılıqlı təsirinin əsas meyllərini izləmək, ikincisi, ictimai fikir tarixində bu problemlərə münasibət baxımından nəzəri şüurun əsas inkişaf mərhələlərini nəzərdən keçirmək.

Gender problemlərinin yaranmasının, onların həllinin üç yolunu göstərək:1) tarixi, 2) sosial, 3) mənəvi-psixoloji siyasət yolları. Birinci yol, konkret gender problemlərinin tarixi araşdırılmasını irəli sürür. İkinci, cəmiyyətdə cinslərin harmonik inkişafının kompleks

gender proqramlarının yaradılmasını nəzərdə tutan sosial-ictimai siyasətin həyata keçirilməsini tələb edir. Üçüncü yol, şəxsiyyətin gender mədəniyyətinin, gender şüurunun və davranışının formalaşmasını nəzərdə tutur. Deməli, məhz üçüncü yol gender məsələlərinə fikir verməyi tələb edir.

Qlobal gender problemləri sistemində qadın məsələsi mərkəzi yerlərdən birini tutur. Qadın məsələlərinə qlobal yanaşma zamanı mənəvi-psixoloji, sosial-məişət prinsipləri, əxlaq normaları və s. mütləq nəzərə alınmalıdır.

Yəni qadına təkcə biololji populyasiya kimi deyil, sosial cəhətdən fəal, məqsədyönlü qüvvə kimi baxmaq lazımdır. Cəmiyyətdə cinslərin qarşılıqlı münasibətlərinin yeni bir formasını elmi cəhətdən əsaslandırmaq - uzun müddətli strategiya hazırlanmasıdır. Çünki insani keyfiyyətlərin əsas komponentlərinin təkmilləşməsi üçün tədbirlər proqramının hazırlanması zəruridir. Bu baxımdan gender təbliğatı aşağıdakı problemlərin həllinə kömək etmiş olar:

- cəmiyyətdə gender haqqında konkret elmi biliklərin yayılmasını, cinslərarsı əlaqənin, münasibətdə baş verən müxtəlif proses və hadisələrin sosial əhəmiyyətini öyrənməyə,
- dövlətin elmi cəhətdən əsaslandırılmış gender siyasətindən çıxış edərək, konkret gender problemlərinin həllinə,
- cəmiyyətin müxtəlif qruplarının səviyyələrinin müəyyənləşdirilməsinə ,
- kütləvi ədəbiyyatın dərcinə, nəşrinə,
- seminar və konfransların təşkilinə, mühazirələrin hazırlanıb müxtəlif yerlərdə oxunmasına,
- maarifləndirməyə, informasiyaların toplanıb işıqlandırılmasına.

## 8. TƏDRİS PROQRAMLARI

Təqdim edilən proqramlar Respublikada gender təlimi (və ya genderşünaslıq) üzrə ali məktəblər üçün ilk tədris proqramlarından ikisidir. Digər iki proqram müəllifləri f.e.d. Z.Quluzadə və psix.e.n. R. İbrahimbəyova olmuşdur. Bu gun gender tədqiqatları artıq cəmiyyətin sosio-mədəni problemlərinin tədqiqində kifayət qədər mühüm yer tutur.

Tarixi prosesin yenidən qurma metodu kimi gender keçmiş və müasir hadisələr arasındakı qarşılıqlı əlaqənin yeni konsepsiyasını təqdim etmək imkanı verir və bu əsasda gələcək hadisələrin, o cümlədən cəmiyyət inkişafının perspektivlərini yeni tərzdə proqnozlaşdırır. Bu isə genderin yeni dünyagörüşünü formalaşdıran fəlsəfəyə bilavasitə aid olan idrak istiqaməti hesab edilməsi üçün tutarlı dəlildir. Bu nəticəni gender tədqiqatlarının mədəniyyət və etika üzrə konsepsiyalara göstərdiyi təsirlə təsdiq etmək olar. Gender və ekoloji tədqiqatların sıx əlaqəsi, müasir qlobal və sosial-ekoloji problemlərin səbəblərinin tədqiqi bəşər elmi və humanitar fikri sintezinin növbəti mərhələsinin təşəkkülünü göstərir.

**Gender** - fəlsəfənin nəzəri problemləri ilə yanaşı, müasir həyatın təcrübəsi, cəmiyyətdə gedən siyasi və hüquqi proseslərlə bilavasitə bağlı olub, siyasi, sosial, iqtisadi və mənəvi sahələrin tədqiqinə mühüm dəyişikliklər gətirdi.

Artıq neçə illərdir ki, gender ölçüsü beynəlxalq hüququn labüd atributudur və demək olar ki, bütün qlobal təşkilat və qurumların, mühüm beynəlxalq konfrans və simpoziumların sənədlərində öz əksini tapır.

**1. Gender tədqiqatlarına giriş: Tarix, nəzəriyyə, təcrübə.**

**Tərtibçilər: f.e.d. Əli Abasov**
**f.e.n. Svetlana Adıgözəlova**

"Gender tədqiqatlarına giriş: anlayışlar sistemi, tarix, nəzəriyyə, təcrübə sosiologiya və statistika" kursuna dair metodik göstərişlər.

Müasir sosial problemlərin gender tədqiqatlarında qlobal əhatəsi üçün kursun gender tədqiqatları haqqında ümumi təsəvvür verə biləcək aşağıdakı hissələrə ayrılmasını təklif edirik:

1. Anlayışlar sistemi. 2. Tarix. 3. Nəzəriyyə. 4. Təcrübə. 5. Sosiologiya və statistika.

Bu istiqamətin nisbətən yeniliyini onun anlayışlarının, əksəriyyət tərəfindən qəbul edilmiş sistem şəkilli olmamasını nəzərdə tutaraq, kursu-ümumi terminləri, onların etimologiyası, məzmunu və qarşılıqlı əlaqəsini daxil etməklə başlamaq daha məqsədəuyğundur. Xüsusən nəzərə almaq lazımdır ki, hətta matriarxat və patriarxat kimi məlum anlayışlar belə gender tədqiqatlarında yeni məzmun kəsb edir, bu da odeməkdir ki, kişi və qadınlarda məlum normaların təşəkkülünə səbəb olan xüsusi mədəni təsir öz sosial institutları vasitəsilə kişi və qadın əxlaqının yaranması və onların gündəlik həyatda rollarının müəyyən edilməsi haqqında təsəvvür yaratmalıdır. Bu fasiləsiz proses düz yolu dolayı şəkildə: mədəniyyət, din, ailə, dövlət, tərbiyə və təhsil sistemi, kütləvi informasiya vasitələri və s. sosial institutlar vasitəsilə gedir.

Kişi və qadın təbii (bioloji) və sosial ayrılması (differensiyası) arasında olan fərqi cins (seks) və Gender (soy) kimi iki mərkəzi anlayışın daxil edilməsi ilə möhkəmləndirmək lazımdır. Birinci bölgünün (differensiyasının) təbii, bioloji təkamülün nəticəsi və insan nəslinin davamı

üçün zəruri olmasını göstərdikdən sonra diqqəti kişi və qadınlar arasında sosial münasibətlərin yaranmasına, onların əxlaq normaları və sosial rollarını genderşünaslıq adlanan elmin mövzusu olmasına yönəltmək lazımdır. Beləliklə, gender tarixən gender assimetriyasının yaranmasını, onun gələcəkdə mövcud olmasını, xüsusi gender yanaşma üsulunun formalaşmasını, gender mədəniyyəti və gender ölçüsü hadisələri və anlayışlarını tədqiq edir. Bu prosesin qanunauyğun nəticəsi isə gender şüur, idrak və dünyagörüşünün yaranması olacaqdır.

Patriarxal düşüncə tərzi gender dünyagörüşünün tarixən də önündə gedib və hazırda da bu halın müxtəlif təzahür formaları cəmiyyətdə mövcud olaraq "kişi" dəyərlərinin "qadın dəyərlərinə" qarşı üstünlüyünü təsdiq etməyə yönəlib. Birinci bölmənin sonunda göstərmək lazımdır ki, təkcə qadınlar yox, kişilər də cəmiyyətin ənənəvi norma və stereotip sisteminin qurbanlarıdır. Məhz buna görə də hər cür insan diskriminasiyasından azad yeni tipli cəmiyyətin formalaşması qadın və kişilərin münasibətlərində gender balansı, simmetriya və ahənginin yaranması yolları axtarılmalıdır. Bir sözlə, müasir gender tədqiqatları cəmiyyətdə demokratiya və plüralizm, liberalizm, vicdan azadlığı və insan hüquqlarının bərqərar olması problemləri ilə həmahəngdir.

Kursda verilən tarixi icmal cinslərarası münasibətlərin ümumi inkişafını göstərir. Qeyd etmək lazımdır ki, matriarxat dövrü tarixi patriarxata nisbətən daha uzun idi. Bu müxtəlif xalqların miflərində, xüsusən dünyanın kosmoqonik mənzərəsində qadına həlledici rol ayırmış qədim miflərdə də öz əksini tapmışdır.

Eposlarda kişinin ön plana keçirilməsi cəmiyyətdə matriarxal münasibətlərin dağılmasını göstərir. Ümumdünya dinləri maskulin dəyərləri təsdiq edərək patriarxal

cəmiyyətin ideallarını əks etdirdilər. Bir-birinə uyğun gəlməyən müxtəlif kişi və qadın əxlaq norma və rollarını formalaşdıran xüsusi mədəniyyət tipi yaranır. Kişilər mədəniyyət və tarixin subiyekti, qadınlar isə obyekti olur. Mədəniyyət kişi və qadını ayıran əsas amil olmaqla bərabər onların şüur, idrak, psixoloji özlərini eynilәşdirmə ifadəsini formalaşdırır. "Şərq-Qərb" problemi, mədəniyətin etnik- dini özünəməxsusluğunda da genderin irqi, dini və s. öyrənmə sahələri var. Deyilənlərə yararlı dəlil müəllim tərəfindən müxtəlif mənbələrdən seçilmiş cinslərarası münasibətlər probleminin icmalı olmalıdır. Bu isə qadın probleminin ayrı-ayrı kortəbii çıxışlardan başlayaraq işçi qadın hərəkatının mütəşəkkil mübarizə formalarının yaranmasına, sufrajizm, radikal və liberal feminizmin meydana çıxmasınadək inkişaf mərhələlərinin bərpasına imkan verər.

Nəzəri mühakimələr və feminzm fəlsəfəsi kursun mərkəzi və ən mürəkkəb hissəsidir. Bir dünyagörüşü kimi feminizm bu cərəyanın nümayəndələrinin təsəvvürünə görə patriarxat dünyagörüşünün təmərküzləşmiş ifadəsi olan rasionalizm fəlsəfəsinin tənqidinə və "devrilməsinə" yönəldilmişdi.

Müstəsna olaraq məntiqi mühakimələrə dayanma, hissin verdiyi məlumat və duyğudan imtina - insan idrakının bütün sahələrində öz izini qoymuş rasionalizmin böhranının səbəbidir.

"Patriarxat" dünyagörüşünün naqisliyini və məhdudluğunu açmış feminizmin tarixin, idrakın, mədəniyyətin, dəyərlər nəzəriyyəsinin yenidən bərpasında müstəsna rolunun açılması labüddür.

Bundan əlavə, şüur və idrakın qadın tipinə bəraət qazandırılmasında, cinslərin sosial differensiyasının səbəb və mənbələrinin müəyyənləşdirilməsində, uşaqlıq, tərbiyə,

təhsil və gender yanaşması baxımından sosiallaşmasında, seksuallıq problemlərinin nigah və ailə məsələlərinin işıqlandırılmasında feminzm müstəsna rola malikdir.

Genderin fəlsəfi əsasları xüsusi kursu Azərbaycan Respublikası dövlət və qeyri-dövlət ali məktəblərinin humanitar fakultələri üçün nəzərdə tutulmuşdur. İxtisas kursunda genderin konsepsiyası, metodologiyası, təhlili, tədqiqi və cəmiyyətdə kişi-qadın münasibətlərindəki sosio-mədəni aspektləri izah ediləcəkdir.

İxtisas kursunda genderin mənşəyi, inkişaf tarixi, tipologiyası, predmeti sosial-fəlsəfi istiqamətdə öyrədiləcək. Gender sosiologiyası cəmiyyətdə əsas "kişi" və "qadın" cinslərinin sosial rollarının səciyyəvi xüsusiyyətlərini analiz edəcəkdir.

İxtisas kursunda Azərbaycan reallığı da xüsusi olaraq tədris olunacaqdır.

İxtisas kursu 8 mövzu olmaqla 18 saat mühazirədən ibarətdir. 6 saat seminar məşğələsi nəzərdə tutulur. Beləliklə, kursa 9 mühazirə və üç seminar məşğələsi daxildir.

**"Gender tədqiqatlarına giriş: tarix, nəzəriyyə, praktika" kursunun proqramı**

**1. Anlayışlar sistemi**

Gender anlayışı. Gender tədqiqatlarında gender, genderşünaslıq mövzusu.

Əsas anlayışlar və kateqoriyalar: cins (seks) və gender (soy), gender tədqiqatları, gender mədəniyyəti, gender ölçüsü (yanaşması), gender münasibətləri, gender assimetriyası, gender feminlik, maskulinlik, patriarxat, matriarxat və s. genderin sosial təşkil olunması, kişi və qadınların eyniyyətlərini müəyyən etməsi. Gender idrakı və şüuru. Gender-yeni dünyagörüşü təşəkkülünün əsası kimi.

**2.Tarix**

Qadın və kişi mif, epos və dinin güzgüsündə. Dünya dinlərində qadın və kişilərin statusu. Müqəddəs mətnlərin (buddizm, daosizm mətnlərinin, Bibliya və Quran) gender tədqiqi. Cəmiyyətin və müxtəlif mədəniyyətlərin tarixi inkişafında gender münasibətlərinin tipologiyası. Gender və mədəniyyət. Kişi və qadın mədəniyyətin obyekt və subyekti kimi. Qadınların dünya mədəniyyətinə töhfəsi. Qadın və Şərq-Qərb problemi. İslam və qadın. Qadın və kişi yaradıcılığının özünəməxsusluğu. Təsvirin dini üslubu. Mədəniyətdə təfəkkür və şüurun üslubu.

Cəmiyyət, siyasət, fəlsəfə tarixində cinslərin qarşılıqlı əlaqəsi problemi və onun ədəbiyyat və incəsənətdə inikası. Qadın hərəkatının mərhələləri: kortəbii, səciyyəli ayrı-ayrı təzahürlər, sufrajizm, qadın fəhlə hərəkatı, radikal və liberal feminizm.

**3.Nəzəriyyə**

Feminist təfəkkürünün tarixi: ideya, konsepsiya, nəzəriyyə, insan fəlsəfə və psixologiyası əsaslarının feminizm baxımından tənqidi.

Cinslərarası fərqlərin təsnifatı, bioloji, psixi, sosial aspektlər. Uşaqlıq dövrünün gender aspekti. Uşağın tərbiyə və sosiallaşması (cəmiyyətə uyğunlaşmada gender yanaşması, gender ölçüsü). Kişi və qadınların sosial rolları - seksuallıq, məhəbbət, nigah və ailə problemlərinə gender baxımından yanaşma. Şəxsiyyətin seksual eyniyyətinin formalaşması və cinsi dəyişmə problemi. Gender və ekologiya. Qeyri-zorakılıq, tolerantlıq və əməkdaşlıq fəlsəfəsi. Ekofeminizm, qlobal və sosial ekologiya problemləri.

**4. Təcrübə**

Elm və təhsildə gender ölçüsü

Gender siyasət və hüquqda. Qadınlar sosial dinamikanın faktoru kimi. Qadın və siyasət. Qadın hərəkatı siyasi proses faktoru kimi. İctimai dəyişikliklərin strategiya və taktikası. Qanunvericilik və cinslərin bərabərliyi. İnsan hüquq və azadlıqları sistemində qadın hüquqları. Gender və demokratiya. Beynəlxalq təşkilatlar: gender siyasəti və təcrübəsi.

Gender: sağlamlıq və tibbi xidmət sistemi. Tibbə və müalicəyə yeni yanaşmalar.

Gender və iqtisadiyyat. Qadın bərabərsizliyinin iqtisadi aspekti. Müasir cəmiyyətdə kişi və qadınların iqtisadi statusu.

Ailə-iqtisadi tədqiqat obyekti kimi. Ailədə iqtisadi rolların bölüşdürülməsi. İqtisadi diskriminasiya modelləri. Qadınların hesablanmamış əməyi. Əmək, təhsil və investisiya bazarında diskriminasiya... qadın və müasir əmək bazarı. XXI əsrin perspektivləri.

**5. Sosiologiya və statistika**

Genderin sosiologiyası. Tədqiqatın obyekti və mövzusu, əsas anlayışlar. Gender-cinsin sosial konstruktu kimi. Gender-sosial institut kimi. Gender stratifikasiyasının sosioloji nəzəriyyələri. Cəmiyyətin müxtəlif sahələrində sosial rolların təzahürünün gender aspekti. Azərbaycanda kişi və qadınların qarşılıqlı əlaqəsinin tarixinə dair.

Gender: respublikanın etnik-konfessional özünəməxsusluğu. Azərbaycan qadın hərəkatının tarixi. Azərbaycanda feminizm hərəkatı olubmu? Azərbaycan üçün gender proqnozu: demoqrafiya, əhali, siyasət.

## II. Gender problemlərinin nəzəri əsasaları

*Tərtibçi: f.e.n. Rəna Mirzəzadə.*

**Mövzu 1**. Gender tədqiqatlarının nəzəri və metodoloji problemləri (4 saat)

Gender spesifik və müasir elmdir. Onun predmeti, problemləri, cəmiyyət həyatında yeri və rolu, onun təbiətinin sosial-fəlsəfi mahiyyəti, tipologiyası, mənşəi. Gender anlayışına bir neçə metodoloji yanaşma üsulunun izahı. Gender cinslərin qarşılıqlı münasibətinin sosial konstruksiyasıdır. Genderin "sosial-cins" anlamının cinslərin bioloji anlayışından fərqi. Gender - sosial reallığın əksi olaraq gender asimmetriyası, gender münasibətləri, gender tarazlığı, gender dəyərləri, genderşünaslıq və s. aspektləri əhatə edən yeni istiqamətli nəzəriyyədir.

Feminizm gender tədqiqatlarının mənbəyi və əsas tərkib hissəsidir. Feminizmin geniş və dar mənada sosial-fəlsəfi dərki. Feminizmin əsas inkişaf mərhələləri və feminizm hərəkatı.

Gender tədqiqatlarının əsas istiqamətləri. Gender tədqiqatlarının meydana gəlməsi səbəbləri. Gender tədqiqatlarının inkişaf mərhələləri: ibtidai təsəvvürlər və ideyalar; feminist konsepsiyalar; postfeminist nəzəriyyələr. Gender tədqiqatlarının predmet və vəzifəsi. Gender tədqiqatlarının digər elmlərlə: tarix, fəlsəfə, hüquq, sosiologiya, demoqrafiya, ekologiya, iqtisadiyyat, politilogiya, etnoqrafiya ilə bağlılığı.

Gender tədqiqatlarının əsas spesifik metodları. Metodoloji sorğuların gender tədqiqatlarının araşdırılmasında rolu.

**Mövzu 2**. Gender problemlərinin fəlsəfi metodoloji nəzəriyyələri. (2 saat)

Cinslərin qarşılıqlı münasibətinin tarixin müxtəlif mərhələlərində inkişafı, tipologiyası. İlkin nəzəri konsepsiya, memuarlarda kişi-qadın münasibətləri. Cəmiyyətdə cinslərin münasibətinə antik dövr filosoflarının baxışı: Sokrat, Platon, Aristotel, Fukidid. Azərbaycanda cinslərə yanaşma tərzinin qədim abidələrdə təsviri: Avesta, Kitabi Dədə Qorqud, dastan, nağıl, əsatirlər. Orta əsr dünyagörüşündə gender dəyərləri. İntibah dövrü reformalarında kişi və qadın məsələsi.

İncildə, Quranda ,xristian və islam dinində kişi-qadın münasibətləri.

Fransız filosofları F.Volter, D.Didro, C.C.Russo, C.A.Kondersenin kişi-qadın hüquq bərabərliyi, nəzəri sistemi.

Meri Uollstounkraftın "Qadınların hüququnun müdafiəsi" Manifesti, Olimpiya de Qucun "Qadınların hüquq bərabərliyi" Deklarasiyası.

Utopik sosialistlər: K.A.Sen-Simon, Ş.Furye və R.Ouenin fəlsəfi feminist nəzəriyyəsi. L.Morqan və M.Midin baxışları. Əbədi dünya görüşündə A.Stendal və C.Sand utopik feministlərdir.

C.Stüart Mill liberal feminizmin yaradıcısıdır. Marksizm "qadın məsələsi" haqqında. Avqust Bebelin "Qadın və sosializm" əsəri.

Cəmiyyətdə antifeminin baxışların formalaşması fikri: P.Prudon; C.Mişle; A.Şopenhauer; F.Niştse; Z.Freydin baxışları.

XIX əsrin sonu və XX əsrin feminist hərəkatı konsepsiyaları: "fəhlə qadın hərəkatları", sufrajistlər. Feminist hərəkatının genişlənməsi.

**Mövzu 3.** Müasir fəlsəfədə gender problemləri (2 saat).

Feminizm fəlsəfi-metodoloji istiqamətin yaranmasının tarixi şəraiti. Maarifpərvər nəzəriyyələr: liberal fəlsəfi feminist dünyagörüşü sistemi mənbəsidir (C. Lokk, C.C.Russo, S.T.Mil).

C.Lakan, C.Derrida, M.Fukonun feminizmə müasir fəlsəfi baxışları.

Cəmiyyəti, cinslərin, psixoanalizin feminist tənqidi.

**Mövzu 4.** Gender tədqiqatlarının araşdırılması mərhələləri (2 saat)

Gender tədqiqatlarının obyekti cəmiyyətdə cinslərin sosial rollarının tədqiqidir.

Seksologiya çərçivəsində cinslərin identilliyinin öyrənilməsi (XX əsrin 50-ci illəri).

Gender fərqinin sosial fəlsəfə və sosiologiya mətnində feminist nöqteyi nəzərindən təhlili.

XX əsrin 70-80-ci illəri: Cinslərin bioloji determinizminə qarşı mübarizə tarixində gender sistem kimi.

Gender münasibətlərinin sosial elmlər tərəfindən dərk olunması. Gender korluğu. Marksizm yanaşma tərzi. Feminizmin və maskulinizmin fəlsəfi- sosioloji ölçüləri.

**Mövzu 5.** Kişi qadın münasibətlərinin müasir mərhələsi. (2 saat)

Beynəlxalq qadın hərəkatının inkişafı. Qadın azadlığı, emansipasiyası, bərabərhüquqluluq, kişi-qadın münasibətlərinin obyekti və subyekti kimi. Cəmiyyətin patriarxat nəzəriyyə sisteminə tənqidi yanaşma.

Feminist hərəkatın XX əsrin 60-cı illərində inkişafı. İngilis-Amerikan Feminist məktəbi (B.Fridan,

K.Millet). Fransız feminist fəlsəfi məktəbi (L.İriqarey; K.Kleman, Y.Kristeva).

**Mövzu 6.** Gender problemlərinin sosiologiyası (2 saat).

Gender sosiologiyasının obyekti, predmeti və əsas anlayışları.

Gender sosiologiyasının metodologiyası. Kişi və qadının sosial statusu və gender stratifikasiyası gender sosiologiyasının əsasıdır, sosial cəmiyyətdə gender institutun bir qoludur. Gender problemlərinin sosioloji nəzəriyyələri. Cinslərin cəmiyyətdə sosial rollarının və statusunun fərqli və oxşar istiqamətləri. Müxtəlif nəzəriyyələrdə gender stratifikasiyası, funksionalizm; konfliktlər nəzəriyyəsi; interaksionalizm.

Maddi rifah və gəlir sistemində kişi və qadın mövqeyindəki əsaslı fərqlər. Kişi və qadın mövqeyinin idarəetmədə fərqli cəhətləri; siyasi və iqtisadi mühitdə münasibətlərin inkişaf dinamikasının ierarxiyası.

**Mövzu 7.** Cinsi differensiyanın psixoloji aspektləri (2 saat)

Cəmiyyətdə cinsi rolların, sosiallaşmanın mexanizm və problemləri. Cinsi münasibətlərin stereotipləri: mahiyyət və funksiyaları.

Cinsi fərqlərin psixoloji analizi. Kişi və qadının cəmiyyətdə qarşılıqlı münasibətinə təsir edən amillər (mentalitet, adət, ənənə, dil, mədəniyyət, ətraf mühit).

Şəxsiyyətin özünün identikliyinin gender dəyərləri. İdrakda gender tarazlığı.

Ailə, nigah məsələlərində gender yanaşma tərzi. Psixoloji düynagörüşündə cinsi fərqlərin təsnifatı.

**Mövzu 8.** Azərbaycanda gender siyasətinin sosioloji tədqiqi. Qadın sosial siyasətin obyekti kimi (4 saat).

Azərbaycanda qadının cinlərin vəziyyətinin tarixi yeri və rolunun metodoloji tədqiqi. Azərbaycan tarixində qadına münasibətin özünəməxsusluğu. İçtimai-siyasi fikir tarixi nümayəndələrinin dünyagörüşündə gender ideyası; (Nizami, Məhsəti, Füzuli, Natəvan, M.F.Axundov, Ə,Bakıxanov, H.Zərdabi, Ə.Ağayev, Ə.Hüsenyzadə, C.Məmmədquluzadə; Y.V.Çəmənzəminli; C.Cabbarlı; H.Cavid və s.) İctimai rəydə qadın məsələsi. Qadın probleminə Dövlət sistemində və qanunverici orqanlarda münasibət.

İctimai qadın hərəkatlarının təhlili.

Müasir Azərbaycan kişi və qadın münasibətlərinin sosial problemlərlə qarşılıqlı sintezi. Ana və uşaq məsələsində ailənin sosiallaşmasının gender ölçüləri. Kişi və qadın identikliyində adət, ənənə və milli mentalitetdən yanaşma tərzi.

Azərbaycanda qadın hərəkatının inkişaf dinamikAsına və ya qadınların öz hüquqları uğrunda mübarizə tarixinə baxış Qurani Kərimdə qadın məsələsi. Azərbaycan maarifçilərinin əsərlərində gender ideyası: və s., Bərabərhüquqluq məsələsi ADR dövrünədək, ADR dövrü, Sovet dövrü və postsovet dövrü.

1988-2003-ci ildə Azərbaycanda qadın hərəkatı: qadınlar, ictimai təşkilatlarda; Qadın və siyasət. Qadın hüquqları;. Azərbaycanda genderin inkişafı. Gender siyasəti. Gender statistikası. Gender siyasəti və yoxsulluq. Beynəlxalq və Milli qanunvericiliyin gender ekspertizası.

## 9. KİÇİK ENSİKLOPEDİYA

**Alturizm** - (lat. alter - başqa) - müxtəlif insanların faydalılıq funksiyaları arasında müsbət asılılıq.

**Androkratiya** - (yunan. ander, yiyəlik halda - kişi, kvateria - hakimiyyət) - kişinin tam hakimiyyəti.

**Diskriminasiya** - (lat. diskriminatio - fərq) - insanların hər hansı bir qrupunun milliyyətindən, irqindən, dini mənsubiyyətindən, cinsindən asılı olaraq hüquqlarının məhdudlaşdırılması.

**Seks** - (lat. sexus - cins) - cinsi münasibət.

**Seksizm** - (lat. sexus - cins) - qadın və kişilərə qarşı sırf cinsi mənsubiyyətinə görə tətbiq olunan məhdudlaşdıran hərəkət və qaydalar.

**Sufrajizm** - (ing. Suffrage - seçki hüququ) -qadınlara seçki hüququ verilməsi uğrunda qadın hərəkatı.

**Emansipasiya** - (lat. emantipastjo -azad olma) - asılılıqdan, tabeçilikdən, istismardan, mövhumatdan azad olma prosesi.

**Kvota** - (lat. quota - hissə, neçə) - hissə, pay, norma və s.nin ölçüsüdür, feminologiyada isə qadının cəmiyyətin bütün sahələrində, xüsusən də siyasətdə iştirakıdır.

**Maskulinlik** - (lat. masculinus kişilik) - kişilərə xas olan somatik, psixiki və davranış xüsusiyyətləri haqqında təsəvvürlər...

**Feminizm** - (fransızca feminizme, lat. femina) - kişilərlə hüquq bərabərliyi uğrunda XVIII əsrdə yayılmış qadın hərəkatıdır.

**Feminist** - feminizm tərəfdarı.

**Feminologiya** - qadınların cəmiyyətdə rolunu tam konsersiyasını verməyi özünə məqsəd bilən ümumi həyat və fəaliyyət qanunauyğunluqları barədə elmdir.

**Feminlilik** - qadınları xas olan itaətkarlıq, yumuşaqlıq, zorakılığın inkarı ilə eyniləşdirilən psixiki, somatik davranışları bildirən xüsusiyyətlər haqqında olan təsəvvürlər.

**Qadın məsələsi** - qadın azadlığının dəqiq proqramı olan sosial-iqtisadi problemin ümumi hissəsidir.

**Qadın hərəkatı** - qadının öz hüquqları uğrunda mübarizəsinin müxtəlif metodları.

## 10. ƏLAVƏLƏR

### 1). Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunması tə'min edilsin.

1. Dövlət Statistika Komitəsi Qadın Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə respublikada qadınların vəziyyətinə dair beynəlxalq standartlara cavab verən statistik məlumat hazırlasın.

2. Nazirlər Kabinetinə tapşırılsın ki:

- Ölkədə gedən iqtisadi çərçivədə həyata keçirilən işlərdə gender siyasəti tələblərini rəhbər tutmaqla qadınlar üçün kişilərlə bərabər imkanlar yaradılmasını təmin etsin;
- Qaçqın və məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi məqsədi ilə onların münasib işlə təmin edilməsi proqramı hazırlayıb həyata keçirsin;
- Qadınların hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının qanunlarında müvafiq dəyişikliklər və əlavələr edilməsi ilə mövcud qanunvericiliyi təhlil edib təkliflər versin;
- Hər il martın 1-nə qədər bu fərmanın yerinə yetirilməsinin gedişi haqqında Azərbaycan Respublikasının prezidentinə məruzə təqdim etsin;
- Bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 6 mart 2000-ci il.**

## 2). Azərbaycan Respublikası Konstitusiyasında Bərabərlik Hüququ

Azərbaycan Respublikası Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilən Azərbaycan Respublikası referendumunda qəbul olunmuş, 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir və Azərbaycan Respublikası ali qüvvəli qanunu olmaq etibarı ilə qadınların diskriminasiyasını qadağan edir. Bu, Konstitusiyanın 25-ci maddəsində təsbit olunmuşdur.

**Maddə 25**

**II.** Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.

**III.** Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını vətəndaşların irqi, milli, dil, din, cinsi, mənşəi, əqidə, siyasi və sosial mənsubiyyətinə görə məhdudlaşdırmaq qadağandır.

Qadın hüquqları və azadlıqları Konstitusiyanın "Əsas hüquqlar: azadlıqlar və vəzifələr" bölməsində 24-71-ci maddələrdə əks olunub və dövlət tərəfindən bu hüquq və azadlıqların qorunmasına təminat verilir.

Burada əsas məsələ həyatın bütün sahələrində qadın və kişilərin bərabər imkanlarla təmin edilməsi yox, yalnız qadınların "sosial müdafiə obyektindən aktiv hərəkətdə olan şəxsiyyətə çevrilməsində qadının cəmiyyətdəki mövqeyinin köklü dəyişilməsi üçün vacib amildir. Bu siyasət patriarxal ənənəyə qarşı qoyulmalıdır ki, cəmiyyət demokratikləşsin".

3). Ümumislam İnsan Hüquqları Bəyannaməsi

**XIX.** Ailə yaratmaq hüququ və bununla bağlı məsələlər.

1. Hər bir insan öz dini, mədəniyyəti və ənənələrinə uyğun şəkildə nigaha girmək, ailə qurmaq, uşaq böyütmək hüququna malikdir. Hər bir ər-arvad bu hüquqlardan, imtiyazlardan istifadə etmək hüququna malikdir və Qanunun müəyyən etdiyi öhdəliklərə tabe olmağa borcludur.

2. Ər-arvadın hər birisi qarşı tərəfdən hörmət və ehtiram göstərilməsi hüququna malikdir.

3. Hər bir ər vəsaitinə müvafiq surətdə arvad və uşaqlarını saxlamağa borcludur.

4. Hər bir uşaq valideynlərinin himayəsində olmaq, ailədə böyumək hüququna malikdir. Az yaşlı uşaqları işə məcbur etmək və onların təbii inkişafına zərərli olan yüklənməyə məruz qoymaq qadağan olunur.

5. Hər hansı səbəbdən valideyini uşaqları qarşısındakı öhdəliklərini yerinə yetirə bilmirlərsə, bu işi cəmiyyət öz ehtiyatları hesabına yerinə yetirməlidir.

6. Hər bir insan uşaq vaxtı, qocaldıqda və əmək qabiliyyətini itirdikdə maddi yardım almaq eləcə də qayğı və ailəsinin müdafiəsi hüququna malikdir.

7. Analıq ailə və cəmiyyətin ictimai təşkilatların tərəfindən hörmət, qayğı və xüsusi yardım hüququna malikdir.

8. Ailədə ərin və arvadın uşaqlar və valideynləri qarşısında ümumi məsuliyyətləri olduğunu nəzərdə tutaraq öz aralarında cinslərinə, qabiliyyətlərinə, istedadlarına, təbii meyllərinə müvafiq vəzifə və səlahiyyət bölgüsü aparılmalıdır.

9. Heç kəs öz iradəsinin əleyhinə olan, hüquqi

səlahiyyətlərinin bir qismini və ya hamısının itirilməsinə səbəb olan nikaha girə bilməz.

XX. Ərdə olan qadının hüquqları:

Hər bir ərdə olan qadının hüququ var:

a) ərinin yaşadığı mənzildə yaşasın;

b) ərinin yaşayış səviyyəsində yaşayışını təmin edə bilən vəsaiti, boşandıqda isə öz gəlirlərindən, tam sərəncamında olan mülkiyyətdən asılı olmayaraq iddia (qanuni gözləmə) müddətində özünün vəsaitini, sonra isə həm özünə, həm də yedirtdiyi və tərbiyə etdiyi uşağa lazım ola bilən bütün vəsaiti almaq ;

v) Qanunun müddəalarına uyğun olaraq boşanma tələb etmək, boşanmaq; (bu hüququ məhkəmə vasitəsi ilə boşanmaq hüququ tamamlayır;)

q) əmlakı ərinə, uşaqlarına, valideynlərinə, Qanuna müvafiq digər qohumlarına miras qoymaq;

d) öz mənafeyinə zərər vura bilən konfedensial məlumatların yayılmamasına ciddi riayət olunmasını ərindən, boşanıbsa keçmiş ərindən tələb etmək. (Qadın özü də əri və ya keçmiş əri barədə bu öhdəliyə əməl etməlidir.)

## 4). Qadınlar biznesdə.

("Женщина в бизнесе". М., 1993, с. 4-14 kitabından tərcümə )

XX əsrin sonuncu onillikləri ictimai tərəqqiyə aktiv təsiri artıq qeyd olunan və özünün gələcəyini keyfiyyətcə yeni sivilizasiyaya doğru hərəkatın tam inkişafını gözləyən qlobal xarakterli təzahürlərlə zəngindir.

Onların sırasında qadınların kütləvi şəkildə əmək bazarına çıxmasını amerikalı tədqiqatçılar R.Peterson və K.Beymeyer bəlkə də birincilər arasında "Dünya miqyasında sakit inqilab" adlandırmışlar. Həqiqətən, tarixi baxımdan kiçik müddət ərzində qadın, evdən kənarda işləməyə başlayaraq, təhsil alaraq, ixitsaslaşaraq, yalnız muzdlu olmayan işçilərin sıralarını artıraraq, həmçinin şəxsi müəssisələrini (əsas etibarən də xidmət sahəsində) yaradaraq özünün ənənəvi rolu-ailədaxili funksiyası çərçivəsindən cəsarətlə kənara çıxmışdır.

Birinci dəfə idi ki, qadınlar qarşısında geniş seçimli imkanlar açılmış, əsrlərələ təşəkkül tapmış həyat stereotiplərini dəyişməyə imkan vermiş, "ödənişsiz" ev əməyinə alternativ olaraq meydana çıxdı.

Müasir müəssisədə qadının rolunun dəyişmə mexanizmini analiz etmiş amerikalı tədqiqatçı D.Nesbitt bu hadisəni "Açılmış imkanlar partlayışı" adlandırmışdır. Son vaxtlara qədər iqtisadi sahədə olan ədəbiyyatda inkişaf prosesində qadının rolu yalnız onun reproduktiv funksiyası, ya da əmək ehtiyatlarının artması ilə əlaqədar nəzərdən keçirilir, onun iqtisadi imkanları isə ümumiyyətlə hesaba alınmırdı.

Qadın əməyinə marginal və təsadüfi baxış nöqteyi-nəzəri də geniş yayılmışdı. Belə yanaşmanın səbəblərinin köklərini onun əsasən əsrlərlə təşəkkül tapmış kişilərdən

asılı vəziyyətində, mülkiyyətə münasibətdə zəif mövqeyində: sərvətə, hakimiyyətə və yaradıcılığa olan yolların onların üzlərinə bağlanmasında və müxtəlif növ hüquq pozuntularında axtarmaq daha münasibdir. Qeyd edək ki, "sakit inqilabın" iki mərhələsini fərqləndirmək olar: birincisi, 50-70-ci illər. Bu dəfə qadınların kütləvi şəkildə muzdlu əmək sahələrinə axını ilə səciyyələnir; ikincisi, 70-ci illərin ortalarından başlamış və azad sahibkarlığa doğru dönüşü göstərir.

Birincini irəlicədən müəyyən etmiş ən mühüm amillər kimi bir tərəfdən - qadın təhsilinin inkişafını və vətəndaş azadlıqları uğrunda mübarizəni: digər tərəfdən - sənayeləşdirilmiş cəmiyyətin iri istehsal sahələrinin, əmək bazarına axınını, istehlak mühitinin dəyərlər sistemi ilə təkan verilən, qadın fəhlə qüvvəsinə tələbatını qeyd etmək olar. İkinci mərhələyə keçid, yeni dövr üçün obyektiv zəmin yaranmasında rol oynamış, yeni kompleks problemlərin meydana çıxmasına səbəb olmuşdu. Onların arasında isə inkişaf etmiş ölkələrin xidmət sahələrində birinciliyi təmin edəcək post-sənayeləşdirilmiş cəmiyyətə daxil olması ilə geniş sahədə kiçik və orta müəssisələrin yaranmasını göstərmək olar.

İnsana xas olan bütün resurslardan maksimum istifadə olunmasını və ictimai dünyagörüşündə özünə yol açan mədəniyyətə doğru meylləri də göstərmək olar. Bərabər imkanlar uğrunda qadın hərəkatının yüksəlməsinə də istinad edilə bilər. Lakin, qadın sahibkarlığının inkişafı üçün həlledici kimi birinci iki amili qəbul etmək vacibdir. Məhz kiçik biznes öz addımlarını atan qadın sahibkarlarının əsas hissəsi üçün daha uyğundur, çünki ən yüngül fəaliyyət sahəsi xidmət sahəsidir; yəni insanın müxtəlif tələbatına xidmət etməkdir və qadınlar əsrlər boyu həmin işlərlə məşğul olmuşlar.

Bu gün futuroloqların "qadın əsri" kimi müəyyənləşdirdiyi XXI əsrin əvvəlində bir sual meydana çıxır: uzun müddət uzaqlaşdırıldığı əmək və yaradıcılıq dünyasına o, yəni qadın, özü ilə nə gətirəcəkdir? Aparılmış tədqiqatlar, artıq qadın sahibkarlığının makroiqtisadiyyata olan töhfələri haqda ümumi təsəvvür yaradır:

1. Qadın milli iqtisadiyatın strukturunun yenidən təşkil edilməsində əhəmiyyətli və artan rol oynayır.

2. İnkişafın yeni dinamik gücünü təmsil edir və yüksəlişin artım sürətinə təkan verir.

3. Milli təsərrüfatın istehsalının artmasına zəmin yaradır.

4. Tam olmayan məşğulluğu və işsizliyi ixtisar edərək, axıra qədər istifadə edilməmiş insan potensialını reallaşdırıb ümumi rifahı artırır.

5. Onun gətirdiyi sosial-iqtisadi dəyişikliklər uzun müddətli siyasi sabitliyə zəmin yaradır.

Tədqiqatçılar qeyd edirlər ki, "Amerikanın iqtisadi cəhətdən tərəqqisində qadınların xüsusi töhfəsini təsdiq etməmək olmaz. İnformasiya cəmiyyət erasına daha dərindən daxil olduqca, aşkar olur ki, sənayeləşmənin yaranması kişilərin işi idi, lakin yeni cəmiyyət qadınlar tərəfindən yaranacaqdır".

Qadınların menecment sahəsinə sürətli axınının genişlənməsi məsələsi, onların bərabər imkanlar uğrunda mübarizəsi baxımından, heç də təbliğatı əhəmiyyət kəsb etmir. Mahiyyət etibarı ilə məzmun ondan ibarətdir ki, idarəetməyə qoşulan qadın bu sahəyə özünün nadir bacarığını, məharətini, vərdişlərini, işgüzar davranış üslubunu, qərar qəbul etməkdə öz dəst-xəttini göstərir. Bu kimi halların daxil edilməsi hesabına isə menecmentin zənginləşdirilməsinin iki həlli yolu mövcuddur.

- menecmentin mövcud olan kooperativ üslubuna

təsir etmək yolu və qadınların korporasiyaların idarəetmə strukturlarında iştirakını genişləndirmək vasitəsilə;

- şəxsi müəssisələrini yaradan və daim artan qadın kütlələri arasından menecerlər sırasına axın vasitəsilə.

Bu münasibətlə onu nəzərinizə yetirək ki, 80-cı illərdən başlayaraq korporasiyaların idarə edilməsində qadınların rolunun artması kooperativ mədəniyyətinin dəyişməsinə gətirib çıxarmışdır. Bu əsasən daim dəyişən şəraitə istiqamətlənən, daha tez uyğunlaşan idarəetmə üsullarının inkişafında: daha intitiv, daha az düzxətli təfəkkür tipinin təsdiqində : hərcmərcliyə, effektsizliyə qarşı böyük dözümlülük göstərməkdə: iyerarxiyalı piramida şəkilli strukturun birsəviyyəli, müxtəlif vasitələrlə qarşılıqlı əlaqəli strukturlara çevrilməsində: şəxsi formalı əlaqələrin həvəsləndirilməsində: insanların haqqında, həm müştərilərə həm də əməkdaşlara qayğının artırılmasında görünür. İş mədəniyyətinin və idarəetmə üsullarının bu transformasiyası, şübhəsiz, yapon rəqabəti ilə də stimullaşdırılır və amerika tipli korporasiyaların maraq sahələrində olduqca kəskin şəkildə meydana çıxırdı. Lakin mahiyyət etibarilə ona, vəzifələrdə sayları nəzərə çarpacaq dərəcədə artmış, törəyən və Yaponiya tərzinə yaxın olan qadın rəhbərlər üslubu nümunə göstərmiş oldu. Nəticədə işgüzar münasibətlərdə dəyişikliklər baş verdi, qərarların qəbulunda intuitivlik daha çox nəzərə alınmağa başladı.

İkinci halda məsələnin məğzi ondan ibarətdir ki, bu gün qadın menecerlərin kütləvi meydana gəlmə mənbəyi kiçik şəxsi biznesdir, maliyyə imkanları olmadığından muzdlu işlər müdiri saxlaya bilməyən müəssisə sahibləri özləri menecerlik edirdilər. Onların əksəriyyəti əvvəlcədən hazırlığa malik deyildi və öz -özlüyündə idarəetmənin qadın üslubunu qidalandırma mənbəyi olan, qadın intuisiyası və "sağlam düşüncə əsasında" hərəkət edirdilər.

Müasir psixoloqların tədqiqatları göstərir ki, qadınlar kişilərə nisbətən daha tez ünsiyyətə girəndir: onlar insanlara qarşı böyük maraq göstərirlər, öz tərəfdarlarının dəlillərinə və qarşılıqlı münasibətlərin emosional formalarına daha həssasdırlar. Tədqiqatlarda göstərilir ki, işgüzar qadınlar əlaqə yaratmağı çox yaxşı bacarır və servis xidməti sahələrində daha müvəffəqiyyətlə çalışırlar, belə ki, onlar müştərilərlə etibarlılıq münasibətləri qurmağa daha çox meyllidirlər. Mübahisəli hallarda onların davranış tərzində də müştərilərini itirmək istəyi bir növ hiss olunur. Kişilərdən fərqli olaraq işgüzar qadınlar nəyin bahasına olursa-olsun qələbəyə can atmır, qələbənin qiymətini onun emosional və şəxslərarası məsrəflərini düşüncə ilə əlaqələndirirlər. Bütün bu kimi keyfiyyətlər, müştərilərə münasibətdə etibarlılıq göstərilməsi isə xidmət sahələrində ona müəyyən qədər üstünlük verir.

Burada isə artıq həm də müasir cəmiyyətin dəyər sisteminin tədrici təkamülü də qadının köməyinə gəlir. Sonuncu, insana və onun müxtəlif tələbatlarının təmin olunmasına istiqamətlənərək, postsənayeləşdirmə mədəniyyətinə də yiyələnir. Bu şəraitdə, müəssisəyə öz evi, heyətə isə böyük ailəsi kimi baxan müəssisə rəhbərinin və menecerin rolları, tərbiyəçinin, eləcə də ailə başçısının rollarına yaxınlaşır. Burada bir önəmli məqamı da qeyd edək ki, şəxsi işlərin aparılması üçün "qadın " üslubunun qəbul edilməsinə baxmayaraq, qadın-sahibkar bazarın tələblərinə və istehsalın yeni şərtlərinə uyğunlaşmaqda kifayət qədər yüksək effektlilik göstərirlər. Onlar şəraitin dəyişkənliliyinə uyğun olaraq diribaşlılıq, realistlik, uyğunlaşmaq bacarığı, manevr etmək qabiliyyəti nümayiş etdirir, əməyin təşkilində və mənsəbə yüksəlməkdə peşəkar vərdişlərə yiyələnməyə can atırlar.

**5). Qadın sahibkarlığı təcrübəsindən: ibrət dərsi və məsləhətlər.**

("Частное предпринимательство: основные понятия, теория и практика". /М., 1994, с.100-104/ kitabından tərcümə).

Fransız jurnalist qadın və menecment sahəsində mütəxəssis özünün "Qadın - iş adamı - gələcəyin nümunəsi" kitabında, milli mənsubiyyətindən asılı olmayaraq, qadının özü üçün nəticə çıxara biləcəyi 10 ibrət dərsini sadalayır:

Birinci dərs. Həyat yolunun başlanğıcında şəxsi həyatındakı uğursuzluqlar müvəffəqiyyət üçün yaxşı təkan ola bilər. Uğursuz nigah, erkən analıq və tələsik boşanma işgüzar dairədə özünü reallaşdırmaq üçün təkan da ola bilər. Belə ki, onun kitabının qadın qəhrəmanlarının ailələrinin dağılması, onlar üçün həddindən artıq dar olan ailə çərçivəsinə sığmayan, qeyri-adi yaradıcılıq imkanları olan həyata çağırırdı. Təbii enerjiləri çıxış yolu taparaq, onları öz işlərini yaratmağa, sonra isə yeni ailə qurmağa sövq edirdi. Onarın təcrübələri tövsiyə edir: yayınmamaq, fəaliyyət istiqamətini diqqətlə seçmək və öz qarşısında konkret peşəkar məsələlər qoymaq. Keçmiş haqqında səmərəsiz təəssüflə, həmçinin perspektivi olmayan vəziyyətlərin saxlanması istisna olunur. Ümidi saxlamaq və dəyişikliklərə həvəsi tətbiq etmək vacibdir, onda yaradıcı enerji özünə çıxış və istiqamət tapacaqdır.

İkinci dərs. Bütün "uğurlu qadınlarda" seçdiyi yolun düzgünlüyünə tam əminlik və ideyadan öz layihəsinin həyata keçirilməsinə qətiyyətlilik hökm sürür. Xüsusi işgüzarlıq təhsilinə malik olmalarına baxmayaraq, kişilərin onlar ciddi qəbul etməyəcəklərindən qorxmayaraq, onlao keyfiyyətsizlik kompleksini hiss etmir və intuisiyalarına etibar edirlər. Onların hamısı öz

işlərindən ləzzət alırlar, bu da onların işgüzarlıq fəaliyyətini artırır.

Üçüncü dərs. Bütün işgüzar qadınlar müstəqilliyi yüksək qiymətləndirir və qadına ətrafı tərəfindən (ailə, qohumlar və cəmiyyət) göstərilən təzyiqlərdən yaxa qurtarmağa çalışırlar. Onların heç biri muzdlu əməyə qayıtmaq istəmirlər. Sabitlik, məşğulluğa zəmanət və məsuliyyətin olmaması onları şirnikləndirmir. Onlar qərarların qəbulunda müstəqilliyi yüksək qiymətləndirirlər.

Dördüncü dərs. İrəli çıxmaq üçün medalın o biri üzü - təklikdir. Əlbəttə, bu hal həmişə deyil, həm də bir şeydə deyil, lakin öz işini yaratmış qadın, qorxaraq və ya məsuliyyətini digərləri ilə bölüşdürmək arzusunda olmayaraq, çox vaxt "səhnədə yeganə aktyora" çevrilir .

Beşinci dərs. Bütün işgüzar qadınlar öz "komandası"nı yığmağın çətinliyini etiraf edirlər. Qadın müəssisələrində kadrların formalaşması təcrübəsi olmaması səbəbindən işgüzar qadınlar öz əməkdaşlarını qohumları və tanışları arasında axtarmalı olur. Bu isə heç də həmişə lazımi effekt vermir və demək olar ki, əksərən ehtiyacı ödəməyən xidmətlərdən "komandaya" olan etirazı çətinləşdirir.

Altıncı dərs. İşbazlıq - bu həmişə müəyyən risklə bağlıdır. İncə məqam ondan ibarətdir ki, qadınlar həmişə daha çox və ya daha az riskli variantlar seçmək imkanına malikdirlər. Risk, ənənəvi qadın fəaliyyəti dairəsindən kişi biznesinin (pul əməliyyatları, sənaye, restoran işi, konsaltinq) toxunulmaz sahələrinə keçid zamanı, həmçinin texniki yeniliklərdən istifadə olunan və gələcəyə malik təzə sahələrə keçən zaman artır. Belə hallarda isə çox vaxt yeni dirçələn qadın biznesinin tələbatını nəzərə almayan, qanunvericilikdəki boşluqlar maneə rolunu oynayır.

Yeddinci dərs. Hər halda ənənələri yerindən oynatmaq və qadınların hələ gözləmədiyi sahələrə də daxil olmaq lazımdır: fransalı işgüzar qadınların təcrübəsi bunu bir daha sübut edir.

Onlar təsdiq edirlər ki, hər bir ənənənin saxlanmasının da xeyri var. Bizneslə məşğul olan qadınlar hələ mühafizəkar strukturlar yaratmayıb və mübarizə aparılması lazım olan vərdişlər qazanmayıblar. Əksinə, onlar ictiamai həyatı və iqtisadiyyatı yeniləşdirə biləcək güclü qüvvə kimi çıxış edə bilərlər. Çünki onlar kişi biznesinin istehkamına çevrilməmiş, yüksək mədəniyyət, ümumi bilik səviyyəsi tələb edilən texnologiyaya və digər sahələrə daxil olurlar.

Səkkizinci dərs. Qadın işbazlığının tətbiq oluna biləcəyi ən yaxşı sahələrdən biri də xidmət sahəsi sayılır. Dinləmək bacarığı ilə altruistlik azadlığı, insanların xoşbəxtliyinə könülvermə qabiliyyəti qadınlara müştərilərin vəziyyətinə tez daxil olmağa və onların köməyinə gəlməyə imkan yaradır ki, bu da ailənin müxtəlif tələblərinə xidmət etməkdə əsrlərlə qazandıqları vərdişlərin nəticəsidir.

Doqquzuncu dərs. Analıq biznesə mane olmur, bunu təcrübə də təsdiq edir. İşgüzar qadınların əksəriyyəti tamamilə əmindirlər ki, sabit ailə təməlinin onlara verdiyi gücü hiss etmədən öz işlərini davam etdirə bilməzdilər, heç olmasa ona görə ki, işlərini yaradarkən yalhız öz maraqlarının deyil, həmçinin ailələrinin gələcəyi haqda fikri rəhbər tuturlar. Analıq işgüzar qadında günahkarlıq kompleksi törətməməlidir. Kitabın çoxuşaqlı ailələri olan qəhrəman anaların əməyinə görə uşaqların analarının iş dünyasına münasibəti və qoşulması keyfiyyətcə qarşılıqlı uzaqlaşmaya imkan yaradan, ananın daima evdə olmasından daha yaxşıdır.

Onuncu dərs. Əgər ailədə tərəfdaşlıq konsepsyası və təcrübəsi qəbul olunubsa, ər-arvad bir komandada olurlarsa, onda keyfiyyətcə yeni ailə münasibətlərinə keçid göz qabağındadır: ailəçilik münasibətlərindən ər-arvad tərəfdaşlığına doğru. Birinci, vəzifələrin tam burjuasayağı bölünməsi üzərində qurulmuşdur: kişi işləyir, qadınsa evlə və uşaqlarla məşğuldur. Vəzifələrin bu qaydada bölünməsi əksər hallarda birliyin olmaması ilə və özünü peşəkar qayğılarının tək əsirinə çevrilmiş kişinin təkliyi ilə nəticələnir. İşgüzar qadın isə ailədə özünü başqa cür aparır. Hətta, əgər ər-arvad bir yerdə işləməsələr belə, ailə üzvləri işgüzar problemlərin müzakirəsinə cəlb olunur və çox zaman işgüzar layihələrin həyata keçirilməsində iştirak edirlər. İşgüzar qadının yaradıcı xarakteri bütün sahələrdə özünü büruzə verir: mümkün olan yerdə özünün fəallıq çərçivəsini genişləndirməyə və məhdudiyyətləri aradan götürməyə can ataraq, o peşəkar və şəxsi həyatına yeniliklər gətirib. İşgüzar qadının gündəlik həyatında ailə vəzifələri ilə peşəkar fəaliyyəti arasındakı münasibətləri daha həmahəng etməyə və yüngülləşdirməyə istiqamətlənmiş bir neçə məsləhət diqqətəlayiqdir:

- Birinci məsləhət: öz işini yaratmağın, əsas etibarilə başlanğıc mərhələsində valideynlər üçün yaxşı münasibətləri qorumaq və onların köməyini axtarmaq vacibdir. Onlar müvəqqəti olaraq uşaqlara qaygını öz üzərlərinə götürə bilər, maliyyə və mənəvi cəhətdən kömək edə bilərlər.
- İkinci məsləhət: Sizinlə əməkdaşlıq etmək istəyən, sizə kömək etməyə hazır olan və ideyalarınıza həmfikirlilik göstərən insanların sizi nəinki iş yerində, həmçinin məişətdə əhatə etməsi vacibdir. İşgüzar qadın həmfikirlərin və lazımi adamların vaxtaşırı qəbul olunmasının nə qədər xeyirli olması haqda özünə hesabat verməlidir.

- Üçüncü məsləhət: özünüzü və işinizi xeyirxah kişi iştirakı ilə təmin edin. Məsələn, sizə xeyirxah olan sponsor dəyərli məsləhətləri və vaxtlı-vaxtsız köməyi ilə qadın çiyinləri üçün həddən artıq ağır yükü yüngülləşdirə biləcək,.

- Dördüncü məsləhət: ev təsərrüfatında müasir məişət texnikasının yeniliklərin geniş istifadə olunması, nəinki ev ilə əlaqədar vəzifələrin yerinə yetirilməsini yüngülləşdirər, hətta bu, işgüzar qadının imicinə "işləyər".

- Beşinci məsləhət: arzu olunur ki, nəqliyyat streslərini minimuma endirmək, işgüzar iş gününün gərginliyini çıxarmaq və vaxtın çox hissəsinin ailə ilə keçirilməsi üçün idarə binasını evinizin yaxınlığında axtarasınız. Sorğu olunan qadınlar üçün hər yerə can atmağa etiraz xarakteridir. Onların sabitliyini iş və ailə təmsil edir. heç də təsadüfi deyil ki, onların hamısının dediyinə görə, yalnız idarələrin yaxınlıqda yerləşməsi, belə məhsuldar şəraitə öz uşaqlarının tərbiyəsi ilə məşğul olmağa imkan yaratmışdır.

Son 30-40 ilin sosial-mədəni proseslərinin təhlili göstərir ki, mədəniyyətdə və o cümlədən, dünyagörüşündə ümumilikdə ləng, lakin kifayət qədər nəzərə çarpacaq dəyişikliklər baş verir və bu XX əsrin ortalarında təşəkkül tapmış və insanlıq dəyərlərini, onların dərketmə üsullarını dəyişməyə meyillidir. Səciyyəvidir ki, feminizmin bizim yüzillikdəki yeni canlanması öz vaxtına görə bir qayda olaraq sabitləşmiş ictimai normalara qarşı etiraz xarakteri daşıyan müxtəlif sosial-siyasi hərəkatların: yaşıllar (ekologiya) hərəkatı, "Xippi" (burjua dəyərlərinə qarşı yönəldilmiş əks mədəniyyət) irqi qarşıdurmanın artması, feminzmin özünün siyasiləşməyə tərəf meyillənməsi nəzərdə tutulmuş ictimai hərəkat kimi və s. aktivləşməsi ilə üst-üstə düşür.

## Gender və fəlsəfə

Müasir təsəvvürlərə görə, gender (ingiliscədən tərcümədə "gender" - soy anlamına uyğun gəlir) anlayışı cəmiyyətin fərdlərdən deyil, kişi və qadından ibarət olduğunu bildirmək üçün işlənir. Tarix boyu onların rolu və əhəmiyyəti dəyişib, bu səbəbdən də qadın və kişilər heç vaxt bərabərhüquqlu ola bilməyiblər. Gender araşdırmaları XX əsrin ortalarından sonrakı feminist hərəkatı və nəzəriyyəsinin inkişafı nəticəsində yaranıb. O, kişi və qadın arasında qarşılıqlı münasibət və təsirin xüsusiyyətlərini açır, cinslərin sosial rollarının mədəniyyət və başqa dəyərlərdən asılılığını göstərir, onlar arasında bəşəriyyətin tarixi inkişafının xarakterini təyin edən fərqləri üzə çıxarır. Bu cərəyanın nümayəndələrinin fikrincə, bərabərsizlik problemi qadın və kişi arasında təbii-bioloji fərqləndirmə ilə bitmir. Cinslər cəmiyyətdə öz - matriarxal, ya da patriarxal dəyərlərini bərqərar etmək üçün daim mübarizə aparırlar.

Hazırda bu cərəyanın ümumi bir adı yoxdur. "Gender", "gender araşdırmaları", "genderologiya", "gender ölçüləri" terminləri ədəbiyyatda bərabər hüquqla işlənir. Hətta bəzi araşdırmalara görə, "gender" termini cinslərarası qarşılıqlı münasibətlər problemini tam dəqiq ifadə etmir.

Gender araşdırmaları ilə daha çox qadınlar məşğul olur. Ancaq o, liberal feminizm əsasında yaransa da, onu sadə ancaq qadın problemi hesab etmək olmaz. Gender araşdırmalarını çox vaxt cinslərin fəlsəfəsi adlandırırlar. Bu zaman 2 növ fərqləndirmə aparılır: 1. Qadın və kişi arasında təbii, gerçək, təbii-fizioloji fərqlər; 2. Cinslər arasında süni, sosial-mədəni müxtəliflik. Bunlar da öz növbəsində cəmiyyətin bütün sferalarında öz əməli əksini tapır.

Beləliklə, gender araşdırmalarının predmeti (həm də

obyekti) iştirak edən şəxsləri qadın və kişilərdən ibarət insan cəmiyyəti tarixidir. Əgər bu tarixi təsvir zamanı yalnız bir cinsin mövqeyi, marağı əks olunursa, onda bu tarix birtərəflidir, tam deyil və hakim cinsin ideologiyası rolunu oynayır. Gerçək tarix dəyişdirilir və saxtalaşdırılır, ondan "həqiqətə zidd" və hakim cins üçün maraqsız sanılan hadisələr silinir.

Feminstlərin fikrincə, tarix elmi patriarxaldır, onu ancaq inqilablar, müharibələr və "tarixin lokomotivi" saydıqları zor maraqlandırır.

Cinslərin soy əlamətlərinə görə fərqləndirilməsi toplumun dünyagörüşü və mədəniyyəti ilə bağlıdır və konkret cəmiyyətin dəyərlər və ideallar sistemini əks etdirir. Buna görə də cəmiyyət həyatının bütün sferalarında, hətta dildə də qadın və kişi cinsləri arasında süni yaradılmış fərqlərlə qarşılaşmaq mümkündür.

Bəşər tarixinə cinslərin qarşılıqlı münasibətləri baxımından yanaşmaq keçmiş haqda təsəvvürlərimizi dəyişir, cəmiyyətin inkişafının müasir problemlərinə, həm də gələcəyin perspektivlərinə təsir edir.

Bu gün genderin elm, dünyagörüşü, fəlsəfə, ya mədəniyyət, siyasət və ideologiya faktoru olmasını birmənalı müəyyən etmək çətindir. Çünki hətta bütün bu sahələr birlikdə gender yanaşmasının məğzini açmır. Bu baxımdan gender XX əsrin ortalarında yaranmış cərəyanlardandır və insanlığın elmi, mədəni təsəvvürlərinin geniş spektrini birləşdirir.

Bəs görəsən, bir neçə min il əvvəl matriarxat müharibədə patriarxata uduzmasaydı, insanlıq tarixi necə olardı. Bir tərəfin qalib gəlməsi fəlsəfə, incəsənət, elm, hətta dinin də "birtərəfli" dəyərlərin əsarəti altına düşməsi mənasına gəlmir ki. Tərəflərdən birinin "tam" qələbəsi hansı nəticələri doğurur? Patriarxatın triumfu sivilizasiyaya nə

qazandırdı? İnsanlığın qadının cəmiyyətdən "qovulması" nəticəsində itirdiyi femin və maskulin dəyərlərin uzlaşmasının gələcək perspektivini proqnozlaşdırmaq olarmı? Yenidən matriarxat revanşı yaşayacağıqmı? Bəlkə elə bu gündən "qadın intiusiyasını" "kişi rasionalizmi" ilə birləşdirib cinslərin harmoniyasına nail olmaq haqda düşünməliyik? Bu sonsuz suallar sırasını istənilən qədər artırmaq olar. Amma söhbət sadə yeni dünyagörüşünün yaranmasından gedir. Bu günədək dünyanı "tək gözlü" kimi ancaq bir tərəfdən görmüşük. Artıq dünyaya "iki gözlə" hər tərəfdən baxıb, praqmatik və rasional şüurdan imtina etmək vaxtıdır. Bu şüurda güc, mübarizə, zor kateqoriyaları, növbəti qələbə üçün sonsuz mücadilə həmişə məğlubiyyətlə, çoxsaylı böhranla nəticələnir.

Üçüncü minilliyin başlandığı bir vaxtda sivilizasiya gözlərimiz önündə dəyişir. Gender araşdırmaları bu qürubun lap başlanğıcını təsvir edərək, həm elmdə, həm də başqa müasir dərketmə istiqamətlərində əvəzsiz rol oynayır. Gender təzəcə yaranan yeni dünyagörüşünün metodoloji əsası, yeni fəlsəfənin fundamentidir. Bu fəlsəfə isə toplumda qadın və kişinin rolunu, yerini və önəmini təzədən araşdırıb təyin edir.

Gender qadın problemi yox, cinslər arasında harmoniya axtarışı praktikasıdır. O, insanlığın potensialını zahirən 2 zidd qüvvənin - qadın və kişinin vəhdətində bütünlüklə açır.

Gender araşdırmaları onu da nəzərə alır ki, bu da 2 "antoqonist" ailədə birləşərək "üçüncü sinfi" - uşaqları əzir. Bu tədqiqatlar həm də dünya xalqlarının yüzlərlə inkişaf modelində irqi, etnik, dini, siyasi və başqa zor tətbiqinin səciyəliliyini üzə çıxarır. Onlar göstərir ki, blokların ləğvi ilə dünyada güc və məcburetmə siyasəti zəifləmədi, əksinə, daha da artdı.

Əgər dünya tarixinə, daha dəqiq, onu izah və təsvir edən sonsuz sayda elmi tədqiqatlara nəzər salsaq, burda daha çox böyük və təcavüzkar dünya imperiyalarının, ölkə və dövlətlərin təsvir edilməsinin şahidi olarıq. Onlar müharibə, zor gücünə öz acgöz niyyətlərini gerçəklədiblər. Əlbəttə, danmaq olmaz ki, bu dünya tarixi ədəbiyyatında elə mədəniyyət, incəsənət, dünyagörüşü, dini-fəlsəfi konsepsiyalar var ki, müxtəlif, o cümlədən, kiçik xalqların əsl mənəvi, əxlaqi və bədii inkişafını əks etdirir. Ancaq tarixin anlaşılmasının başlıca xətti, təəssüf ki, tarixi, cəmiyyətdə güc və zor prinsiplərinin, patriarxal dəyərlərin təsdiqi kimi təsvir edir. "Gücün fəlsəfəsi" - şüur və təfəkkürün əsas komponenti kimi sosial həyatın bütün sahələrini əhatə edib.

Təsadüfü deyil ki, "güc və zor fəlsəfəsinin" zirvəsi, dünya tarixi prosesin siniflərarası mübarizə kimi izah edən marksizm bu cür böyük uğur və əməli tətbiq tapmışdı. Və Marks burada heç də yeni bir şey kəşf etməmişdi. Ondan çox əvvəl ingilis filosofu və böyük dövlət xadimi F.Bekon hamımıza bəlli "Bilik - gücdür" şüarını səsləndirmişdi. Ancaq bu mütəfəkkir də əvvəlki insanlıq təcrübəsindən çıxış edirdi. Bu insanlıq yalnız təbiətlə bitməz mücadilə sayəsində yaşamını qoruya bilmişdi.

Mübarizə, güc, zor, qələbə - bizim sivilizasiyanın simvoluna çevrilib. Bu səbəbdən gender araşdırmaları sahəsi genişləndirilməlidir. Kişi və qadın qarşılıqlı münasibətləri - "güclü və zəifin", hakimiyyət daşıyıcısı və tabe adamların qarşılıqlı təsir dramının baş verdiyi ancaq bir, lap olsun, ən önəmli səhnə ya siyasətdə böyük şəxsiyyət kimi tanınan aspektidir. Bu aspektlər sırasını güc prinsiplərindən çıxış edərək irqlər, dövlətlər, xalqlar, mədəniyyətlər, dinlər və başqaları arasında ziddiyyətli münasibətlərlə tamamlamaq olar.

Son 10-15 ildə baş verən hadisələr Azərbaycanda da

gender araşdırmalarının son dərəcə önəmli olmasından xəbər verir. Müstəqillik əldə edilməsi, sosial-siyasi sistemin dəyişməsi cəmiyyətin sosial strukturunda və meyarları seçimində həlledici dəyişmələrə səbəb olub. 80-ci illərdə başlamış demoqrafik və miqrasion proseslər uzunmüddətli müharibə, həyat səviyyəsinin son dərəcə aşağı düşməsi və iqtisadiyyatın böhranı səbəbindən 90-cı illərdə kəskin şəkildə gücləndi. Müharibə verilmiş çoxsaylı qurbanlar, xüsusən, əhalinin iqtisadi mühacirəti reproduktiv nəslin disbalansına gətirib çıxardı. Amma bu, həm də bizim cəmiyyətdə qadının rolunun güclənməsinə səbəb oldu. Bu gün qadınlar ənənəvi olaraq, əvvəllər kişilərə aid sosial mövqeni tutmağa başlayıblar. Hazırda qadınlar tərbiyə, təhsil, səhiyyə sistemində üstünlük təşkil edir. Ticarət, sosial xidmət, mədəniyyət və elm sahələrində çalışan qadınların da sayı xeyli artmışdır. Əhalinin qadın hissəsinin tam "kişi" fəaliyyət sahələrinə meyli hiss olunur. Onlar siyasi partiya, ictimai təşkilat və birliklərdə geniş təmsil olunublar. Bircə onu qeyd etmək kifayətdir ki, respublikada bu gün 50-a yaxın qeydiyyatdan keçmiş Qadın Təşkilatı (QHT) var. Bütün bunlar Azərbaycanda tamam yeni gender situasiyasından xəbər verir. Demokratiya və bazar iqtisadiyyatı prinsipləri xalqın milli və konfessional dəyərləri, onun psixologiyasının və tarixi inkişafının spesifikası ilə hələ zəif qarşılıqlı əlaqədədir. Keçid dövründə qadın və kişinin rolu necədir, gələcəkdə bizi nə gözləyir? Bu suallardan göründüyü kimi, respublikada müəyyən gender siyasətinə ehtiyac var. Həmin bu siyasət isə dövlət səviyyəsində qəbul olunmuş ölçülüb biçilmiş proqrama əsaslanmalıdır.

## Qadın və seçki

Demokratiyanın əsas göstəricilərindən olan seçkilər cəmiyyətdə mühüm hadisədir. Seçilmək və seçmək məqamı böyük maraq yaratsa da, bu elə bir prosesdir ki, hər bir vətəndaş borcunu yerinə yetirməklə yanaşı, öz yaşam tərzini də ifadə edir.

Seçkilər zamanı adətən "kim seçilir?" sorğusu önə keçməklə, məsələnin əsas mahiyyətini sanki bir qədər kölgədə qoyur. Və "kim səs verəcək?" sualı ikinci dərəcəli xarakter alır. Bütövlükdə götürdükdə isə problemin mahiyyəti "kim səs verəcək" sorğusundadır.

Cəmiyyətdəki hadisə və proseslərdə isə bu cəhətdən "zərif qanadın" passivliyi, hətta bəzən də laqeydliyi əsas amil kimi meydana çıxır.

Qadınlara ilkin olaraq seçib-seçilmək hüququ 1893-cü ildə Yeni Zelandiyada verilmişdir. Respublikamızda isə qadınlar 1919-cu ilin sentyabrında ADR parlamentinin payız sessiyasında bərabərlik haqqında təkliflərin təsdiqi ilə seçib-seçilmək hüququ qazanıb. SSRİ məkanında da bərabərlik hüququ formal olsada saxlanılmışdır. Hətta belə demək olarsa məlum forma məzmunla tərs mütənasib də deyildi. Belə ki, 1985-ci il Azərbaycan Ali Sovetinin 450 nəfər deputatından 179 nəfəri (39%) qadın idi. Hətta, 1991-ci ilə qədər Ali Sovetin sədri də qadın idi. 1995-ci ildə Milli Məclisdə qadın deputatlarının sayı 12 faiz, yəni 15 nəfər olmuşsa, 2000-ci ildə isə 10.6 % yəni 124 nəfərin 13-ü qadındır.

Statistik rəqəmlərə müraciət etsək, ölkədə qadınlar kişilərdən çoxdur. Seçib-seçiləndə isə, mütənasiblik pozulur. Həm seçilən həm də seçici kimi qadın azlıq təşkil edir.

Burada "kim səs verəcək?" sorğusunda demokratik bərabərlik nizamının bəzi məqamları da şərtlənir.

Əvvala, seçib-seçilən qadınların sayı, ikincisi, səsvermədə qadınların necə iştirakı və üçüncüsü, qadın elektoratın siyasi səviyyəsi həlledici faktorlardandır. Qərbdə hər bir siyasi qurum ilkin olaraq öz seçicilərinə dair məlumatlar boşluğunu tənzimləyir, seçkilər vaxtında hər iki cinsdən olan elektoratın dəyərlər oriyentasiyasını mütləq əsas kimi nəzərə alır. Bəzi ölkələrdə seçicinin seçicilik funksiyası xüsusi qanunlarla tənzimlənir.

Elmdə "absentizm" deyilən bir məfhum var. Mənası - seçkili, nümayəndəli orqanların və vəzifəli şəxslərin seçkiləri zamanı seçicilərin səsvermədən boyun qaçırmalarıdır. Absentizmə yol verməmək üçün bir sıra ölkələrdə məcburi səsvermələr tətbiq edilir, bunun üçün müxtəlif vasitələrdən istifadə olunur. İlk əvvəl seçkilərdən imtina edənlər cərimə olunur, bəzən həbslə də cəzalandırılır. Buradaca sual doğa bilər ki, bəs demokratik prinsiplərlə məcburi qaydalar bir ölçüdə bərabərləşdirilə bilərmi? Demokratiya heç də anarxiya deyil və bəzən lazımi məqamlarda prinsipial cəhətdən bütövlükdə cəmiyyətin tərəqqisi üçün müəyyən çərçivədə bu üsullardan istifadə edilməsi qeyri-məqbul sayıla bilməz.

Hadisələrin təhlili göstərir ki, əvvala demokratik seçki anlamının bütün sosial qruplar tərəfindən təbliğinə ehtiyac böyükdür. İkincisi siyasi cəhətdən təşkilatlananlar tərəfindən bu problemin dərkinə ehtiyac vardır. Nəinki əyalətlərdə, hətta mərkəzdə belə qatı mühafizəkar ər (ata-qardaş-oğul) "əhli əyalı" əvəzinə özü səs verir, öz liderinə və yaxud istədiyi şəxsə. Məhz bu kimi hallara görə də demokratik seçki nədir, necə olmalıdır kimi aktual məsələlərlə yanaşı "kim səs verəcək?" anlamının geniş izahı, müxtəlif təbəqələrdə təbliği genişləndirilməlidir. Təbii ki,

qeyd olunanlarda bəzi faktorlara görə nəzəriyyədən önəmli, işə görə mübahisə xarakteri doğuran hallar da mövcuddur.

İlkin olaraq onu göstərək ki, 1988-ci ildən sonra respublikada demoqrafik fəlakət yaranmışdır. Əhalinin (əsasən də qaçqın və köçkünlər) əksər hissəsi çörək arxasınca "laməkandır". Respublikada bir sıra qeyri-hökumət qurumları demokratik seçki proseslərini öyrənməyə cəhd etsə də, bütün hadisələrin elmi-praktiki adekvat təhlili, tədqiqini araşdıran sosial institutlar yox dərəcəsindədir. Buna bariz nümunə kimi qəbul edilən qanunları, eləcə də proseslərə beynəlxalq sosial institutlardan rəy gözləmə sindromunu göstərmək olar. Fikirlərimizi əsaslandırmaq üçün respublikamızda absentizm hallarına diqqət yönəldək. Absentizm, yəni seçicinin səsvermədə iştirak etməməsi halı daha çox qadınlar arasındadır.

Burada əsasən aşağıdakı təzahürlər özünü daha qabarıq göstərir:

• Qatı mühafizəkar ata (ər-qardaş-oğul) heç bir qayda-qanunla razılaşmayaraq, qadına seçkiyə getməyə icazə vermir;

• əsrlərlə formalaşmış adət-ənənə, milli köklər, müsəlmançılıq davranışı;

• qadına xas olan, bir növ laqeydlik düşüncəsindən asılı olaraq qadın özü maraq göstərmir;

• patriarxal ailə münasibətləri, bütün baş verən olaylardan xəbərsizlik sindromu, "başımın tacı", "evimin ağası", "böyüklərim" bilər kimi qadın həyat tərzi, psixoloji çəkingənliklə yaşanan anlam dünyası;

• sosialist sisteminin repressiya kimi qorxuducu təsirlərinin hələ də şüurlardan tam silinməməsindən irəli gələn "qoy elimin-obamın baş biləni özü bilsin" kimi

saxtakarlığa bilmədən, anlamadan yol açıb, rəvac vermə düşüncəsi.

Onu da xüsusilə qeyd edək ki, qadınların sayca çoxluğu, heç də o demək deyil ki, onlar "hakimi mütləq" olmalıdır. Əsla! Lakin, növbəti seçkilərdə heç olmazsa üçdə bir kvotaya nail olunması üçün məhz seçici qadınların öz fəallığı gərəkdir. Parlamentdə millət vəkili qadınların sayının çoxalması, ali icraedici və qanunverici hakimiyyət strukturlarında da faiz əmsalının yüksəlişi gərəklidir. Mühafizəkarlıq kimi düşüncə və davranışlara qarşı maaarifləndirmə istiqamətində təbliğ fəaliyyəti genişləndirilməlidir. Absentizmə yol verməmək üçün qanunla müəyyən ölçülərin tətbiq olunması müzakirəyə ehtiyacı olan problemlərdəndir.

**Məsul katib və tərtibat:**
Rəşad Qasımzadə

**Kompüter operatoru:**
Daşqın Rəcəbli

Format 60x84/16 7,5 ç.v. Tiraj 300 nüsxə.
Kitab "Adiloğlu" MMC-nin mətbəəsində
çap edilib.